Xalqın qəzeti!
# Xalq qəzeti
№ 004 (30408) 11 yanvar 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

Sülh müqaviləsində heç bir zəmanətçiyə ehtiyac duymuruq

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Prezident seçkiləri – son 20 ilin siyasi yekunu

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verib.**



Azərbaycan Televiziyasından **Rövşən Məmmədov:** ***Cənab Prezident, hər vaxtınız xeyir olsun. Öncə müsahibəyə görə hər birimizin adından Sizə təşəkkür edirik. Suverenliyimizin tam bərpa olunmasından, xüsusən də Xankəndi Zəfərindən sonra belə bir görüş, belə bir müsahibə hər birimizin arzusu idi. Odur ki, bu arzumuzu nəzərə aldığınıza görə Sizə təşəkkür edirik.***

***Cənab Prezident, yeni tarixi reallığı, yeni tarixi mərhələni yaşayırıq. Ən böyük reallıq qeyd etdiyimiz kimi, Qarabağın tam azad olunması, Qarabağdan separatizmin, terrorizmin təmizlənməsi və Sizin təbirinizcə desək, tarixin zibilliyinə atılmasıdır. Əlbəttə ki, hər bir reallığın arxasında güc, prinsipiallıq, əzm, iradə və Sizin "Dəmir yumruğunuzdur". Məhz ona görə də mən istərdim elə ilk sualımı bugünkü reallıqlardan son 20 illik fəaliyyətə nəzər salmaqla başlayaq. Bu gün ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanımızdan, suverenliyimizi tam bərpa etmiş Azərbaycanımızdan son 20 illik fəaliyyətə nəzər salsaq, hansı mənzərə canlanır? Biz bu 20 ildə haradan-haraya gəlmişik?***

**Prezident İlham Əliyev:** Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993–2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi.

Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Əgər biz bu haqda geniş danışsaq, yəqin ki, bütün müsahibəni buna həsr etməli olacağıq. Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar.

Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan – Ermənistan sülh gündəmi: bir addım irəli, bir addım geri

### İrəvandan eşidilən 3 açıqlamaya sözardı



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan İrəvanda səfərdə olan yunanıstanlı həmkarı Giorgos Gerapetritisə Azərbaycanla imzalanması nəzərdə tutulan sülh müqaviləsi ilə bağlı məlumat verib. Bu barədə, eləcə də digər erməni rəsmilərinin son günlər mövcud istiqamətdə səsləndirdikləri fikirlərdən bəhs edəcəyik.**

Ancaq əvvəlcə onu bildirək ki, A.Mirzoyan Yunanıstanın Xarici İşlər nazirini məlumatlandırarkən, məsələni Qarabağ ermənilərinin "məcburi" köçkünlüyündən sonrakı dövrdə Cənubi Qafqazdakı vəziyyət və sülh prosesi kontekstində qabardıb: "Əlbəttə, mən tərəfdaşımıza və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərinə Dağlıq Qarabağ ermənilərinin məcburi köçkünlüyündən sonra Cənubi Qafqazdakı vəziyyəti, sülh prosesini, bunun təfərrüatlarını və problemləri ətraflı şəkildə təqdim etdim".

Göründüyü kimi, Ermənistan köhnə ritorikasından əl çəkmir. Yenə də sülh prosesi ilə bağlı söz düşəndə, Azərbaycan ittiham obyektinə çevrilir. Digər tərəfdən, İrəvan bu proses müstəvisində özünün ortaya atdığı "Dünyanın kəsişməsi" ideyasının üzərinə gəlir. Belə çıxır ki, bu ideya Azərbaycanla normallaşmanın başlıca elementi rolunda çıxış etməkdədir. Halbuki, heç də belə deyil.

*(ardı 7-ci səhifədə)*

## Azərbaycanın daxili işləri siyasi oyun meydanı deyil



**Fransanın Azərbaycana qarşı qərəzi davam edir. Əlbəttə, bu qərəzə layiqli cavab var. Ölkəmizin Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşının tutulması ilə əlaqədar açıqlamasına münasibəti bunu deməyə əsas verir. A.Hacızadə qarşı tərəfin iddialarının heç bir əsası olmadığını vurğulayıb: "Bu əsassız bəyanat reallığın təhrif olunması, Azərbaycanın daxili işlərinə və qanuni təhqiqat prosesinə növbəti müdaxilə cəhdidir".**

Belə cəhdlər Fransaya yalnız fiasko vəd edir

Qeyd edək ki, Fransa vətəndaşı Martin Rian ötən il dekabrın 4-də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Daha sonra, onunla bağlı məhkəmə qərarı çıxarılıb və 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. A.Hacızadə həmin şəxs barəsində tədbirlər görülərkən, milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə tam riayət olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Fransa səfirliyinin konsulluq əməkdaşları M.Riana bir neçə dəfə baş çəkib və cinayət işinə dair tam məlumatlandırılıblar.

*(ardı 7-ci səhifədə)*

## Aşağı seçki komissiyaları üçün təlimlər




Səhifə ⇨ 6

## Ekvador mafiyası yeni prezidentə savaş açıb?



Səhifə ⇨ 11



## Azərbaycan etibarlı beynəlxalq tranzit keçiddir

**Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan bu gün, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.**

*(ardı 9-cu səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

**(əvvəli 1-ci səhifədə)**

"Real" Televiziyasından **Mirşahin Ağayev**: ***Cənab Prezident, oktyabr ayının 15-də Siz Xankəndidə Azərbaycan Bayrağını qaldırdınız və mənə elə gəlir ki, bu, yalnız Sizin əl deyildi, bu, ulu öndər Heydər Əliyevin əli idi, bu, Pənahəli xanın əli idi, bu, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əli idi və bütün əllər məhz Sizin əlinizdə cəmləşmişdi. Mən Xankəndini tərk etdiyim, təxminən, 30 il əvvəl – 1991-ci ildə tərk etmişdim, orada Matvey Radaev ilə müsahibəm olmuşdu, "Orqkomitet"də, sonradan separatçılar iqamətgaha çevirdilər. Mənim üçün çox maraqlıdır, o an hansı hissləri yaşadınız? Bu sualın cavabını mən həm də adlarını çəkdiyim bütün o ulu insanların ruhu ilə bağlayacam.***

**Prezident İlham Əliyev:** Bilirsiniz, yəqin ki, Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bu kadrları görəndə hamımız eyni hissləri keçirmişik, o cümlədən, mən də. Mənim hisslərim Azərbaycan vətəndaşlarının hisslərindən heç də fərqlənmirdi, qürur və sevinc hissi, əlbəttə ki. Eyni zamanda, fikirləşirdim ki, ədalətə inanmaq lazımdır. Çünki 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal deyil. Bu, istər-istəməz insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Yəni, cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən. Müasir dünyada biz bunu artıq çoxdan başa düşmüşük. Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10-15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik. Ona görə bu, o cümlədən, bu nöqteyi-nəzərdən də önəmlidir, çünki ədalətə inam bərpa edildi. Yəni, biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik.

Halbuki əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Yəni, biz bu ədaləti, eyni zamanda, beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir.

Bir də gözümün önünə, bax, sizin də qeyd etdiyiniz o kadrlar gəlirdi. Həmin meydan, həmin şəhər, ancaq tam fərqli mənzərə. O meydanda, o meydanın başında yerləşən, – onu da deməliyəm ki, Azərbaycan memarı, səhv etmirəmsə, Həsən Məcidov adlı bir Azərbaycan memarı, həmin o "Abkom" deyilən binanın müəllifi olmuşdur, – həmin o binada, həmin o meydanda, o vaxt Azərbaycana qarşı çox çirkin bir oyunun başlanğıcına hamımız şahid olduq. Siz də o hadisələrin canlı şahidi kimi yaxşı xatırlayırsınız, o vaxt Qarabağda yaradılmış Xüsusi Komitə faktiki olaraq Qarabağın Azərbaycanın əlindən alınması üçün bir mexanizm idi. O Xüsusi Komitə, ona rəhbərlik edən şəxs və digər şəxslər, onların bütün addımları və hərəkətləri Qarabağı Azərbaycandan qoparıb Ermənistana bağlamaq idi.

Yəni, bütün bu kadrlar gözümün önünə gəldi və təbii ki, hisslərin çoxluğu deməyə imkan vermir ki, hansı üstünlük təşkil edirdi. Təbii ki, Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi.

Yəni, bunlar tarixi anlardır. Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik, hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu Qələbəni yaxınlaşdırırdılar. Bu, ümummilli bir məsələyə çevrildi, ümummilli hərəkata çevrildi və 30 il ərzində bir çox beynəlxalq tərəfdaşlarımızın səylərinə baxmayaraq, bu mövzu unudulmadı. Bunu bizə unutdurmaq istəmişdilər. Müxtəlif bəhanələr altında – Ermənistanla əməkdaşlıq, insanları, cəmiyyətləri sülhə hazırlamaq üçün müxtəlif QHT-lər vasitəsilə təmasların yaradılması məhz o məqsədi güdürdü ki, Azərbaycanda yetişən gənc nəsil bu məsələdə fərqli istiqamətdə yetişsin. Bizim isə məqsədimiz o idi ki, yetişən gənc nəsil vətənpərvər olsun, heç vaxt bu ədalətsizliklə barışmasın və əgər bizə nəsib olmazsa bu tarixi ədaləti bərpa etmək, gələcək nəsillər onu etməlidirlər.

Bir məsələni də mən deməliyəm, təbii ki, hamımız istəyirdik ki, biz öz ərazi bütövlüyümüzü nə qədər mümkünsə, bir o qədər tezliklə bərpa edək. Ancaq tarix nöqteyi-nəzərindən 30 il o qədər də böyük dövr deyil. Bu müddət ərzində danışıqlar prosesi zamanı bir çox təkliflər irəli sürülmüşdü və bəziləri düşünə bilərdi ki, nə üçün Azərbaycan bu təklifləri qəbul etmir? Axı, bu təkliflər əsasında rayonların bir neçəsi Azərbaycana heç bir müharibə aparılmadan qaytarılacaq, oraya keçmiş köçkünlər qayıdacaq, eyni zamanda, vəziyyət normallaşacaq. Nə üçün Azərbaycan bu təkliflərlə razılaşmır və barışmır? Təbii ki, danışıqlar prosesinin öz strategiyası, öz taktikası var idi. Təbii ki, biz danışıqları elə aparırdıq ki, öz məqsədlərimizə çatmaq üçün minimum xarici təzyiqlə üzləşək. Amma mənim üçün əsas məsələ o idi ki, bu, tarixi məsələdir, bu, ümummilli məsələdir və burada hansısa əlverişli görünə biləcək nailiyyət dalınca qaçmaq lazım deyil. Biz məsələni köklü şəkildə həll etməliyik, birdəfəlik həll etməliyik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməliyik. Ölkəmizdə separatizm yuvası qalmamalıdır və əgər bizim nəslimizə bunu etmək nəsib olmasa, elə gənc nəsil yetişdirməliyik ki, 20 ildən sonra, 30 ildən sonra, 50 ildən sonra onlar gəlib bunu etsinlər. Bax, əsas məsələ bu idi. Əlbəttə, hamımız xoşbəxtik ki, biz bu tarixi günləri gördük, yaşadıq və bu tarixi Zəfər Azərbaycan xalqının, dövlətinin tarixində əbədi qalacaq.

"ARB 24" Televiziyasından **Çinarə Nurməmmədova:** ***Cənab Prezident, ötən ilin ən mühüm hadisələrindən biri həm də "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması idi. Bundan dərhal sonra Azərbaycana qarşı təzyiqlər başlanıldı, "Qarabağda humanitar böhran yaradılır" ittihamı irəli sürüldü. Həmin dövrdə hələ Xankəndidə Azərbaycanın Bayrağı da ucaldılmamışdı, separatçılar da orada müəyyən fəaliyyət göstərirdilər və təzyiqlər də daha çox idi. Hazırda vəziyyət dəyişib və tamamilə yeni reallıqlar yaranıb. Hansı məqamlar, hansı nüanslar var ki, artıq biz onlardan danışa bilərik. Yəni, Azərbaycan sərhəd-keçid məntəqəsini yaradarkən hansı riskləri gözə almışdı?***

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz 10 noyabr üçtərəfli Bəyanatı imzalanandan sonra, əlbəttə ki, gələcək addımlarımızla bağlı ciddi düşünməli idik. Çünki 10 noyabr hadisəsi də bir dövr idi və müharibə nə ilə nəticələnəcək, noyabrın 8-də mən tam deyə bilməzdim, yəni, tam əminliklə deyə bilməzdim. Əlbəttə, mən bilirdim ki, bizim Zəfərimizlə nəticələnəcək, amma necə və nə vaxt, noyabrın 8-də demək mümkün deyildi. Çünki noyabrın 8-də təbii ki, çox böyük hadisə baş verdi – Şuşa işğaldan azad edildi və faktiki olaraq separatçıların müqaviməti, belə deyək, strateji nöqteyi-nəzərdən mənasız olmuşdu. Əlbəttə, əgər müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarını özü də artıq qış mövsümündə azad etmək çox çətin olardı. Halbuki biz bunu da edəcəkdik. Amma itkilərimiz həddindən artıq çox ola bilərdi, hətta 44 günlük müharibədə verdiyimiz şəhidlərin sayından qat-qat çox ola bilərdi. Biz hamımız bunu yaxşı bilirdik, çünki indi də oralara gedən, o bölgələrə gedən hər bir insan görür ki, nə dərəcədə çətin relyefdə yerləşən bir ərazidir. Ancaq əgər Ermənistan kapitulyasiya aktına imza atmasaydı biz, əlbəttə ki, müharibəni davam etdirəcəkdik son nöqtəyə qədər.

Ona görə 8 noyabrdan sonra – ertəsi gün bütövlükdə səhərdən axşama qədər, gecəyə qədər Rusiya Prezidenti vasitəsilə Azərbaycan, Ermənistan danışıqlarına həsr edilmişdir. Üçtərəfli Bəyanatın qəbul edilməsi, o şərtlərlə qəbul edilməsi, hesab edirəm ki, bizim böyük siyasi uğurumuzdur. Əlbəttə, əgər Şuşa işğaldan azad olunmasaydı, o şərtləri biz o bəyanata saldıra bilməzdik. Yəni, bizim Qələbəmiz, güclü olmağımız imkan verdi ki, biz hətta bu məsələyə aid olmayan şərtləri də oraya saldıraq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı.

Ancaq hər halda 10 noyabrdan sonra müəyyən bir vakuum yarandı. Heç kim bilmirdi bundan sonra nə olacaq? O vaxt hələ meydanda olan Minsk qrupunun həmsədrləri də demək olar ki, özləri də bilmirdilər nə ilə məşğul olacaqlar və bəzi səfərlər də oldu. Ermənistandakı vəziyyət təbii ki, birmənalı idi. Azərbaycanda xalq sevinc içində idi. Ancaq mən bilirdim ki, bu, işin sonu deyil. Çünki bir çox tamamlanmamış məsələ var və o məsələlərə aydınlıq gətirilməlidir, ilk növbədə, ovaxtkı Laçın dəhlizi ilə bağlı olan məsələ.

Müəyyən müddətdən sonra, xüsusilə görəndə ki, bu yol vasitəsilə Ermənistan Qarabağa silah-sursat, minalar göndərir, hərbi birləşmələrin rotasiyası həyata keçirilir, biz məsələ qaldırmağa başlamışdıq ki, artıq biz bu yola nəzarət etməliyik. Əfsuslar olsun ki, o vaxt Rusiya tərəfi buna müsbət yanaşmadı. Ancaq biz yenə də öz səylərimizi davam etdirirdik, mən dəqiq deyə bilərəm ki, uzun müddət ərzində – beş dəfə Rusiya tərəfinə ən yüksək səviyyədə müraciət edilmişdir ki, gəlin, bu yola birlikdə nəzarət edək. Çünki belə çıxır ki, siz buna tam nəzarət edə bilmirsiniz, hətta yəqin yadınızdadır, orada aşkarlanmış minaların da istehsal müddəti çox böyük suallar yaratdı. 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar oraya necə gətirildi? Yəni, təbii ki, bu minalar həmin o Laçın-Xankəndi yolu vasitəsilə gətirilmişdi. Ona görə biz məsələ qaldırdıq ki, gəlin, birgə postda biz də dayanaq və nəzarəti gücləndirək, eyni zamanda, Rusiya sülhməramlı qüvvələrinə də olan tənqidi yanaşma da səngiyər. Çünki biz məsuliyyəti sizinlə bir növ bölüşdürmüş olacağıq. Ancaq əfsuslar olsun ki, buna razılıq verilmədi. Nəhayət aprelin 23-də bizim başqa çarəmiz qalmamışdı, biz daha gözləmək fikrində deyildik. Biz bir neçə saat ərzində həmin o Həkəri çayının üzərindəki körpüdə yerləşdik. Təbii ki, buna hazırlıq aparılmışdır və bəzi səylərə baxmayaraq, oradan artıq heç yerə getmədik.

Beləliklə, Qarabağa qanunsuz silahların, sursatların, minaların və canlı qüvvənin daşınması və göndərilməsi artıq mümkünsüz olmuşdu. Ancaq buna baxmayaraq, biz humanitar gediş-gəlişə də heç bir əngəl törətməmişdik. Hamımız yaxşı xatırlayırıq ki, o vaxt Qırmızı Xaç xətti ilə xəstələr təxliyə edilirdi, aparılırdı, gətirilirdi. Bir müddətdən sonra Qarabağda yaşayan ermənilər o yoldan istifadə etməyə başlamışdılar və heç bir problem onlar üçün yaradılmırdı. Sadəcə olaraq, onların maşınları yoxlanılırdı, öz maşınları ilə gedib-gəlirdilər. Azərbaycan sərhədçiləri maksimum dərəcədə diqqətli idilər və belə də tapşırıq almışdılar ki, mülki şəxslərə qarşı hər hansı bir hörmətsizlik edilməsin. Ancaq ondan sonra hərbi təxribat törədildi. Bizim postumuz atəşə tutulmuşdur və biz təbii olaraq istintaqı aparmaq üçün o yolu müvəqqəti olaraq bağladıq, amma sonra yenə də açdıq. Ondan sonrakı hadisələri siz yaxşı xatırlayırsınız, bu barədə çox danışmaq istəmirəm. Ermənistan dövlətinin tör-töküntüləri və bəzi yerli separatçılar faktiki olaraq özləri-özlərini humanitar yardımdan məhrum etmişdir.

Yəni, 23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik. Biz 23 aprelə qədər də bir neçə dəfə Ermənistana və yerli separatçılara nümayiş etdirmişdik ki, bu, bizim torpağımızdır, həm "Fərrux" əməliyyatı, "Sarıbaba-Qırxqız" əməliyyatı, "Qisas" əməliyyatı, bütün bunlar tərəfimizdən aparılmış önəmli hərbi əməliyyatlar idi. Bu əməliyyatlar nəticəsində o vaxt nəzarətimizdə olmayan Qarabağ bölgəsinin strateji təpələri, yüksəklikləri biz tərəfdən götürülmüşdür və 19-20 sentyabr əməliyyatı üçün bunun çox böyük əhəmiyyəti var idi. Yəni, o əməliyyatlar, sadəcə olaraq, kortəbii seçilməmişdi, məqsədyönlü əməliyyatlar idi. Çünki müharibədə xüsusilə bizim relyefi nəzərə alsaq, əsas məsələ təpələrin kimin əlində olmasıdır və 19-20 sentyabr əməliyyatının qısa müddət ərzində aparılmasının əsas səbəbi də məhz dediyim o vaxta qədər keçirilmiş əməliyyatlardır və təbii ki, Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədinin nəzarətdə olması. Çünki separatçılar artıq silah-sursata malik olmaq üçün bu imkanlardan da məhrum edilmişdi.

İctimai Televiziyadan **Fikrət Doluxanov:** ***Cənab Prezident, 2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyinin tam bərpa olunmasını və qeyd etdiyiniz kimi, tarixi ədalətin bərqərar olunmasını təmin edən lokal xarakterli antiterror tədbirlərini hansı amillər şərtləndirdi? Güc tətbiq etmədən keçinmək mümkün idimi və Ermənistan, erməni separatçıları Sizin dəfələrlə etdiyiniz təklif və xəbərdarlıqları nəyə arxalanaraq düzgün dəyərləndirmədilər?***

**Prezident İlham Əliyev**: Yəqin ki, onlar gözləmirdilər bu əməliyyat keçiriləcək və kimsə görünür onları inandırmışdı ki, onlar sona qədər orada öz separatist dırnaqarası qurumunda, o qurum çərçivəsində fəaliyyət göstərə biləcəklər. Halbuki bizim onlara göndərdiyimiz bütün mesajlar açıq və birmənalı idi. Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan bir müddətdən sonra yerli ermənilərin bəziləri bizim nümayəndələrimizə çıxaraq təmaslar haqqında təkliflər vermişdilər və biz də imtina etmədik. Çünki bizim məqsədimiz suverenliyi tam bərpa etmək idi və burada yaşayan əhalini inandırmaq idi ki, onlar vahid Azərbaycan dövləti çərçivəsində rahat və təhlükəsiz yaşaya bilərlər. Bizim niyyətimiz çox açıq, aydın idi və o təmaslar əsnasında bəzi müsbət addımlar da atılmışdı. Yəni ki, yeni Laçın–Xankəndi yolu marşrutunun müəyyən edilməsi, çəkilməsi çox önəmli hadisə idi və 23 aprel hadisələrinin elə bil ki, təməlini qoymuşdu. Çünki biz artıq yeni yol çəkərək Laçın şəhərini özümüzə qaytardıq. Onu da bildirməliyəm ki, avqustun əvvəlində artıq yol hazır olandan sonra biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərmişdik ki, biz avqustun 5-də artıq o yola çıxırıq və Laçını götürürük nəzarətimizə. Yəni o, bir bildiriş idi. O, bir xahiş deyildi, bildiriş idi. Ondan sonra bilirsiniz ki, yerli ermənilər vaxt istəmişdilər, avqustun 25-nə qədər. Biz də razılıq verdik və avqustun 26-da Laçına girdik. Yəni ki, bütün bunlar sentyabr hadisələrinə gedən yolun bir hissəsidir.

Digər müsbət sayıla biləcək hadisələr də olmuşdur, o cümlədən, Zabux kəndində evlərin yandırılmaması. Halbuki mən sizə deyə bilərəm ki, ermənilər tərəfindən tikilmiş bütün evləri biz sökdük, yerlə-yeksan etdik və Zabuxda indi yerləşən Azərbaycan vətəndaşları bizim tərəfimizdən tikilmiş evlərdə yaşayırlar. Ancaq o fakt özlüyündə bir göstərici idi. Biz də bunu müsbət qarşılamışdıq. Sanki Kəlbəcərdə, Laçında evlərin yandırılması və ağacların kəsilməsi vəhşiliklərindən sonra bu, bir qədər normal addım sayılır. Yəni, bütün bu müsbət hadisələr deməyə əsas verirdi ki, qan tökülmədən, heç bir əməliyyat aparılmadan biz öz suverenliyimizi bərpa edəcəyik və Qarabağ ermənilərinə də dəfələrlə deyilmişdir ki, yeganə yolunuz budur: kim istəyir burada qalır, Azərbaycan vətəndaşı kimi yaşayır, kim istəmir, Ermənistana və başqa yerə gedir. Hətta Laçında keçmiş məcburi köçkünlərlə görüş zamanı – may ayının 28-də mən açıq demişdim ki, onların bir yolu var: qanunsuz qurumu buraxmaq, bizə təslim olmaq və bizə tabe olmaq. Bunu mən açıq demişdim. Mən bu və bütün başqa məsələlərdə, bütün çıxışlarımda tam səmimiyəm və hesab edirəm ki, Ermənistan tərəfi artıq bunu bilir. Nəyi deyiriksə, onu da edirik və onu nəzərdə tuturuq. Ancaq görünür ki, başqa mesajlar da verilmişdi onlara. Təbii ki, burada beynəlxalq aktorlar da çox mənfi rol oynamışdılar. Ermənistana və separatçılara müəyyən ürək-dirək mənası daşıyan mesajların verilməsi onlarda belə bir fikir yaratdı ki, onlar bax, bu vəziyyətlə bağlı heç nə etməməlidirlər.

Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında qeyri-rəsmi razılıq əldə edilmişdi ki, orada heç nə dəyişilməyəcək, yəni, necə var elə də qalır. Təbii ki, orada qanunsuz seçkilərin keçirilməsi bu razılaşmanın da pozulması idi. Bildiyiniz kimi, sentyabrın 9-da həmin qanunsuz seçkilər keçirilmişdi və o, ikinci qırmızı xətt idi. Çünki birinci qırmızı xətt Ermənistanın baş naziri Paşinyanın sentyabrın 2-də separatist rejimə təbrik məktubunun göndərilməsi idi. Bu, həm qırmızı xəttin pozulması idi, həm də ki, ümumiyyətlə, çox təzadlı bir addım idi. Çünki ondan qabaq Ermənistanın baş naziri Qarabağı Azərbaycan torpağı kimi rəsmən tanımışdı və bunu dəfələrlə bəyan edirdi. Belə olan halda, onda bu təbrik nədir və sentyabrın 9-dan sonra təbii ki, artıq başqa variant qalmamışdı. Xüsusilə nəzərə alsaq ki, mina terroru bizə qarşı davam edirdi və bizim bir neçə hərbçimiz o hadisələr ərəfəsində mina terrorunun qurbanı olmuşdur.

Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Başqa variant ola bilməzdi. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular. Ondan sonra, sadəcə olaraq, danışıqlar gedirdi və daha doğrusu danışıqlar yox, bizim şərtlərimizi onlar sanki müzakirə edirdilər. Ancaq biz hansı şərt qoymuşduqsa, o şərt də təmin edildi, o cümlədən, separatist qurumun buraxılması və bütün digər şərtlər. Biz dedik ki, təslim olursunuzsa əməliyyatı dayandıracağıq. Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunacaq-olunmayacaq? Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqeyimiz birmənalı idi – onların tutulması. Bəziləri artıq Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəziləri Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, – hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, – bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil.

Yenə də deyirəm, əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni, bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu.

CBC Televiziyasından **Lidiya Molodtsova:** ***Cənab Prezident, icazənizlə sualları rus dilində verərdik, çünki CBC beynəlxalq kanaldır və rusca yayımlanır. Son zamanlar Fransanın rəsmi şəxsləri tərəfindən tez-tez anti-Azərbaycan bəyanatlarının, Parisin BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı qətnamələrin, həmçinin Ermənistanın silahlandırılmasının şahidi oluruq. Fransanın belə mənfi münasibətinin səbəbi nədir? Paris Bakıdan nə istəyir?***

**Prezident İlham Əliyev:** Yaxşı sualdır. Biz özümüz də bunu bilmək istəyirik. Belə ki, münasibətlərimizin tarixinə nəzər salsaq, hər şey çox yaxşı başlamışdı. Həm 1990-cı illərdə, həm də artıq mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə münasibətlər kifayət qədər normal idi. Bunun bizim torpaqlarımızın işğal altında olması, yaxud sadəcə, Fransanın siyasi müstəvisində nəsillərin dəyişməsi ilə bağlı olması başqa məsələdir. Mənim üçün bunu söyləmək çətindir. Amma bütün hallarda balans qorunub saxlanılırdı. Artıq müsahibələrimdən birində Fransanın necə ATƏT-in Minsk qrupunun həmsədri olması barədə danışmışam. Təkrar etmək istəmirəm. Hərçənd bu məsələni unudan və ya bilməyənlərə xatırlatmaq yerinə düşər ki, Fransa Prezidenti Jak Şirak uzun müddət atamı Fransanın həmsədrliyinə razı salmaq istəyirdi və o, bundan imtina edirdi. Sonradan Prezident Şirakla keçirdiyim görüşlər əsnasında o, dəfələrlə onu necə razı salmaq istədiyini və Fransanın neytral olacağını vəd etdiyini xatırladırdı. Həmçinin mənim qarşımda əlavə edirdi ki, bu vədi atamın həyatda olmadığı vaxtda da yerinə yetirir. Mən bunu həmişə müsbət qəbul edirdim. Ancaq zahirən də, ümumilikdə, bütün bunlar onun dediyi kimi təsir bağışlayırdı. Hərçənd bilmirəm ki, pərdə arxasında nələr baş verirdi, lakin son vaxta qədər balans zahirən saxlanılırdı. Balans, hətta Fransa tərəfindən İkinci Qarabağ müharibəsinə qədər pozulmuşdu və bu, görünür ki, Fransanın xarici siyasətində fundamental əsasların nəsil dəyişikliyi səbəbindən baş vermişdi. Biz hazırda bunu təkcə Fransada deyil, həm də Avropa ölkələrinin əksəriyyətində müşahidə edirik. Öz ölkəsində və beynəlxalq arenada böyük nüfuz sahibi olan insanlar siyasət səhnəsindən getdilər və ümumilikdə, təsadüfi adamlar – populistlər, demaqoqlar gəldilər və bunun nə ilə nəticələndiyini hamımız görürük.

Münasibətlərin gərginləşməsinə gəlincə, bu, artıq İkinci Qarabağ müharibəsi zamanı başladı. Həmin vaxt 44 gün ərzində Fransa Prezidenti dəfələrlə, hətta deyərdim ki, bu ifadəni işlətmək mümkündürsə, həddindən çox dəfələrlə zəng edirdi və baş verənlərə öz münasibətini bildirirdi. Detallara varmaq istəmirəm, çünki bu danışıqlar məxfi xarakter daşıyırdı, lakin danışdığımız məsələlərin bir hissəsi artıq ictimaiyyətə məlumdur. Hər halda onlar heç nəyə nail ola bilmədilər və müharibə Prezident Makronun və ya hər hansı başqa şəxsin deyil, Putinin vasitəçiliyi ilə dayandırıldı. Üçtərəfli Bəyanat da Fransa, Azərbaycan və Ermənistan arasında deyil, Rusiya, Azərbaycan və Ermənistan arasında imzalandı.

Düşünürdüm ki, bu hadisələrdən sonra münasibətlərimizdə sağlam məntiq üstün olacaq və körpülər yandırılmayacaq, çünki bu, prinsip etibarilə nə Fransaya, nə də bizə lazımdır. Hərçənd hər bir ölkə bir-birini unudaraq sakit yaşaya da bilər. Bununla yanaşı, bütün bu proseslər davam edirdi və bildiyiniz kimi, həm parlament, həm də Senat qondarma "Artsax"ı tanıdılar. Amma mənim qondarma "Artsax"ın dislokasiyası barədə tövsiyələrimi də yəqin ki, heç kim unutmayıb. Yeri gəlmişkən, onlar öz qüvvəsindədir, bəlkə də indi lokasiyanı dəyişmək olar, çünki bilirəm ki, Paris meri Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verib. Təklif edərdim ki, bəlkə də fəxri sözünü real vətəndaşlıq ilə əvəz etsinlər, onları Parisin mərkəzində yerləşdirsinlər və orada Artsax respublikası elan etsinlər. Amma bunu elə-belə, şərh qismində söylədim.

Hazırkı şəraitə gəldikdə, əlbəttə, İkinci Qarabağ müharibəsindən sonra münasibətlərin gərgin olduğu dövr idi, amma bununla belə münasibətlər mövcud idi. Siz də bilirsiniz ki, biz Prezident Makronun Praqadakı görüşdə iştirakına razılıq verdik və başqa səviyyələrdə də təmaslar oldu – həm Fransa xarici işlər nazirinin Azərbaycana səfəri, həm də bizim nümayəndələrin səfərləri. Yəni, münasibətlər davam edirdi, amma antiterror əməliyyatından sonra bu münasibətlər mahiyyətcə dayandırıldı, yenə də bu, bizim günahımız ucbatından baş vermədi. Sadəcə, Fransa artıq heç bir başqa amillərlə maskalanmayaraq açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı – qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Zənnimcə, ən azı 5 dəfə bu cür cəhdlər edildi və onların hamısı tam uğursuzluqla nəticələndi, çünki ölkələrin əksəriyyəti bizi dəstəklədi və bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilmədilər. Bu, əlbəttə, onlar üçün çox güclü siyasi zərbə idi, çünki biz belə desək, onlara öz meydançalarında qalib gəldik. Həmçinin düşünürəm ki, Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu, hərçənd məlum oldu ki, Avropa İttifaqı diplomatiyasının rəhbəri təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Lakin ümumilikdə, Avropa İttifaqı ölkələri Azərbaycana münasibətdə vahid mövqe üzrə razılığa gələ bilmədilər, Fransa isə məhz sanksiyalarda və başqa addımlarda israr edirdi. Artıq bu tezislər səsləndirilib və onlar belə desək havadan asılı qalıb, sözdən əmələ keçməyib.

Amma bundan sonra onlar artıq öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun sellofana bükülməsi, bu şəhər ilə İsmayıllı arasında qardaşlıq sazişinin ləğv edilməsi kimi lüzumsuz hərəkətlərə əl atmağa başladılar. Təbii ki, biz də adekvat cavab verirdik və indi də buna davam edirik. Amma bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni, burada onlar praktik olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, daha doğrusu, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var.

Ona görə də indi vəziyyət belədir, biz, əlbəttə ki, bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik. Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddindən artıq çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Həmçinin mina terrorunu da əlavə etmək olar, yeri gəlmişkən, fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Bir milyon yarım əlcəzairlinin soyqırımı və digər faktlar da var. Müstəmləkə ölkələrində başqa cinayətlər də törədilib və bu, əlbəttə ki, neokolonializmin rüsvayçı təzahürüdür.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 2-ci səhifədə)

Bu gün Fransa müstəmləkələrə sahib olmağı, onları idarə etməyi, sıxışdırmağı, viran qoyulmuş ölkələrin bu müstəmləkə zülmündən qurtulmasına imkan verməməyi adi bir hal kimi qəbul edir. Qoşulmama Hərəkatının sədri kimi biz bu məsələni qaldırdıqda və Bakı təşəbbüsünü irəli sürdükdə müstəmləkə ərazilərinin – Fransanın dənizaşırı adlanan ərazilərinin nümayəndələrinin iştirakı ilə tədbirlər həyata keçiririk. Onların hər cür təzyiqlərə məruz qalması bizə məlumdur. Onları çağırır, profilaktikadan keçirir, hədə-qorxu gəlirlər. Bu yaxınlarda Yeni Kaledoniyada bir azərbaycanlı jurnalist qadını saxlayıblar. Ümumiyyətlə, bu, hansı çərçivəyə sığır? Ondan casusluqda da şübhəleniblər. O, hadisələri işıqlandırmağa gəlmişdi. Fransa tərəfinin xahişi ilə İsveçrədəki Avropa qeyri-hökumət təşkilatlarından birinin nümayəndəsini də saxlayıblar. O, Cenevrədə neokolonializmə həsr olunmuş tədbirə gedirdi. Düzünü desək, mən İsveçrə hökumətinin Fransanın iradəsinə tabe olmasından və belə rüsvayçı aktı törətməsindən təəccüblənirəm. Həm də bu jurnalist çox böyük Avropa ölkəsinin vətəndaşıdır. Yəni, onların əsl xisləti bundan ibarətdir. Biz bu əsl xisləti üzə çıxardıq. Nədənsə bütün bunlar haqqında indiyədək danışılmırdı. Bunların hamısı barədə susurdular, əlaqədar olmaq istəmirdilər, problemlərdən qorxurdular, təhdidlərdən çəkinirdilər və sairə. Amma biz qorxmuruq. Zənnimcə, bu gün baş verənlər BMT Təhlükəsizlik Şurasında və Avropa İttifaqında bir fiaskodur, onların Avropa parlamentindəki nümayəndələri vasitəsilə bizə müəyyən mənada zərər vermək, ola bilər ki, hətta "qıcıqlandırmaq" kimi boş cəhdlərinin hamısı faydasızdır. Təbii ki, biz yolumuza davam edəcəyik. Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq, biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik.

"Xəzər" Televiziyasından **Günel Kərbəliyeva:** ***Cənab Prezident, Tbilisidə İpək Yolu Forumunda Ermənistanın baş naziri "sülhün kəsişməsi" deyə bir layihədən bəhs etdi, hansı ki, bu, "erməni qovşağı" layihəsinin adı dəyişdirilmiş formasıdır. Sözdə layihə guya Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistan arasında kommunikasiyaların, belə deyək, inkişafını nəzərdə tutur. Halbuki Azərbaycan bu təklifi üç ildir irəli sürür. Ermənistanın baş naziri bunu yeni bir təşəbbüs kimi səsləndirdi. Ümumiyyətlə, regionda Azərbaycanın razılığı olmadan belə layihələrin baş tutması mümkündürmü?***

**Prezident İlham Əliyev:** Əlbəttə ki, yox. Yəqin ki, siz də bunu yaxşı bilirsiniz, mümkün deyil. Hesab edirəm ki, bu, sadəcə olaraq, piar aksiyadır. Çünki Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli Bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi" sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, – Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, – amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil.

Onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu, onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı, digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni, bu, çox ədalətli mövqedir.

Bir məsələ də önəmlidir, bu yolun təhlükəsizliyi. Çünki mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan–Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, bu yol açılmasın. Biz üç il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi. Onu da bildirməliyəm ki, bu şayiələri, belə ucuz şayiələri yayan da Fransadır. Biz dəqiq bilirik ki, hər yerdə danışırdılar və bu gün də yəqin davam edir ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Halbuki bunun heç bir əsası yoxdur, heç bir hazırlıq da getmir və bu gün hazırlığı gizlətmək də mümkün deyil. Çünki hər şey yuxarıdan, peykdən görünür, digər informasiya mənbələri var. Biz, sadəcə olaraq, üç il gözləmişik, görəndə ki, bu alınmır, bizim başqa yolumuz qalmayıb. Biz qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik və bildiyiniz kimi, İranla artıq razılıq da əldə edildi, nəinki razılıq, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlamışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Yəqin ki, bu il biz ona da başlayacağıq.

Beləliklə, Ermənistan yenə dalan olaraq qalacaq. Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq və hətta bildiyiniz kimi, Amerika Dövlət Departamentinin rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan-İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik" deyəndə, – mən artıq bunu demişəm, - Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir. Bizim İranla bu yaxınlarda Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal-Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya-Azərbaycan sərhədində iki keçid var, bir idi. İranla da iki keçid var. Yəni, bu, bizim suveren işimizdir.

Ona görə Ermənistan tərəfinə məsləhətim odur ki, burada manipulyasiyalarla məşğul olmasın. Onların Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən təklif etdiyi marşrut tamamilə yararsızdır və ilboyu o marşrutdan istifadə etmək mümkün olmayacaq. Çünki orada hava şəraiti də və relyef də çox sərtdir. Ən düzgün variant Mehri ərazisindəndir. Onsuz da sovet vaxtında oradan dəmir yolu keçirdi və avtomobil yolu da tikilirdi. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. Azərbaycandan Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir.

**Rövşən Məmmədov:** ***Cənab Prezident, həmkarlar yəqin ki, Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı sualları davam etdirəcəklər. Amma mən mövzudan bir qədər kənara çıxmaq və bu gün ictimaiyyəti düşündürən digər bir mövzuya keçid almaq istərdim. Bu, növbədənkənar prezident seçkiləri ilə bağlıdır. Məlumdur ki, bu il fevralın 7-nə təyin olunub və müxtəlif fikirlər, müxtəlif versiyalar səslənir. Amma ən doğru cavabı Sizdən ala bilərik. Cənab Prezident, belə bir addımın atılmasını şərtləndirən əsas amillər nədən ibarətdir?***

**Prezident İlham Əliyev:** Düzdür, bu barədə müxtəlif versiyalar var. Yaxşı ki, bu sualı verirsiniz ki, mən bunun əsas səbəblərini sizin üçün və ictimaiyyət üçün açıqlayım. Birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni, Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri – siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir.

İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni, 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır.

Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni, əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir.

**Rövşən Məmmədov:** ***Cənab Prezident, bunu həm də yeni missiyanın başlanğıcı kimi qəbul etmək olarmı?***

**Prezident İlham Əliyev:** Əlbəttə. Çünki bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə də bu barədə yəqin müzakirələr gedəcək. Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.

Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır. Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir.

Təbii ki, bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum. Ermənistanda yersiz illüziyalar yarana bilər ki, nə vaxtsa onlar Qarabağı yenidən bizdən qopara bilərlər. Belə fikirlər onların cəmiyyətində dolaşır, o cümlədən rəhbər qruplaşma daxilində də belə fikirlər var. Mən istisna etmirəm ki, bu fikirlər, necə deyərlər, getdikcə daha geniş yer tutacaq.

Ona görə biz heç vaxt sakitləşməməliyik və mən, xatırlayırsınızsa, İkinci Qarabağ müharibəsindən sonra demişdim və bunu da etdik, biz daha güclü ordu yaratmalıyıq. Biz son üç il ərzində böyük yol keçmişik. İndi bunların hamısını demək yəqin ki, düzgün olmaz, amma mətbuatda olan məlumat kifayətdir. Yeni silahlı birləşmələr antiterror əməliyyatında çox önəmli rol oynamışdılar, yeni texnika, yeni sursatlar, ən müasir avadanlıq. Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik.

Ona görə cəmiyyətdə sakitləşmə olmamalıdır. Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir. Ancaq yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər. Bu, ayrı bir böyük söhbətin mövzusudur. Bəlkə nə vaxtsa ayrıca bu məsələ ilə bağlı da biz danışarıq. Amma hər halda sualınıza cavab verərək deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq.

**Mirşahin Ağayev:** ***Möcüzələrin adiləşdiyi dövrdə yaşayırıq, cənab Prezident, bax, biz oturmuşuq burada, qalib xalqın qalib liderinə suallar veririk, cavablar alırıq və hörmətli tamaşaçılar baxır bizə. Mən inanmaq istəyirəm ki, bu tamaşaçılar arasında heç vaxt ağlımıza gətirmədiyimiz, amma artıq reallığa çevrilmiş Arkadi Qukasyan da var, Bako Saakyan da var, Araik Arutunyan da var, Ruben Vardanyan da var və bu adamlar Azərbaycan xalqının Qələbəsinin real göstəriciləridir – məğlubiyyət formatında göstəriciləridir və eyni zamanda, mən sülh müqaviləsi ətrafında danışmaq istəyirəm. Ona görə ki, sülh müqaviləsi üzərində iş yəqin ki, bütün bu proseslərin sonunu gətirməli olan işdir. Amma başqa bir tərəfdən də fikirləşirsən ki, Ermənistanın ipinin üstünə odun yığmaq olarmı və nəzərə alsaq ki, bu ip onların əlində deyil və çoxdan deyil.***

**Prezident İlham Əliyev:** Bilirsiniz, bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri belə qavraya da bilmədilər. O qədər tez bir zamanda başladı və sona çatdı və eyni zamanda, bu parlaq Qələbə fonunda bax, dediyiniz o personajların da tutulması bir qədər kölgədə qaldı. Halbuki bu, özlüyündə böyük bir tarixi hadisədir. Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün dırnaqarası keçmiş liderlər, ondan sonra Qarabağa ixrac edilmiş dırnaqarası baş nazir və digərləri var. Təkcə o qruplaşmada iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum. Onların heç ağlına gələ bilməzdi ki, bu gün onlar Bakıda çay içmək istəyini belə reallaşdıracaqlar, istintaq təcridxanasında oturacaqlar və ədalət məhkəməsinin qərarını gözləyəcəklər.

Sülh müqaviləsinə gəldikdə isə, mən bir daha qeyd etməliyəm. Artıq bir balaca qeyd etdim ki, İkinci Qarabağ müharibəsi başa çatanda bir vakuum yaradılmışdı və heç kim bilmirdi ki, bundan sonra nə olacaq. Çünki doğrudan da çox unikal bir situasiyadır və o zaman məhz Azərbaycan tərəfi bu boşluğu doldurmaq üçün təklif elədi ki, yəqin sülh müqaviləsi olmalıdır. Hər halda danışıqlar başlanmalıdır, hətta o vaxt hələ fəaliyyətdə olan Minsk qrupunun nümayəndələri də gələndə məndən soruşmuşdular ki, biz indi nə ilə məşğul olaq? Yəni, Sizin məsləhətiniz nədir? Mən dedim ki, indi Qarabağ məsələsi artıq bağlandı. Əgər nə iləsə məşğul olmaq istəyirsinizsə, bir xeyir gətirmək istəyirsinizsə, siz Ermənistan–Azərbaycan normallaşma prosesində iştirak edə bilərsiniz. Amma onlardan hər hansı bir təklif gəlmədi. Onda biz bu təklifi irəli sürdük. Amma irəli sürəndən sonra da heç bir cavab gəlmədi. Ondan sonra biz məlum beş prinsipi rəsmiləşdirdik və bu prinsiplər əsasında faktiki olaraq danışıqlar başlamışdır. Düzdür, o vaxt Ermənistan və bəzi başqa ölkələr bu prinsiplərə Qarabağla bağlı mövzunu da əlavə etmək istəmişdilər. Halbuki biz ilk gündən bunun əleyhinə idik. Çünki mən deyirdim ki, Qarabağ bizim daxili işimizdir, əgər sülh müqaviləsi imzalanarsa, bu, dövlətlər arasındakı müqavilə olacaq. Onu da mən bildirdim ki, bu, çox yığcam bir sənəd olmalıdır. Yəni, 5-10 cildlik yox, maksimum 5-10 səhifəlik əsas prinsiplərdir. Onu da burada, necə deyərlər, velosiped icad etmək lazım deyil, sadəcə olaraq, beynəlxalq hüququn prinsipləri oraya salınmalıdır.

Ancaq bir müddət danışıqların aparılması o qədər də böyük ümidlər doğurmurdu. Çünki Ermənistan və onun arxasında dayanan bəzi ölkələr mütləq Qarabağla bağlı mövzunu oraya salmaq istəmişdilər, xüsusilə status məsələsini. Bir müddətdən sonra artıq hesab edirəm ki, real vəziyyət, bizim addımlarımız və mövqeyimiz, o cümlədən statusun göndərdiyim o ünvanın göstərilməsi müəyyən dərəcədə onların mövqeyində dəyişikliyə səbəb oldu və artıq status yox, "Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri də oraya salınmalı idi" iddiası ilə həm Ermənistan, həm də onun havadarları buna çalışırdılar. Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir. Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da, – yəni, "Ermənistan plyus" belə adlandıraq bu qruplaşmanı, – çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovulmuşdu, amma bunlar buradadır. Yəni ki, onlar, bərabər hüquqa malik deyillər. Halbuki bu, faktiki olaraq rasist bir yanaşma idi. Yəni, bizim mövqeyimiz dəyişməz olaraq qalırdı, ya bu məsələ sülh müqaviləsində əks olunmur, ya da ki, hər iki nümayəndənin hüquqları və təhlükəsizliyi əks olunacaq. Danışıqların belə səmərəsiz keçməsinin də əsas səbəbi bu idi.

Sentyabr hadisələrindən sonra isə biz yeni bir vəziyyətlə üzləşdik. Ermənistana verilən vədlər, xüsusilə də həm BMT-də, həm Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək, Azərbaycan böyük təzyiq altına düşəcək, dırnaqarası bu əməliyyat Azərbaycana baha başa gələcək. Bu əməliyyat, bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədiyi kimi tərtib edə bilərlər və bizə də kimsə təzyiq edib bizi də razı sala bilərlər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə, – çünki burada təkliflər mübadiləsi 5-6 dəfə gedib, mətnlər göndərilir şərhlərlə, – cavab vermirdi. Biz onu artıq rəsmi qaydada bildirəndə ki, 70 gün, yəni o vaxt deyəsən 60 gün gözləyirik, ondan sonra təklif verdilər və hazırda onların təklifində, yəni onların şərhlərində Qarabağla, Qarabağ erməniləri ilə bağlı bir kəlmə belə yoxdur. Yəni, bu mövzu artıq çıxarılıb və faktiki olaraq sülh müqaviləsinin imzalanması üçün real şərait məhz indi yaradılıb – məhz sentyabr əməliyyatından sonra yaradılıb. Onu da bildirməliyəm ki, biz onlardan fərqli olaraq öz şərhlərimizi 70 gündən sonra yox, 30 gündən sonra göndərdik və ondan iki həftə sonra onlar, bax bu ayın 4-də yeni şərhlər göndərdilər. Yəni, yenə də sual yaranır: Əgər bu şərhləri iki həftə ərzində vermək olarsa, sən keçən dəfə 70 gün nəyi gözləmisən? Yəni, mənim fərziyyəm tam sübuta yetirilir.

Yəni bu, belə pərdəarxası hadisələrin bir qədər izahatı idi. Məncə, sizə və ictimaiyyətə maraqlı olar. Amma əsas məsələ odur ki, mən hesab edirəm, sülh müqaviləsinin imzalanması üçün əsas şərtlər indi yaradılmışdır. Ona görə mətn üzrə işlər fəal getməlidir. Bir məsələ də var. Yəqin, siz də bunu bilirsiniz, Ermənistan istəyir ki, bu sülh müqaviləsinin zəmanətçiləri olsun. Biz hesab edirik ki, buna heç bir ehtiyac yoxdur. Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsidir. Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik. Ancaq bu kömək elə olmalıdır ki, məcburi olmasın. Çünki bəziləri indi yarışa çıxıblar ki, danışıqlar bu ölkədə keçirilsin, o ölkədə keçirilsin, ya üçüncü ölkədə keçirilsin. Bu, bir qədər geosiyasi rəqabətə bənzəyən bir şeydir. Mən bunu istəməzdim. Mən ümumiyyətlə istəməzdim ki, Ermənistan–Azərbaycan münasibətləri geosiyasi mövzuya çevrilsin. Bu, bizim iki ölkə arasındakı məsələmizdir, özümüz də bunu həll etməliyik. Əgər razılığa gəlsək, sülh müqaviləsi imzalanacaq. Əgər razılığa gəlməsək, deməli, ya danışıqlar davam etdiriləcək, ya danışıqlar dayandırılacaq. Hər iki variant da mümkündür.

**Mirşahin Ağayev:** ***Dörd il bundan qabaq yanvar ayının 21-də Davos İqtisadi Forumunda Sizə bir moderator sual vermişdi: Cənab Prezident, Avrasiyada xeyli qüvvələr birləşib, Rusiya və Çin xatırlanmışdı və belə bir sual verilmişdi ki, Azərbaycan Prezidenti olaraq Siz, ilk növbədə, kimə zəng edərdiniz? Mən o sualın da, cavabın da verildiyi an orada idim və bu gün həmin sualı təkrarlamaq istəyirəm. Niyə? Ona görə ki, o sual veriləndə Azərbaycan hələ 20 faiz əskik idi, ərazi bütövlüyümüz bərpa olunmamışdı. Bu gün dövlət müstəqilliyini, suverenliyini bərpa etmiş bir Liderə bu sualı vermək istəyirəm. Azərbaycan Respublikasının Prezidenti kimi Siz kimə zəng edərdiniz?***

**Prezident İlham Əliyev:** Prinsipcə, deyə bilərəm ki, mən, ümumiyyətlə, çox nadir hallarda hansısa dövlət başçısını telefon zəngi ilə narahat edirəm. Çünki hesab edirəm ki, mənim həmkarlarımın hamısı çox məşğul insanlardır və elə bir ciddi mövzu yoxdur ki, bu mövzu ilə bağlı nəsə təcili demək lazımdır. Adətən hər hansı bir mövzu olanda Xarici İşlər Nazirliyi vasitəsilə bu mesajlar göndərilir, ya da ki, köməkçim vasitəsilə. Mən dövlət başçılarının bəzilərini ancaq onların doğum günlərində telefonla zəng edib təbrik edirəm. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi zamanı ən çox telefonla danışdığım insanlar Türkiyə Prezidenti və Rusiya Prezidenti idi. Bu da təbiidir, Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi və Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi. Bu, sadəcə olaraq, Azərbaycan xalqına həmrəylik və dəstək mesajı deyildi. Bu, müharibəyə qarışmaq istəyənlərə bir ciddi mesaj idi ki, kənarda durun. Ona görə Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır və daim zəngləşirdik, söhbətləşirdik, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan maraqlanırdı müharibənin gedişatı ilə bağlı və məni Şuşa qələbəsi münasibətilə ilk təbrik edən də o olmuşdur. Prezident Putinlə də dəfələrlə söhbətim olmuşdur. Çünki bilirsiniz ki, Rusiya bir neçə dəfə müharibəni dayandırmaq üçün səylər göstərmişdi və mən də şərtləri qoymuşdum. Mən hələ oktyabrın ilk ongünlüyündə aramızda olan telefon söhbəti zamanı demişdim ki, biz dayanmağa hazırıq, amma şərtlərimiz var. Onlar bizim torpağımızdan çıxmalıdır və mənə tarix verməlidir, təqvim verməlidir nə vaxt çıxacaq. Mən artıq bunu Azərbaycan ictimaiyyətinə də dedim, yəqin ki, yadınızdadır. Mənim televiziya çıxışlarım da yəqin yadınızdadır ki, Ermənistan bizə vaxt versin, tarix versin və biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Noyabrın 10-da bizə tarix verildi və biz müharibəni dayandırdıq. Ona görə təmaslar daha çox bunun ətrafında idi və əlbəttə ki, noyabrın 9-da, dediyim kimi səhərdən noyabrın 10-da erkən saatlara qədər bu razılaşma, mətn razılaşması prosesi getmişdir. Bu gün prinsip etibarilə mən kimi doğum günü münasibətilə təbrik edirəm, bu mətbuatda var. Məni də kim təbrik edir, onların sayı çox deyil, 4-5 Prezidentdir, mən tərəfimdən də 4-5 Prezidentə zəng edib telefonla təbrik edirəm. Amma yəqin bu gün əgər hansısa ciddi bir məsələ ölkəmiz qarşısında dursa, əlbəttə, ilk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana zəng edərəm, onu məlumatlandıraram.

**Fikrət Doluxanov:** ***Cənab Prezident, bir qədər öncə gələcək inkişaf, yeni dövr və yeni missiya barədə söhbət açıldı. Bu yerdə Böyük Qayıdış Proqramına toxunmaq istərdim. Siz çıxışlarınızın birində belə bir ifadə işlətmişdiniz ki, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Biz görürük ki, orada sürətli bərpa və yenidənqurma işləri aparılır. 2024-cü il baxımından gözləntiləriniz nədir və yerli sahibkarların, xarici investorların bu işlərə daha da fəal cəlb olunması üçün hansı institusional addımların atılması nəzərdə tutulub?***

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 3-cü səhifədə)

**Prezident İlham Əliyev:** Bu günə qədər görülən işlər göz qabağındadır. Bu haqda çox danışmaq istəməzdim. Sadəcə olaraq, bütün böyük infrastruktur layihələri ilə yanaşı, hesab edirəm ki, əsas nailiyyətimiz odur ki, beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək. Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə mənim tərəfimdən təsdiq olunacaq, bir neçə dəfə artıq müzakirədən keçib. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bizim əsas alətimizdir, bərpa üçün əsas alətimizdir.

Bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Bunlar nəhəng layihələrdir. Bildiyiniz kimi, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər, xəstəxanalar, artıq başlamışdır onların inşaatı, bəziləri artıq istifadəyə verilmişdir. İçməli su xətləri, elektrik enerjisi ilə bağlı layihələr, suvarma ilə bağlı qeyd etdiyim su anbarları, məsələn Sərsəng Su Anbarı – bu gün anbarda ancaq 50 faiz su var. Çünki işğal dövründə ermənilər ancaq onu istismar ediblər. Yəni, oraya bir qəpik də vəsait qoyulmamışdı. Xaçınçay Su Anbarı tamamilə məhv edilmişdi, indi bu yaxınlarda açıldı. Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışını edəcəyik. Suqovuşanı biz yenidən qurduq, indi kanallar çəkilir. Ondan sonra Zabuxçay Su Anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək. Yəni, keçmiş köçkünlər qayıdandan da artıq orada əkin-biçin üçün şərait olmalıdır. Onu da bildirməliyəm ki, qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı bizim qurumlarımız ciddi məşğuldur və həm gedənə qədər onlar üçün treninqlər keçirilir, həm də yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və yaradılacaq. Ağdamda və Cəbrayılda iki böyük sənaye zonası artıq fəaliyyətə başlayıb və bu il o zonaların fəaliyyəti böyük dərəcədə genişlənəcək.

Bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər – Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, – hansılarda ki, mən təməl qoymuşam, – orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk. Kəndlər tamamilə dağılmış vəziyyətdədir. Mən Qarabağa son səfərim zamanı oraya baş çəkmişəm. Tamamilə dağılmış vəziyyətdədir, Malıbəyli məscidi də dağılmış və vandallar ondan da peyin anbarı kimi istifadə etmişlər. Yəni, sadaladığım bu, ən azı şəhər və kəndlərə keçmiş köçkünlər qayıdacaq və 2026-cı ilin sonuna qədər o artıq bəyan edildi, hədəfimiz 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Əminəm ki, biz buna da nail olacağıq. Onu da bir daha bildirməliyəm ki, bütün bunları biz öz daxili imkanlar hesabına edirik. Heç bir donor təşkilatı, heç bir digər tərəf bizə kömək göstərmir. Ancaq Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı bizə qardaş dəstəyi göstərmişdir, bütün qalan layihələr daxili imkanlar hesabına reallaşdırılır.

Özəl sektoru da siz qeyd etdiniz, mən çox şadam və bir daha özəl sektora müraciət edərək onlara çağırış etmək istəyirəm ki, Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoysunlar. Artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində bir neçə layihə özəl sektor tərəfindən icra edilir.

Dövlət öz üzərinə düşən vəzifəni icra edəcək, biz keçmiş məcburi köçkünləri qaytaracağıq. Amma, eyni zamanda, mən hesab edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda ancaq o bölgədən çıxmış insanlar yaşamamalıdır. Azərbaycanın istənilən yerindən insanlar orada yaşamaq üçün imkanlara malik olmalıdır. Təbii ki, məsələn, Bakıdan, ya Sumqayıtdan oraya gedib yaşamaq istəyən getsin, ev alsın özünə, mənzil alsın, torpaq alsın, ev tiksin və orada yaşasın. Yəni, onun üçün dövlət, təbii ki, heç bir ev tikən deyil.

Onu da mən bizim bütün aidiyyəti qurumlarımıza bildirmişəm ki, biz orada yaşamaq istəyənlər üçün evlər tikirik, orada bir bağ evi əldə etmək istəyən üçün yox. Ora bağ evi deyil, ora yaşamaq yeridir. Kim orada yaşamaq istəyirsə, dövlət onun üçün pulsuz ev də tikir, hər şey də təşkil edir. Əgər kimsə orada, sadəcə olaraq, gözəl təbiəti və təmiz havanı nəzərə alaraq köçmək istəyirsə, özəl sektor onlar üçün orada, məsələn, Ağdam şəhərində indi özəl sektor bir yaşayış kompleksi inşa edir, çoxmərtəbəli ev, kim istəyir gedib ondan ev alar, orada da yaşayar. Daşaltıda da, Hadrutda da bu gün bu layihələr icra edilir.

Ona görə özəl sektora da mənim tövsiyəm budur ki, bundan istifadə etsinlər. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün Baş planları təsdiqləndi. Şəhərlərin bütün Baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanmışdır, o cümlədən Şuşa şəhəri. Şuşa elə bir şəhərə çevriləcək ki, bunun dünyada bənzəri olmayacaq, memarlıq və təbiət bir vəhdət təşkil edəcək.

Ona görə bizim özəl sektorumuz Bakıda, Sumqayıtda hər bir tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər və görərlər ki, o iqtisadi cəhətdən də səmərəli olar və eyni zamanda, biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir. Ona görə biznesin sosial məsuliyyəti, hesab edirəm ki, bu olmalıdır. Getsinlər, müəssisələr qursunlar, evlər tiksinlər, zavodlar, fabriklər inşa etsinlər, dövlət isə öz üzərinə düşən bütün işləri görəcək – infrastruktur, xəstəxanalar, məktəblər, su anbarları, qazlaşdırma, içməli su, elektrik enerjisi, evlər, yollar, körpülər. İndi ancaq Murovdağın altındakı tuneli nəzərə alsaq, bunun uzunluğu təxminən 12 kilometrdir. İndi təsəvvür edin, bir tunel 12 kilometrdir, amma belə tunellərin sayı, – düzdür, o ölçüdə yox, – onlarladır. Yəni, 2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək.

**Çinarə Nurməmmədova:** ***Cənab Prezident, bu gün biz Böyük Qayıdışdan, bərpa işlərindən danışırıq, amma qarşımızda duran digər vəzifələr də var: sərhədlərin delimitasiyası və demarkasiyası. Ermənistanın baş naziri Nikol Paşinyan sərhədlərin delimitasiya və demarkasiyasının 1975-ci il xəritələrinə əsasən aparılmasını vacib sayır və bəzi ölkələr də bu iddia ilə çıxış edirlər. Niyə bu gün Ermənistan məhz 1970-ci il xəritələrinə istinad edilməsini istəyir? Azərbaycan üçün hansı xəritələr daha əsasdır və xüsusilə də istərdim Naxçıvanın Kərki və Qazaxın yeddi kəndi ilə bağlı məsələyə də münasibətinizi öyrənək ki, delimitasiya və demarkasiya çərçivəsində bu məsələ necə tənzimlənəcək?***

**Prezident İlham Əliyev:** Bu gün işğal altında qalan səkkiz kəndin məsələsi daim gündəlikdədir. Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır. Onu da bildirməliyəm ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: həmin o bölgənin delimitasiya məsələsi, Qazax-Tovuz bölgəsinin.

Nə üçün 1975-ci ilin, yaxud da ki, indi 1970-ci ilin, hətta bəzi təkliflərdə 1970-ci, 1990-cı illərin xəritələri, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm. Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verilmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir. Azərbaycan xalqı əsrlər boyu orada yaşayıb və İrəvanın tarixi, yəni, bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin mövcudluğunu, çoxəsrlik mövcudluğunu təsdiqləyir. İrəvan o şəhərlərdəndir ki, sanki orada köhnə şəhər yoxdur, sadəcə olaraq, Azərbaycan şəhəri olub, o da sökülüb, dağılıb. O qərara gəldikdə isə mən hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər? Yəni, 28 mayda respublika elan olundu, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin – o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni, o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi. 1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir. Bu da tarixi faktdır, xəritələr var, XX əsrin əvvəlinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur, – şərqi, qərbi yoxdur, – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir. O vaxta qədər hissə-hissə bizim torpaqlarımız Ermənistana verilirdi və təxminən 100 min kvadratkilometrdən, – mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam, – 86,6 min kvadratkilometrə düşdü. Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. O vaxta qədər hissə-hissə verilirdi.

Onlar məhz buna görə 1970-ci illərin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, "Ermənistan plyus" qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik.

Bizim mövqeyimiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz bütövlükdə heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır.

O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir, - çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, - həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni, bizim mövqeyimiz bundan ibarətdir. Ermənistanın mövqeyi nədən ibarətdir, biz bunu başa düşə bilmirik. Sadəcə olaraq bildirmək istəyirəm ki, nə deyirlər. Deyirlər ki, tərəflər güzgü şəklində geri çəkilsin. Amma hara çəkilsin? Bu məsələ ilə bağlı sualı hələ 2021-ci ilin may ayında mənə bəzi həmkarlarım vermişdi. Yadınızdadır, o vaxt sərhəddə müəyyən dəqiqləşmə aparılmışdı və bir telefon zəngi əsnasında dedilər ki, xahiş edirik, siz qayıdasınız. Deyirəm, haraya qayıdaq? Deyirlər ki, haradan gəlmisiniz oraya. Deyirəm, biz Bakıdan gəlmişik, Bakıya qayıdaq? Biz 30 il orada olmamışıq. Əgər o sərhəd sərhəd idisə, onda Ermənistan onu sərhəd kimi tanıyaydı, sərhəd nişanlarını qoyaydı. O, axı bu sərhədi tanımırdı. O hesab edirdi ki, onun sərhədi Ağdamdadır. Ona görə biz oraya Bakıdan gəlmişik, biz orada olmamışıq. Ona görə haraya qayıdaq? Deyin haraya qayıdaq, qayıdaq. Bax, mənim o sualıma cavab olmadı.

Ona görə, əlbəttə ki, biz heç yerə qayıdan deyilik. Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir. Ancaq bizim indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu, dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək.

**Çinarə Nurməmmədova:** ***Cənab Prezident, bu, sülh müqaviləsinin predmeti olacaqmı? Çünki bir sıra rəsmilər tərəfindən açıqlama verilib ki, delimitasiya və demarkasiya məsələsi sülh müqaviləsinin predmeti olmayacaq.***

**Prezident İlham Əliyev:** Bəli. Prinsipcə, sülh müqaviləsində delimitasiya və demarkasiya ilə bağlı hər hansı bənd ola bilər. Ancaq əgər biz delimitasiyanı gözləyib sülh müqaviləsini təxirə salsaq, onda sülh müqaviləsi heç 30 ildən sonra da imzalanmaya bilər. Çünki dəfələrlə biz demişik ki, bizim dost və qonşu Gürcüstanla delimitasiya hələ başa çatmayıb. Sərhədin cəmi 70 faizi müəyyən olunub və təsdiqlənib. Rusiya ilə bizim delimitasiya prosesimiz 20 il davam etdi, 2012-ci ildə ancaq imzalandı və bu günə qədər 13 il keçib, bütün o dirəklər, nişanlar hələ qoyulmayıb, demarkasiya hələ ki, tam aparılmayıb. Ona görə əgər biz bu iki mövzunu qarışdırsaq, onda sülh müqaviləsi uzanacaq, bəlkə də 30, 50 il bundan sonraya. Biz hesab edirik ki, sülh müqaviləsi imzalanmalıdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Amma yəni, demək istəmirik ki, bizim şərtlər əsasında. Ancaq hesab edirəm ki, bizim şərtlərimiz ən ədalətli şərtlərdir. Delimitasiya prosesi isə davam etməlidir. Kəndlər bizə qaytarılmalıdır. Anklavlarla bağlı komissiyanın işi nəticəsində də razılığa gəlmək olar. Yəni, hesab edirəm ki, bu, tam məntiqli yanaşmadır.

**Günel Kərbəliyeva:** ***Cənab Prezident, Azərbaycanın bərpaolunan enerji potensialı ildən-ilə artır. Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir. Hətta 2030-cu ilə qədər bu potensialın 30 faiz artırılması planlaşdırılır. Eyni zamanda, ölkəmiz COP29 kimi böyük bir tədbirə evsahibliyi edəcək. Qarşıda duran hədəflər, əsas istiqamətlər nələr olacaq?***

**Prezident İlham Əliyev:** Bəli, bu məsələyə indi çox ciddi önəm veririk və hesab edirik ki, biz burada da istədiyimizə nail olacağıq. Məqsəd də odur ki, biz bu gün dünyada, xüsusilə dünyanın enerji məkanında gedən proseslərdən geridə qalmayaq. Çünki indi hamımız yaxşı bilirik ki, bir çox aparıcı keçmiş neft şirkəti hətta öz adlarını da dəyişdirib enerji şirkətlərinə çevirirlər və getdikcə yaşıl enerjiyə tələbat artacaq. Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər yaşıl enerji layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Orada müxtəlif məhdudlaşdırıcı addımlar da istisna deyil.

Ona görə biz bu ümumi trendin içində olmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim misilsiz potensialımız var. Dəfələrlə bu barədə rəqəmlər deyilib və təkcə biz tərəfdən yox, Beynəlxalq Maliyyə Korporasiyası, – o da Dünya Bankının bir qoludur, – Xəzərdəki bizim potensialımızı 157 min meqavat həcmində təsdiqləyib. Ona görə indi enerji sahəsində bu istiqamət prioritetdir. Artıq keçən ilin oktyabr ayında birinci böyük Günəş Elektrik Stansiyası istismara verildi və qrafik üzrə biz yaxın üç-dörd ilə bərpaedilən enerji növlərinin həcmini təqribən 3-4 min meqavat səviyyəsinə çatdıracağıq. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi elektrik stansiyalarımızın potensialı hazırda təqribən 7-8 min meqavatdır və yeni stansiya da inşa edilir – 1200 meqavatlıq, yaxın zamanlarda istifadəyə veriləcək. Hazırda bizim elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. İndi bərpaolunan enerji növləri bizə, o cümlədən imkan verəcək ki, həmin o 5 milyard kubmetr qazı yox, bəlkə 1-2 milyard kubmetr qazı elektrik enerjisinin istehsalına xərcləyək, qalan qazı ixrac edək. Onsuz da Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpaolunan enerji hesabına edə bilərik.

İndi imzalanmış kontraktlar və anlaşma memorandumları 10 min meqavat istehsalı nəzərdə tutur. Bizim imzaladığımız kontraktlar və memorandumlar dünyanın aparıcı yaşıl enerji şirkətləri ilədir. Ona görə fərz etmək olar ki, onların hamısı icra ediləcək və bu, bizim bütün daxili tələbatımızı ödəyəcək. Təbii ki, bunun iqlim dəyişikliyi məsələlərinə də müsbət töhfəsi olacaq və eyni zamanda, bizə imkan verəcək ki, təbii qazı daha böyük həcmdə ixrac edək. Hətta əgər 10 min meqavatın yarısı həll olunsa, bu, bizə kifayət edəcək. Ancaq mən hesab edirəm ki, bu 10 min meqavatla bizim işimiz kifayətlənməyəcək, çünki potensial həddindən artıq böyükdür. Həm quruda, həm dənizdə yerlər təsdiq edildi və növbəti böyük günəş və külək stansiyalarının gələn il istifadəyə verilməsi nəzərdə tutulur. Bax, əsas məsələ bundan ibarətdir və hesab edirəm ki, bunun potensialı həm iş yerlərinin yaradılmasına, yeni texnologiyaların Azərbaycana gətirilməsinə, həm də bölgələrin inkişafına böyük təsiri olacaq. Çünki Xəzər dənizindən kənarda bizim bütün qalan potensial stansiyalarımız bölgələrdə yerləşir, o cümlədən Qarabağ bölgəsində.

**Fikrət Doluxanov:** ***Cənab Prezident, dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi baş tutdu və mərasimdə "Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır" fikri bir daha səsləndi. Eyni zamanda, Sizin bu layihələrin həyata keçirilməsində xüsusi rolunuz bir daha vurğulandı. Bu gün Azərbaycanın Avropa üçün rolunu və gələcəyini necə qiymətləndirirsiniz?***

**Prezident İlham Əliyev:** Bu, vacib mərasim idi və mənim orada iştirakım, əlbəttə ki, Azərbaycanın artan rolunun təzahürüdür. Çünki bu, təbii ki, Azərbaycan qazından söhbət gedir və Serbiya Azərbaycan qazını alan sayca səkkizinci ölkədir. Bu vaxta qədər Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan artıq bizim qaz sistemimizə qoşuldu, müxtəlif interkonnektorlar da yaradıldı və bütün bu interkonnektorların təkanverici qüvvəsi Cənub Qaz Dəhlizi olmuşdur. Çünki əgər biz vaxtilə bu təşəbbüslə çıxış etməsəydik və nəinki təşəbbüslə, əgər bunu həyata keçirməsəydik, təbii ki, bu gün hər hansı bir interkonnektordan söhbət gedə bilməzdi. Bütün bu interkonnektorlar, o cümlədən Yunanıstan-Bolqarıstan və Bolqarıstan-Serbiya, Rumıniya və Macarıstan Cənub Qaz Dəhlizinin bir budağıdır. Yəni, bu gün səkkiz ölkə Azərbaycan qazını alır, onlardan altısı Avropa ölkəsidir. Gələcəkdə bu ölkələrin sayı artacaq. Çünki biz bir neçə Avropa ölkəsi ilə indi danışıqlar aparırıq və deyə bilərəm ki, danışıqlar önəmli mərhələdədir.

Tələbat var və artacaq, resurslarımız var, "Şahdəniz" qaz yatağı dünyanın ən böyük qaz-kondensat yatağıdır. Keçən il başlamışdır, amma bu il artıq 1,5 milyard kubmetr qaz "Abşeron" qaz yatağından çıxarılacaq. Bu, əlavə resursumuzdur. Ondan sonra, ümid edirəm ki, hər halda qarşıya belə vəzifə qoyulub, bu ilin sonuna - dekabr ayına qədər "Azəri-Çıraq-Günəşli" yatağında "Dərin qaz" adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq. Orada da potensial çox böyükdür.

Bizim digər layihələrimiz və "Abşeron" qaz yatağının ikinci fazası – bu barədə də qərar qəbul edilməlidir, yəni, investisiya qərarı. Bu qərar qəbul olunarsa, əminəm ki, olunacaq, "Abşeron"da illik hasilatın həcmi 5 milyard kubmetr təşkil edəcək. Yəni, bu, çox əhəmiyyətli rəqəmdir. Ondan başqa, "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan", "Qarabağ" – bütün bu yataqlarda bu gün hazırlığa doğru işlər gedir və onların da resurs bazası kifayət qədər böyükdür. Yəni, mən vaxtilə deyəndə ki, 100 il bundan sonra da Azərbaycan tərəfdaşlar üçün önəmli tərəfdaş olacaq, bunu nəzərdə tuturdum və bu gün bu reallaşır. Onu da bildirməliyəm ki, Cənub Qaz Dəhlizi indi tam gücü ilə işləyir və əgər bu dəhlizlə biz əlavə qaz həcmini göndərmək istəsək, onda o, gərək genişləndirilsin. Oraya, əlbəttə, əlavə vəsait qoyulmalıdır. Amma bu nasos stansiyaları vasitəsilə genişləndirilə bilər və tələbat da var. Prinsip etibarilə Azərbaycanda gələcəkdə yeni qaz infrastrukturunun yaradılması məsələsinə də baxıla bilər, bunu da biz nəzərdən keçiririk.

Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişdik. Avropa Komissiyası qeyd etdiyiniz kimi, Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdır. Bizim Avropa məkanına göndərdiyimiz qazın həcmi çox da olmasa, təqribən 12 milyard kubmetrə yaxındır. Halbuki bu, bizim ixracımızın yarısıdır. Amma ölkələrin əhatəsi məhz o ifadəni tamamilə haqlı edir, yəni, Panavropa təchizatçısı.

Əlbəttə ki, bu, bizim böyük nailiyyətimizdir. Bu, bizə böyük dividendlər gətirir, həm iqtisadi, həm də təbii ki, siyasi. Çünki sirr deyil ki, qaz amili enerji təhlükəsizliyi nöqteyi-nəzərindən ön plandadır. Bizim üstünlüyümüz məhz ondadır ki, biz böyük yatırım qoyaraq müasir qazpaylayıcı şəbəkə yaratmışıq. Resurs bazamız kifayət qədər böyükdür və artacaq. Avropada tələbat da mütləq artacaq. Çünki onlar nə qədər yaşıl enerjiyə keçid etmək istəsələr, yenə də təbii qaza ehtiyacları olacaq.

Amma yaşıl enerjiyə gəldikdə, yenə də burada Azərbaycan öz rolunu oynayacaq. Çünki yaşıl enerji dəhlizi, o cümlədən Qara dənizin altı ilə çəkiləcək kabel də Azərbaycan resurslarına hesablanıb. Yəni, qazla, neftlə bağlı bütün məsələlər həll olunub. Yaşıl enerjini ixrac etməklə bizim önəmimiz daha da artacaq. Avropa Komissiyasında, əlbəttə ki, bunu yaxşı başa düşürlər və martın əvvəlində Bakıda Cənub Qaz Dəhlizinin növbəti Məşvərət Şurası keçiriləcək və bu Məşvərət Şurasına Azərbaycanla Avropa Komissiyası həmsədrlik edir.

Ancaq bu məsələ ilə bağlı bir məqama diqqət yetirmək istərdim. Əfsuslar olsun ki, Avropada bəzi siyasətçilər ya bunu anlamırlar, ya onlarda kifayət qədər informasiya yoxdur və sentyabr hadisələrindən sonra hətta bəziləri bəyan edirdilər ki, Azərbaycanla Avropanın qaz əməkdaşlığı dayandırılmalıdır. Belə açıqlamalar, əlbəttə ki, bizim əməkdaşlığımızı gücləndirmir. Düzdür, bu açıqlama Avropa Parlamentinin sədri tərəfindən verilmişdi. Avropa Komissiyası heç vaxt belə açıqlamalar verməyib və təbii ki, verməyəcək. Amma Avropa Parlamentinin sədri kiçik vəzifə deyil və əgər bu şəxs bunu deyirsə, deməli, burada düşünməyə mövzu var. Amma onu bəri başdan bildirməliyəm ki, əgər hər hansı bir səbəbə görə bu mövqe üstünlük təşkil etsə, onda, sadəcə olaraq, bizimlə uzunmüddətli kontraktlar imzalayan şirkətlər 100 milyonlarla, bəlkə də milyardlarla avro dəyərində cərimələr ödəməli olacaqlar. Ona görə belə cəfəng açıqlamalar verən məsul şəxslər daha diqqətli olmalıdırlar.

Azərbaycan qaz ixracından neft ixracı ilə müqayisədə qat-qat az gəlir əldə edir. Prinsip etibarilə əgər fərz etsək ki, bu gün bizim qaz ixracımız yoxdur, adi vətəndaş bunu heç vaxt hiss etməyəcək. Əgər bizim qazımızın Avropaya nəqli hansısa səbəbə görə kəsilsə, onda bir çox ölkələr daha çətin vəziyyətə düşəcək və bunu Avropada hər kəs başa düşməlidir, o cümlədən məsuliyyətsiz bəyanatlar verən Avropa Parlamentinin sədri də bunu bilməlidir.

**Lidiya Molodtsova:** ***Cənab Prezident, məlum olduğu kimi, Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildən bu beynəlxalq təşkilatda üç il müddətinə sədrliyə başladı. Mənim əvvəlki sualıma cavabınızda Sizin qeyd etdiyiniz kimi, respublikaya etimadın örnəyi olan Bakı Təşəbbüs Qrupunun yaradılması üzrə irəli sürülən təşəbbüslər və uğurlu fəaliyyət sayəsində Azərbaycanın Hərəkatda sədrliyi daha bir il müddətinə uzadıldı. Bu nüfuzlu təşkilata sədrlik Azərbaycana nə verdi və həmin illər ərzində Hərəkat hansı uğurlara imza atdı?***

**Prezident İlham Əliyev:** Bu sədrlik bizə BMT-dən sonra ən iri təşkilata rəhbərlik etmək kimi əvəzolunmaz təcrübə verib və doğru yolda olduğumuza dair daha böyük əminlik yaradıb. Çünki Hərəkatın yaranmasının təməl prinsiplərini – daha dəqiq desək, dövlətlərin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini həmişə tam dəstəkləmişik və dəstəkləyirik, həmçinin Hərəkatın qurucularının 60 ildən də çox müddət əvvəl rəhbər tutduqları ideyaları bölüşürük. Məhz böyük geosiyasi mərkəzlərdən uzaq durmaq və heç kimin dediyi ilə oturub-durmamaq. Yəni, bu, mahiyyət etibarilə, müstəqillik uğrunda, müstəqil siyasət uğrunda Hərəkat olub. Hesab edirəm ki, Hərəkat daha qlobal oyunçular adlanan güclərin əleyhinə deyil, öz seçimi, öz ləyaqəti, ölkələrin xalqlarının istədikləri kimi yaşamaq istəyir. Biz bu prinsipləri həmişə bölüşmüşük və indi də bölüşürük. Fikrimcə, hazırda beynəlxalq analitiklər Azərbaycanı daha yaxşı tanıyırlar, bizim rəhbər tutduğumuz prinsiplərə bələddirlər. Gözəl başa düşürlər ki, siyasət uzaqlaşma deyil, dostluq zəminində aparılmalıdır, necə deyərlər, Azərbaycanda deyildiyi kimi, "səninki səndə, mənimki məndə". Bu, əməkdaşlıq üçün ən yaxşı yoldur. İnteqrasiya prosesləri könüllülük əsasında həyata keçirilməlidir. Heç bir inteqrasiya əsas inteqrantın üstünlüyünə gətirib çıxarmamalıdır. İndi Avropa İttifaqı məkanında bəzi Avropa ölkələrinin, onların öz ölkəsində böyük dəstəyə malik olan rəhbərlərinin necə "ağ qarğaya" çevrildiyini görürük, çünki onların mövqeyi ümumi istiqamətdən fərqlənir. Bəs, onda demokratiya prinsipləri harada qaldı, bu strukturun guya əsaslandığı bərabərlik prinsiplərinə nə oldu? Əgər təşkilatın hər hansı üzvü hansısa məsələyə dair fərqli fikirdədirsə, ona qarşı ayrı-seçkilik, sanksiyalar tətbiq etmək, tamamilə qanunsuz olaraq maliyyə vəsaitindən məhrum etmək lazım deyil. Bütün bunlar dünyanın gözü qarşısında baş verir, yəni, artıq maskalar da çıxarılıb.

Bu səbəbdən biz könüllü inteqrasiya planını dəstəkləyirik, amma bu, məntiqli olmalı, ölkələrin maraqlarına cavab verməlidir. Ona görə də Qoşulmama Hərəkatı məhz qərarların qəbul edilməsində müstəqil olan alternativ struktur kimi yaradılıb, belə ki, həmin ölkələrin əksəriyyəti də müstəmləkəçiliyin nə demək olduğunu bilirlər. Amma zaman keçdikcə bu struktur bir az deqradasiyaya uğrayıb və hətta beynəlxalq arenada onu çox az adam xatırlayırdı. Biz bu təşkilata rəhbərlik etməyə başlayanda, təbii ki, formal rəhbər ola bilməzdik.

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

(əvvəli 4-cü səhifədə)

Nəyin naminə oraya gəlmişdik? Sadəcə, vaxt keçirmək üçün deyil. Biz öz siyasətimizi aparmaq üçün gəldik. Əlbəttə, Azərbaycanın yekdilliklə seçilməsi və yekdil qərarla sədrlik müddətinin uzadılması bu siyasəti inamla aparmağa imkan verdi, çünki biz 120 ölkədən 119-nun mandatına malik idik. Təbii ki, əsas diqqəti ərazi bütövlüyü, suverenlik məsələsinə yönəltdik. Bu mövzu bizim üçün çox vacib idi, amma təkcə onunla kifayətlənmədik. Bütün milli nümayəndə heyətləri ilə apardığımız mütəmadi iş nəticəsində yeni platforma yarada bildik. Əlbəttə, başa düşürdük ki, funksional dinamika da lazımdır. Həmçinin bilirdik ki, təşkilata üzv ölkələrin bəziləri arasında barışmaz ziddiyyətlər mövcuddur və bu, Hərəkata təşkilat qismində transformasiya etməyə imkan vermirdi. Ona görə də platformaları yaradacaq strukturların təsis olunması yolu ilə getməyə qərar verdik. Bütün bunları dərhal etmək mümkün deyildi. Belə ki, biz Hərəkatın cəmi 10 il üzvü olduqdan sonra onun sədri seçildik. Bu səbəbdən bir neçə təşəbbüs irəli sürdük və onlar dəstəkləndi. Parlament, gənclər, qadın platformaları da belə yarandı. Bütün bunlar Hərəkata yeni nəfəs verdi və biz bir neçə sammit və nazirlər səviyyəsində tədbirlər keçirdik. Xüsusən COVID-lə üst-üstə düşdüyü zaman bizim vaksin milliyyətçiliyi ilə mübarizə sahəsində aktiv fəaliyyətimizə və Hərəkata yeni impuls verdi. Deməliyəm ki, bunlar, sadəcə, siyasi bəyanatlar deyildi, həm də əməli baxımdan Ümumdünya Səhiyyə Təşkilatı vaksinasiya aparılması üçün bizim məlumat bazamızdan istifadə edirdi.

Biz özünün əsl simasını göstərən ölkələrə qarşı fəal və çox aşkar çıxış edirdik. Məsələn, bu ölkələrdən biri uzun müddət dünyada mənəvi liderliyə iddia edirdi, hərçənd bunun üçün heç bir əsası yox idi. Mən Kanadanı nəzərdə tuturam. Amma onun dırnaqarası mənəvi liderliyi özünü onda göstərdi ki, bu ölkə lazım olduğundan beş dəfə artıq vaksin aldı. Sonra onların istifadə müddəti qurtardı və hamısını tulladılar. Bu vaksinlərə ehtiyacı olan bir çox ölkələr, sadəcə, özünün minlərlə, on minlərlə vətəndaşını itirirdi. Həmin vaxt məsələ onda deyildi ki, bu ölkələrin pulu yoxdur, sadəcə, vaksinlərə əlçatanlıq olmayıb. Yeri gəlmişkən, biz də əlçatanlıqla bağlı problemlə üzləşdik. Həmin vaxt mən Çin Xalq Respublikasının Sədrinə məktubla müraciət etdim. Yeri gəlmişkən, Mirşahinin sualından kimə zəng vurduğumu xatırladım. Cənab Si Cinpinə müraciət edərək Azərbaycana vaksin kvotası ayrılmasını xahiş etdim və çox minnətdaram ki, Sədr Si Cinpin olduqca operativ şəkildə cavab verdi və bizə 500 min vaksin ayrıldı, əlavə də 500 milyon doza. Yəni, biz Çindən bu köməyi aldığımıza görə, bir çox ölkələrdən əvvəl, yanvarın 20-dən etibarən vaksinasiyaya başladıq. Bizim satın almaq üçün pulumuz var idi, amma imkanlarımız yox idi. Kanadanın ehtiyacından beş dəfə çox vaksin satın aldığı bir vaxtda bu, təbiidir. Həmin vaksinlər necə yayılırdı? Axı, Çin istisna olmaqla, vaksin istehsalçıları əsasən Qərb ölkələri idi. Nə olsun ki? Onlar bunu necə yayırdılar, biz bütün bunları xatırlayırıq: ancaq özlərinə, sonra isə qalanını tullayırdılar. Yerdə qalanlar ölsə də, ölməsə də, xəstələnsə də – onların vecinə deyildi. Bütün bunlar bizi demokratiyaya, bərabərliyə, ədalətə, insan haqlarına öyrətməyə çalışanların əsl simasını bir daha aşkara çıxarır. Mən bunu yalançılıq, ikiüzlülük və riyakarlıq kimi xarakterizə edərdim. Biz maliyyə yardımı göstərirdik və sonra aldığımız vaksinlərin bir hissəsini ehtiyacı olan ölkələrə – 80-dən çox dövlətə verdik. Yəni, ölkənin, Azərbaycanın miqyasını götürsək, əhali və adambaşına düşən ümumi potensiala görə, yəqin ki, biz hamıdan çox yardım etdik. Bunu tamamilə düzgün hesab edirdik, çünki hər zaman yardım əlini uzatmaq lazımdır. Düşünürəm ki, bizim xarici siyasətimizi uğurlu edən amillərdən biri müraciət edildikdə və imkanımız olduqda həmişə yardım etməkdir. Hesab edirəm ki, həyatda da belədir, imkanın varsa kömək etmək lazımdır, yoxdursa bunu başa düşmək olar. Bu gün, sədrliyimizin başa çatdığı bu ayda onu Uqandaya təhvil veririk. Biz artıq tamamilə başqa



struktur təhvil veririk və hələ Uqanda ilə üçlükdə yer alacağıq. Uqandadan sonra Özbəkistan rəhbərlik edəcək. Beləliklə, biz neokolonializm ilə mübarizə də daxil olmaqla, fəaliyyətimizi davam etdirəcəyik. Əlbəttə, dediyim və sizin də qeyd etdiyiniz kimi, Bakı Təşəbbüs Qrupu artıq həyata vəsiqə alıb, onu heç kim heç vaxt yerindən tərpədə bilməz. Hərəkatda aparıcı rola malik olmağımızdan asılı olmayaraq, Bakı Təşəbbüs Qrupu bizim fəaliyyətimizin nəticəsidir. Müstəmləkə ölkələr azadlıq əldə etmədikcə, biz bu məsələdə onlara kömək edəcəyik.

**Rövşən Məmmədov:** ***Cənab Prezident, beynəlxalq əlaqələrdən söz düşmüşkən, bir qədər öncə dediyiniz fikirdən çıxış edərək, sonuncu sualımı ünvanlamaq istərdim. Bildirdiniz ki, Qarabağ probleminin həlli qlobal arenada layları tərpətdi və təbii ki, biz həm düşmənlərimizi gördük, onların maskaları yırtıldı, həm də dostlarımızı daha yaxından tanıdıq. Məhz bu baxımdan Azərbaycanın beynəlxalq diplomatiyada atdığı önəmli addımlardan biri də dostlarının sayını artırmaq, əməkdaşlıq coğrafiyasını genişləndirməkdir. Həmçinin Azərbaycanın nümayiş etdirdiyi modellərdən biri də qlobal tədbirləri ölkəmizdə keçirməkdir. Artıq nəinki Bakı, işğaldan azad olunmuş ərazilər belə qlobal tədbirlərə evsahibliyi edir və elə son üç ildə biz onlarla belə tədbirin adını çəkə bilərik və əlbəttə, 2023-cü il iki mühüm hadisə ilə bizim yadımızda qaldı. Bu, həm COP29-un, həm də Urban Forumunun Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsidir. Bax, bu toplantılardan, bu qlobal platformalardan Azərbaycan həm əməkdaşlıq coğrafiyasının artırılması, həm də ədalətli mövqeyini bir daha bütün dünyaya çatdırmaq baxımından necə istifadə edəcək?***

**Prezident İlham Əliyev:** Bəli, bunlar çox önəmli hadisələrdir, bir daha Azərbaycanın beynəlxalq nüfuzunu və bizim uğurlu siyasətimizi göstərir. Çünki COP29-la bağlı hadisələrin gedişatını indi hər kəs bilir və yenə də deyə bilərəm, tam səmimiyyətlə deyə bilərəm ki, bizim çox dəqiq və düşünülmüş diplomatik addımlarımız nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün imkan əldə etdik. Bilirsiniz ki, COP30-un ev sahibi bəlli olsa da – Braziliya, COP29-un ev sahibi son günlərə qədər bəlli deyildi. Xüsusilə son həftələr ərzində, hətta COP konfransı Dubayda başlayandan sonra da hələ aktiv diplomatik təmaslar davam edirdi və biz burada da istədiyimizə nail olduq. Halbuki burada da, yenə də bizim dırnaqarası ənənəvi dostlarımız hər iki tədbirdə bizə əngəl törətməyə çalışırdılar, COP29-da, necə deyərlər, daha gizli formada. Çünki burada, eyni zamanda, bölgədə sülhə doğru bir addım nəzərdə tutulurdu və bu addıma qarşı getmək, əlbəttə ki, heç kimə şəref gətirməzdi. Ona görə pərdəarxası fəaliyyət daha çox özünü göstərmişdi və Dünya Urban Forumu ilə bağlı açıq şəkildə bizə qarşı kampaniya gedirdi. Səsvermə ərəfəsində bir çox ölkələrə təzyiqlər göstərilirdi ki, amanın günüdür, Azərbaycana səs verməyin. Ancaq orada da iflasla üzləşdilər və bu iki tədbirin keçirilməsi, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu böyük dərəcədə artıracaq.

Bir də ki, bu günə qədər əgər COP tədbirlərini biz nəzərə alsaq, hətta Urban Forumu adətən inkişaf etmiş ölkələrdə, böyük ölkələrdə belə tədbirlər keçirilir. Çünki qonaqların sayına görə bu, ən böyük tədbirdir, yəni, Dubayda təqribən 70-75 min xarici qonaq var idi və bütün başqa amillərlə yanaşı, bu qədər qonağı qarşılamaq, şərait yaratmaq, bütün təşkilati məsələləri həll etmək böyük potensialdan xəbər verir. Yəni, bu, ölkəmizin imkanlarının növbəti nümayişidir. Eyni zamanda, yaşıl gündəliyə bizim münasibətimizdir və biz artıq bu şərəfə layiq görüləndən dərhal sonra bizə qarşı yenə də media kampaniyası başlamışdır. Ənənəvi aktorlar – "Vaşinqton Post", "Nyu-York Times", – yadınızdadır, prezident Tramp onları feyk-nyus adlandırmışdı, çox haqlı olaraq feyk-nyus adlandırmışdı, – "Fiqaro" və başqaları dərhal bizə qarşı çirkin kampaniyaya başlamışdır. Heç bir əsası olmadan və hətta mənim tərəfimdən COP29-a təyin etdiyim bizim ekologiya nazirini də atəşə tutdular. O, yəqin ki, belə hallarla ilk dəfə rastlaşır və irad tutdular ki, o, uzun illər neft şirkətində işləyib. Bu, nə deməkdir? Mən də 9 il neft şirkətində işləmişəm, sonra? Bu adam neft şirkətində ekologiya üzrə vitse-prezident vəzifəsində işləyib. Ondan sonra altı ildir ki, ekologiya naziri işləyir. Bütün bunlar kənara qoyulur, sanki bu, elə deyil. Amma bunun neft şirkətində çalışması bioqrafiyası var. Hər halda bunlar təbiidir, çünki bütün beynəlxalq tədbirlər keçiriləndə biz belə bir kampaniya ilə üzləşirik, istər Avropa Oyunları olsun, istər "Eurovision", hətta Astronavtika Konqresi. Yəni, necə deyərlər, artıq bu olmasa, biz təəccüblənərik. Əcəba, nə olub? Nəyi düzgün etməmişik ki, bizi indi tərifləyirlər Qərbdə. Yəni, əgər onlar bizi tərifləyirlərsə, deməli, nəsə biz, necə deyərlər xəta törətdik.

Hər halda bu iki tədbirin keçirilməsi doğrudan da böyük hadisədir və əminəm ki, hər iki tədbir uğurla keçiriləcək və gələn qonaqlar Azərbaycan reallıqları ilə tanış olacaqlar. Mahiyyət nöqteyi-nəzərindən, hesab edirəm ki, neft-qaz hasil edən və neft-qaz keçmişi olan ölkələrdə belə tədbirlərin keçirilməsi daha önəmlidir. Çünki bu, bizə irad tutulur və hətta Birləşmiş Ərəb Əmirliklərinə də, ondan əvvəl Misirə də və belə bir irad tutulur ki, neft-qaz hasil edən ölkələrdə bu, üçüncü dəfə baş verir. Amma buna başqa nöqtədən yanaşmaq lazımdır. Bax, bu ölkələr – neftlə, qazla zəngin olan ölkələr bu prosesin içindədirlər. Onlar ümumi işimizə töhfə vermək istəyirlər. Azərbaycan da, bizdən daha çox Birləşmiş Ərəb Əmirlikləri yaşıl enerji olmadan da rahat enerji təhlükəsizliyini nəinki təmin edir, bir çoxlarının enerji təhlükəsizliyini təmin edir. Amma bu, böyük bir məsuliyyət rəmzidir. Onun göstəricisidir ki, biz istəyirik öz vəsaitimizi bu sahəyə ayıraq ki, həm ölkələrimizdə, necə deyərlər, yaşıl enerji inkişaf etsin, həm dünyaya töhfə verək. Burada, əlbəttə ki, indi mahiyyət üzrə də çox ciddi proseslər gedəcək. Azərbaycan COP29-un prezidenti kimi xüsusi rola malik olacaq. Proseslərin gedişatı bizim mövqeyimizdən böyük dərəcədə asılı olacaq. Biz artıq bir neçə ölkədən əməkdaşlıq təklifi almışıq. Bizimlə bu hazırlıq dövründə əməkdaşlığın istiqamətləri müəyyən edilsin və biz bütün ölkələrlə əməkdaşlığa hazırıq, bu, bizim üçün də böyük bir təcrübə olacaq. Çünki bu, yenə də hesab edirəm ki, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır, həm dünya ictimaiyyətinin diqqəti nöqteyi-nəzərindən, BMT Baş Assambleyasından da daha mötəbərdir. Çünki BMT Baş Assambleyasında adətən prezidentlər gəlir, çıxış edir. Çıxış etdiyi dövrdə zalda onların nümayəndə heyətlərindən başqa, adətən heç kim olmur. Bundan sonra da çıxıb gedir. Amma burada real iş aparılacaq, müzakirələr, ola bilər müəyyən fikir toqquşmaları, yəni maraqlı bir proses olacaq və Azərbaycanın da bu prosesə rəhbərlik etməsi, əlbəttə ki, qürurvericidir.

**Mirşahin Ağayev:** ***Cənab Prezident, Sizə bayaqdan diqqətlə qulaq asıram, belə baxanda Fransa güclü dövlətdir, nüvə dövlətidir. Biz onlara Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının sədri olduğu dövrdə nəinki uduzmadıq, hətta qalib gəldik. Belə baxanda, mübarizə apardığımız Qərb dövlətlərinin hamısı kifayət qədər qüdrətli dövlətlərdir. Amma, eyni zamanda, zəifləyiblər və Azərbaycan onların heç birinin iradəsi qarşısında sınmır. Belə bir sual vermək istəyirəm. Nədədir Prezident İlham Əliyevin gücü və nədədir onların zəifliyi? Məsələn, niyə onların Azərbaycana gücləri çatmır, bir qadından acığını çıxırlar, özü də qadının heykəlindən? Əməkdaşlarımız Fransada olublar, Natəvanın heykəlinə bükülmüş örtüyü qaldırıblar. Görüblər ki, onu boyayıblar. Nədir onları belə zəif edən və nədir Sizi belə güclü edən?***

**Prezident İlham Əliyev:** Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var. Qarabağ məsələsində biz tamamilə haqlıydıq və heç kim bizi bu haqdan məhrum edə bilməz. Müstəqillik ideyalarımızı rəhbər tutmağımızda da haqlı idik. Çünki biz müstəqil ölkəyik. Əgər biz müstəqil ölkəyiksə, nə üçün kiminsə sözü ilə oturub-durmalıyıq? Onda gəlin, müstəqil ölkə olmayaq. Əgər kimsə hesab edirsə ki, bizi idarə edəcək, səhv edir, yenə haqsız odur. Belə cəhdlər olub. Son vaxtlar daha yoxdur. Çünki artıq görüblər. Amma olub. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq, heç vaxt qarışmamışıq. Hətta Ermənistanın daxili işlərinə də heç vaxt qarışmırdıq. Hətta işğal dövründə onların daxili proseslərinə də heç vaxt qarışmırdıq. Halbuki bizim kifayət qədər imkanlarımız var idi. Bu gün də var, bu gün də qarışmırıq. Baxın, bizim daxili işlərimizə nə qədər qarışma cəhdləri olub. Nə qədər məkrli planlar qurulub bizə qarşı. Siz bunların hamısını yaxşı xatırlayırsınız. Hələ 1990-cı illərin əvvəllərində bizə qarşı əsassız 907-ci düzəliş qəbul edilmişdi. Nəyə görə? Guya ki, biz Ermənistanı blokadada saxlayırıq. Axı, bizim torpaqlarımız işğala məruz qalıb, biz necə blokadada saxlaya bilərik? O vaxt hələ Heydər Əliyev hakimiyyətə gəlməmişdi, o vaxt Qərbin təqdir etdiyi dırnaqarası demokratik hakimiyyət Azərbaycanda var idi. Görün o vaxt anti-Azərbaycan hisslər nə qədər geniş vüsət almışdı və ondan sonra biz nə qədər belə əsassız ittihamlara məruz qalmışdıq. Tamamilə əsassız.

Yəni, biz bu məsələdə də haqlı idik, öz müstəqilliyimizi qoruyurduq, necə deyərlər, öz hədəfimizə doğru gedirdik və indi keçmiş hadisələri yeni prizmadan təhlil edərkən görürəm ki, yəqin bizə qarşı olan bu ədalətsizliklərin təməlində Qarabağ məsələsinin həll olunmaması dayanmışdır. Çünki daim bizi təzyiq altında saxlamaq, daim Azərbaycanı diktatura, avtokratiya, demokratiyanı əzən bir ölkə kimi göstərmək ki, bizim başımız buna qarışsın, biz gecə-gündüz özümüzü müdafiə edək, yaxud da gedək onların qabağında baş əyək, deyək ki, siz bizə sataşmayın. Amma biz nə etdik? Biz əksinə, bizə olan hücumlara qarşı öz mövqeyimizi ortaya qoyduq və onlar da gördülər ki, bizimlə keçmir və Qarabağı azad etməyimizi də ona görə bizə bağışlamırlar ki, onların əlindən bu rıçaq çıxdı. Azərbaycan, məcazi mənada desək, bu qarmaqdan çıxdı. Artıq bu amil yoxdur. İkinci Qarabağ müharibəsindən sonra status və Qarabağ ermənilərinin hüquqları mövzularını ortaya atmışdılar ki, yenə də burunlarını oraya soxa bilsinlər. Beynəlxalq missiyanın oraya göndərilməsini təkidlə tələb edirdilər ki, yenə də vəziyyəti qarışdırsınlar. O rıçaq da əllərindən çıxdı. Ona görə indi yeni bir mövzu axtaracaqlar. Yəni, sizin sualınıza bir qədər geniş cavab verirəm. Amma bax, bunun əsas platforması budur. Biz hər zaman haqlı olmağımızda tam əmin idik və bir dənə də nahaq iş görmədik. İndi yenə də deyirəm, bizi ittiham edirlər ki, biz Ermənistana hücum etmək istəyirik. Mən bunu artıq demişəm, bir daha deyirəm tam səmimiyyətlə, istəsəydik girərdik, lap axıra qədər gedərdik. Cermuk şəhəri – bizim keçmiş əsl adı İstisu olan şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi mühafizə etmək idi. Elə təpələr əlimizdə olmalı idi ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Deyirəm, mənim peykim mənim gözlərimdir. Mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş görməmişik, bu əsasdır, əsas amildir. İkincisi də gücümüz, cəmiyyətimizin birliyi, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik. Birmənalı sizə deyirəm. Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən. Ölümə gedirdilər, siz yaxşı bilirsiniz.

Bizə qarşı olanlar haqqında mən çox danışmışam, bəlkə də kifayətdir bu müsahibə üçün. Amma onlar bizi düzgün qiymətləndirə bilməyiblər, yəqin ki, ona görə uduzublar. Əgər bizi düzgün qiymətləndirsəydilər, bizə qarşı çıxmazdılar, bizə qarşı çıxmaq hər birinə çox baha başa gələ bilər. Qeyd etdiyiniz bu hadisələr həm BMT-də, həm Avropa İttifaqında bunun əyani sübutudur.

**Rövşən Məmmədov:** ***Cənab Prezident, artıq üç saata yaxındır ki, müsahibə davam edir və 20-dək istiqamət üzrə suallarımızı cavablandırdınız. Müsahibəyə görə təşəkkür edirik və gələcək fəaliyyətinizdə, xüsusən də yeni missiya uğrunda fəaliyyətinizdə hər birimiz adından Sizə uğurlar arzu edirik, minnətdarıq.***

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Sizə də uğurlar, cansağlığı, Yeni ildə yeni qələbələr arzulayıram.

**Rövşən Məmmədov:** İnşallah.

**Prezident İlham Əliyev:** Sağ olun.

**AZƏRTAC**

# Prezident İlham Əliyev: Mən heç şübhə etmirdim ki, gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaq

**"44 gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim döndərə bilməzdi. Mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada – Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.**

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada – Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaq".

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 131-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində xalqımızın Vətən müharibəsində əldə etdiyi Zəfərin 3-cü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı söyləyib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin "Zəfər Kitabı" adlandırılan 131-ci nəşrində toplanmış materiallar 2023-cü ilin sentyabr–noyabr aylarını əhatə edir. Bu kitabda Prezident İlham Əliyevin Sərsəng su anbarının ərazisində, Ağdərə, Xankəndi, Xocavənd, Xocalı şəhərlərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması, eləcə də Xankəndidə xalqımızın Vətən müharibəsində qazandığı bö-




yük Zəfərə həsr olunmuş hərbi paradda iştirakına dair materiallar toplanıb.

Prezident İlham Əliyev ötən ilin sentyabr ayında Cəbrayıl və Zəngilan rayonlarına səfər edib, tikinti işləri ilə tanış olub, Zəngilanda yaşayış komplekslərinin təməlqoyma mərasimlərində iştirak edib, sentyabrın 29-da "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxış edib. Bütün bunlara dair materiallarla yeni kitabda tanış olmaq mümkündür. Kitabda dövlətimizin başçısının, həmçinin Füzuli rayonuna, Şuşaya, habelə Sumqayıt şəhərinə səfərlərinə dair geniş məlumatlar verilib.

Yeni kitaba Azərbaycan Prezidentinin 2023-cü ilin oktyabr ayında Gürcüstana işgüzar səfərinə, MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qırğızıstana səfərinə, noyabr ayında Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstana, İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistana səfərləri haqqında informasiyalar daxil edilib.

Prezident İlham Əliyevin Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində iştirakı haqqında materiallar da bu kitabda yer alıb.

Yeni nəşrdə dövlətimizin başçısının TÜRKSOY-un yaradılmasının 30 illiyinə həsr olunmuş təntənəli tədbirin, İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının 27-ci iclasının, Azərbaycan qadınlarının VI qurultayının, 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın bərpa, yenidənqurma və inkişafı" – "Rebuild Karabakh" sərgisinin, "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətləri də təqdim edilib.

"Azərnəşr" tərəfindən buraxılan 131-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Aşağı seçki komissiyaları üçün təlimlər






**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində müxtəlif seçki subyektləri üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.**

MSK yanvarın 10-dan növbəti ölkəmiqyaslı tədbirlərə – aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verib. Layihənin əsası hələ 2002-ci ildə komissiyanın nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı çərçivəsində qoyulub və ilbəil təkmilləşdirilərək, 2008-ci ildən etibarən forma və məzmunca daha da genişləndirilib. Treninqlər o zamandan bəri ölkəmizdəki bütün seçkilərdə keçirilməklə, dairə və məntəqə seçki komissiyaları üzvlərinin bilik və bacarıqlarının, işgüzar və peşəkar vərdişlərinin yüksəldilməsinə əhəmiyyətli töhfələr verib.

Mərkəzi Seçki Komissiyası qarşıdan gələn seçkilərlə əlaqədar iki mərhələdən ibarət treninq proqramı hazırlayıb. “Trenerlər üçün treninq” adlı birinci mərhələ yanvarın 10-dan başlayaraq 5 gün davam edəcək. Bu mərhələ komissiyanın treninq qrupu tərəfindən tam praktiki məşğələlər şəklində təşkil olunub və müxtəlif əyani, metodiki, yardımçı vəsaitlərdən istifadə edilməklə keçirilir. “Trenerlər üçün treninq”lərə ölkə üzrə 125 seçki dairəsində dairə seçki komissiyasının hər birindən iki təmsilçi olmaqla, ümumilikdə 250 yerli trener cəlb olunur. Onlar seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumat əldə edirlər.

Sözügedən treninqlərdə seçki günü prosedurları, səsvermə hərəkətləri və qarşıya çıxa biləcək müstəsna hallar əyani formada səhnələşdirilərək, yerli trenerlərə nümayiş etdirilir, habelə praktiki məşğələlər zamanı müxtəlif mövzular geniş müzakirə olunur. Bu zaman yaranan suallar da cavablandırılır.

Treninq layihəsinin məntəqə seçki komissiyalarının üzvləri üçün təşkil olunacaq ikinci mərhələsinə yanvarın 17-dən başlanacaq və seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına müvafiq olaraq 3-10 gün ərzində keçiriləcək.

Layihənin bu mərhələdə də səmərəliliyini yüksəltmək və keyfiyyətini daha da artırmaq məqsədilə məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlərin praktiki formada və Mərkəzi Seçki Komissiyasının treninq qrupu tərəfindən hazırlanan cədvələ əsasən, təxminən, 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə kiçik qruplar şəklində keçirilməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, treninqlərə qatılan hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan “Seçki günü üçün yaddaş” kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunacaq.

Prezident seçkilərinin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsində müstəsna rolu olan treninq layihəsi, ümumilikdə 38000-ə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# Regionlarda seçki maarifləndirməsi

**Mərkəzi Seçki Komissiyası maarifləndirmə proqramına uyğun olaraq regional seminar-müşavirələrə start verib. Bu məqsədlə yanvarın 10-da Şirvan şəhərində təşkil olunan tədbirdə MSK-nın, Şirvan Apellyasiya Məhkəməsinin, həmçinin regionlar üzrə müvafiq məhkəmə orqanlarının hakimləri və dairə seçki komissiyalarının sədrləri, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli beynəlxalq müşahidəçiləri iştirak ediblər.**



Seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov və Şirvan Apellyasiya Məhdkəməsinin sədri Vəli Abdullayev maarifləndirmə proqramı barəsində məlumat veriblər. Sonra MSK-nın üzvü Qabil Orucov və Şirvan Apellyasiya Məhkəməsinin hakimi Samir Həsənov, Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat barədə təqdimatlarla çıxış ediblər.



Sözügedən layihənin reallaşdırılmasında başlıca məqsəd növbədənkənar prezident seçkilərinin yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi yönündə görülən işlərlə yanaşı, seçki mübahisələrinin həlli ilə bağlı dairə seçki komissiyalarının bilik, bacarıq və məlumatlılıq səviyyəsinin yüksəldilməsi, bu istiqamətdə atılan addımların səmərəliliyinin artırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasıdır.

*

Dünən Şəki və Gəncə şəhərlərində də növbədənkənar prezident seçkiləri ilə əlaqədar maarifləndirmə proqramına uyğun olaraq Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikasının Ali Məhkəməsi və apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində regionlarda seçki mübahisələrinin məhkəmə qaydasında həlli mövzusunda seminar-müşavirələr keçirlib.



Tədbirdə MSK-nın, apellyasiya məhkəmələrinin, həmçinin regionlar üzrə müvafiq məhkəmə orqanlarının hakimləri və dairə seçki komissiyalarının sədrləri, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli beynəlxalq müşahidəçiləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin əməkdaşı Cavid Zeynalov “Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarına verilməsi və onların araşdırılması qaydaları”, Gəncə Apellyasiya Məhkəməsi Cinayət Kollegiyasının sədri Rafiq Cəfərov “Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi”, İnzibati Kollegiyanın sədri Rəşad Mamedov “Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat” mövzularında təqdimatlarla çıxışlar ediblər.

*XQ*

# Azərbaycan Türkiyə İş Adamları Birliyinin bəyanatı

**Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) 2024-cü il yanvarın 10-da keçirilmiş İdarə Heyətinin iclasında 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı bəyanat yekdilliklə qəbul edilmişdir. Sənəddə bildirilir:**

ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

2024-cü ilin fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında dəmir yumruq kimi birləşmiş xalqımız və qəhrəman ordumuz tərəfindən ərazi bütövlüyü təmin edilmiş ölkəmizin bütün ərazisində keçiriləcək, ərazi bütövlüyümüzü və suverenliyimizi bir daha təsbit edərək, zəfər seçkiləri kimi Azərbaycanın siyasi tarixinə vəsiqə alacaqdır.

30 illik işğala son qoyulduqdan sonra doğma torpaqlarına qayıtmış insanların ilk dəfə öz yurdlarında seçici kimi səsvermədə iştirak edəcəyi bu seçkilər Azərbaycan dövlətçiliyinin tarixində yeni və parlaq bir dövrün başlanğıcı olacaq.

Möhtərəm Prezidentin rəhbərliyi altında xalqımız və dövlətimizin nail olduğu bu şanlı Zəfərin Ali Baş Komandan kimi müəllifi cənab İlham Heydər oğlu Əliyevin keçiriləcək növbədənkənar prezident seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədliyi Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmışdır.

Azərbaycan Respublikası ilə qardaş Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ənənəvi dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin inkişafı istiqamətində dövlət siyasətinin həyata keçirilməsində, ölkəmizin və qardaş Türkiyə Respublikasının iş adamlarının daxil olduğu sahibkarlıq ictimaiyyətinin potensialını dövlətimizin və xalqımızın maraqları ətrafında birləşdirmək istiqamətində yarandığı 2004-cü ildən bəri əhəmiyyətli rol oynayan Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) 2024-cü il yanvarın 10-da keçirilmiş İdarə Heyətinin iclasında İdarə Heyəti üzvləri tərəfindən yekdilliklə qəbul edilmiş qərara əsasən müzəffər Ali Baş Komandan cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyini dəstəklədiyini qürur hissi ilə bəyan edir, bu tarixi seçkilərdə ona uğurlar arzulayır və keçiriləcək seçkilərin məntiqi nəticəsinin tariximizə parlaq bir səhifə kimi həkk olunaraq qüdrətli dövlətimizin və qalib xalqımızın sınmaz iradəsinin təzahürü olmasını diləyir.

# Milli QHT Forumunun Ümumrespublika Forumu

**Yanvarın 10-da Bakıda Milli QHT Forumunun Ümumrespublika Forumu keçirilib. Forumda 300-dək Qeyri-Hökumət Təşkilatı (QHT) rəhbəri iştirak edib.**




Tədbirdə əvvəlcə müasir müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Milli QHT Forumunun fəaliyyətində yeni dövrün başladığını diqqətə çatdıran qurumun prezidenti Rauf Zeyni bildirib ki, Azərbaycan Milli QHT Forumu ötən 25 ildə ölkədə vətəndaş cəmiyyəti quruculuğu prosesində QHT-lərin inkişafı, regionlarda bu hərəkatın gücləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində səmərəli fəaliyyət göstərib. Onun sözlərinə görə, ölkədə vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edən Forum öz sıralarında müxtəlif profilli 100-lərlə QHT-ni birləşdirir. Son 1 ayda Azərbaycan Milli QHT Forumu respublikanın 5 regionunda – Lənkəranda, Qubada, Şəkidə, Gəncədə və Naxçıvanda forumlar keçirib, bu tədbirlərdə 250-dən çox yerli QHT iştirak edib. Bu gün regional forumlara Ümumrespublika Forumu ilə yekun vurulur.

İctimai nəzarətin, iştirakçılığın təmin olunması, şəffaflığın artırılması və digər istiqamətlərdə görülən işlərdən danışan R.Zeyni regionlarda mütəmadi olaraq forumların keçirildiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, təşkilatın regional forumlarında vətəndaş cəmiyyətinin mövcud vəziyyəti, qarşıda duran vəzifələr təhlil olunur, ölkədə baş verən proseslər, bu proseslərə vətəndaş cəmiyyətinin münasibəti və digər məsələlərlə əlaqədar ictimai müzakirələr aparılır, QHT-lərin rəy və təklifləri dinlənilir.

Azərbaycanın zəfərləri ilə reallıq yaratdığını vurğulayan R.Zeyni dövlətimizin müstəqilliyinin və suverenliyinin qorunması, ölkəmizin gələcək inkişafı istiqamətində QHT-lərin də üzərinə böyük məsuliyyətin düşdüyünü qeyd edib. O, Milli QHT Forumunun qurultayının mart ayında keçiriləcəyini də diqqətə çatdırıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev qeyd edib ki, ölkəmiz üçün ağır olan 1980–1990-cı illərdə yeni yaradılan QHT-lər xalqın, dövlətin yanında idi və indi də belədir.

U.Mirzəyev ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra QHT-lərlə bağlı yeni baxışın formalaşdığını bildirib. Vətəndaş cəmiyyəti təşkilatlarının səmərəli fəaliyyətindən söz açan U.Mirzəyev Laçın–Xankəndi yolunda QHT-lərin ekoaksiyasını qəhrəmanlıq kimi dəyərləndirib.

Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli, “Vətəndaşların Sosial Rifahı Naminə” İctimai Birliyinin sədri İradə Rzazadə, “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Əlizadə, Gənclər Təşkilatları Milli Şurasının sədri Rafael Hacıbəyli və Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov çıxış edərək, Azərbaycanın yeni inkişaf mərhələsində vətəndaş cəmiyyətinin rolundan, ölkəmizin inkişafında müxtəlif sahələrdə görüləcək işlərdən danışıblar, QHT-ləri fəal əməkdaşlığa çağırıblar. Vurğulanıb ki, ötən 20 ildə Azərbaycan beynəlxalq aləmdə yüksək nüfuz, etibar, hörmət qazanıb.

Sonda Milli QHT Forumu Prezident İlham Əliyevin siyasətinə dəstək bəyanatı qəbul edib.

Qeyd edək ki, Milli QHT Forumu hazırda 600-dən çox təşkilatı özündə birləşdirir.

# Seçicilər Suqovuşan və Ağdərədə səs verə biləcəklər

**Prezident seçkisi 97 saylı Tərtər-Naftalan-Goranboy seçki dairəsində 59 məntəqədə keçiriləcək. Həmin məntəqələrdən ikisi işğaldan azad edilmiş ərazilərdə yerləşir.**




Bunu Dairə Seçki Komissiyasının sədri Həmid Mehdiyev deyib.

Komissiya sədri bildirib ki, Suqovuşan qəsəbə tam orta məktəbində yerləşən 58 saylı seçki məntəqəsində 146 seçici qeydə alınıb. Onlardan 85-i Talış kəndində məskunlaşan sakinlər, qalanı isə Suqovuşan qəsəbəsinin tikintisinə çalışanlardır. Talış kənd sakinlərindən bir nəfər ilk dəfə səsvermədə iştirak edəcək. Ağdərə şəhər mədəniyyət evinin binasında yerləşən 59 saylı seçki məntəqəsində isə 157 nəfər seçici qeydə alınıb.

*XQ*

# Azərbaycan – Ermənistan sülh gündəmi: bir addım irəli, bir addım geri



(əvvəli 1-ci səhifədə)

“Dünyanın kəsişməsi” Ermənistanın öz üzərinə götürdüyü öhdəliklərdən yayınmaq cəhdidir. Yəni, Mirzoyan sülh prosesinin başlıca tərkib hissəsi olan regional kommunikasiyaların açılması məsələsini sözügedən layihə ilə əsaslandırmağa çalışmamalıdır. Həm də ona görə çalışmamalıdır ki, siyasi leksikona Zəngəzur dəhlizi kimi daxil olmuş Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolu sülh gündəmində rəsmi şəkildə təsdiqini tapsa da, yəni Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında vurğulansa da, “Dünyanın kəsişməsi”nin söykənəcəyi heç bir nöqtə yoxdur. O da aydındır ki, İrəvan bu təşəbbüsü, məhz Zəngəzur dəhlizi məntiqinə qarşı qondarıb. Azərbaycanın icazəsi olmadan isə layihənin reallaşması qeyri-mümkündür.

Bəli, A.Mirzoyan vurğulayıb ki, bütün çətinliklərə və fəsadlara, işin ləngiməsinə, bəzi hallarda Azərbaycanın dağıdıcılı mövqeyinə (?) baxmayaraq, Ermənistan sülh danışıqlarının davamında və Cənubi Qafqazda sülhü bərqərar etməkdə əzmlidir. Belə çıxır ki, İrəvan sülh istəyir, Bakı yox?

Bununla belə, onu da bildirək ki, erməni XİN rəhbərinin fikirlərində müəyyən pozitiv ab-hava da duyulmaqdadır. Belə ki, o, qarşılıqlı konstruktiv yanaşma, siyasi iradə ilə tərəflərin çox yaxın gələcəkdə sülhün yaranması istiqamətində nəzərəçarpacaq nəticələr əldə edə biləcəyinə inandığını dilə gətirib.

Yeri gəlmişkən, qeyd edək ki, pozitivlik Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın ölkənin “İctimai” televiziyasına bir neçə gün əvvəl verdiyi müsahibəsindəki fikirlərdə də əksini tapmaqdadır. Rəsmi İrəvanın Bakının sülh müqaviləsi ilə bağlı iki həftə əvvəl ünvanladığı təkliflərə cavab verdiyini deyən A.Qriqoryan qarşı tərəfdən də yeni cavab gözlədiklərini diqqətə çatdırmaqla yanaşı, ən qısa zamanda sülh sazişinin imzalanacağını gözlədiklərini açıqlayıb. Ancaq, o, bəzi məsələlərdə heç bir irəliləyişin əldə olunmadığını da vurğulayıb: “Biz bu məsələlərdə tezliklə irəliləyişə nail olacağımızı və həllini tapmadığımız qalan məsələlərin fikir mübadiləsi və danışıqlar yolu ilə həll ediləcəyini və ən qısa zamanda sülh sazişinin imzalanacağını gözləyirik”.

A.Qriqoryan bu il yanvarın sonunda Ermənistanın və Azərbaycanın sərhədlərin delimitasiyası üzrə komissiyalarının iclasının keçirilməsi barədə razılığa gəlindiyini də bildirib və görüşün baş tutacağına ümid etdiyini deyib. Qeyd edək ki, sözügedən komissiyaların sonuncu iclası ötən il noyabrın 30-da Ermənistan–Azərbaycan sərhədində gerçəkləşib. Həmin görüşdə tərəflər komissiyanın iclaslarının və birgə işçi görüşlərinin təşkili və keçirilməsinə dair işçi reqlamentin ilkin mətnini razılaşdırıblar. Ölkələr, həmçinin delimitasiya komissiyalarının birgə fəaliyyəti haqqında əsasnamə layihəsinin razılaşdırılması üzrə işə başlamaq barədə razılığa gəliblər.

Ancaq Mirzoyan və Qriqoryandan fərqli olaraq, Ermənistan parlamentinin Xarici əlaqələr komissiyasının sədri Sarkis Xandanyan nala-mıxa vurmaqla məşğuldur. Birincisi, o bildirib ki, İrəvan Bakı ilə birbaşa ikitərəfli danışıqlar üçün heç bir təklif almayıb. Başa düşmək olmur, təklifi kim verməli imiş?! Digər yandan, Azərbaycan dəfələrlə birbaşa dialoq məntiqini qabardıb. Belə çıxır ki, hansısa üçüncü tərəf İrəvana Bakı ilə birbaşa danışıqlar aparmağı təklif etməli imiş. İkincisi isə erməni parlamentari Azərbaycanın ikitərəfli danışıqlarla bağlı bəyanatlarına da münasibət bildirib və elə təəssürat yaradıb ki, sanki ölkəmizin təklifi yalnız sözdədir...

Bəli, S.Xandanyan açıqlamasında danışıqların üçüncü tərəfinə fokuslanmaq yolu tutmaqdadır. Məsələn, o bildirir ki, ölkəsi artıq formalaşmış formatların daimiliyinə önəm verməkdədir. Çünki həmin formatlar danışıqlara beynəlxalq əhəmiyyət qazandırır, onları daha legitim hala gətirir, riskləri idarəolunana çevirir. “Xüsusilə, Vaşinqtonda xarici işlər nazirləri səviyyəsində danışıqlar aparılıb, Avropa İttifaqı platformasında isə dövlət başçıları səviyyəsində danışıqlar gedib”, – deyən Xandanyan fikrinə aydınlıq gətirib.

Ümumən, Ermənistanın ikitərəfli danışıqlar məntiqini xeyli dar götürdüyü aşkardır. Əslində, S.Xandanyanın fikirlərini də bu baxımdan nəzərə almaq mümkündür. Yəni, ikitərəfli danışıqları deyil, beynəlxalq aktorların iştirakı ilə keçiriləcək təmasların vacibliyini önə çəkən S.Xandanyan sırf delimitasiya komissiyaları kontekstində qarşılıqlı müzakirələrin davam etməsindən söz açıb. Burada təzadlı məqam ondadır ki, erməni deputat ötən ilin dekabrında hərbi əsirlərin qaytarılması məsələsi ilə bağlı birbaşa ikitərəfli danışıqlar getdiyini də vurğulayıb. Onun sözlərindən hasil olan qənaət budur ki, Ermənistan birbaşa təmasların yalnız belə məsələlərlə bağlı olmasına hazırdır. “Bizim üçün danışıqların beynəlxalq platformalarda davam etdirilməsindən və ya birbaşa ikitərəfli danışıqların olub-olmamasından asılı olmayaraq, onların məzmunu və prinsiplərin konsolidasiyası böyük əhəmiyyət kəsb edir. Bu prinsiplər təsbit edilməsə, razılaşmalar gözlədiyimiz dəyərə malik olmayacaq”, – deyən Xandanyanın fikirləri manipulyasiyadan və mənasız söz yığınından başqa bir şey təsiri bağışlamır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Azərbaycanın daxili işləri siyasi oyun meydanı deyil

(əvvəli 1-ci səhifədə)



Nazirlik rəsmisi, həmçinin Azərbaycan XİN-in sözügedən şəxsin Fransa səfirliyinin iki əməkdaşı ilə işbirliyinə dair məsələnin araşdırılması məqsədilə ali diplomatik missiyaya verbal nota ünvanladığını vurğulayıb. Lakin, qarşı tərəf mövcud istiqamətdə izahat verməyib, istintaqda əməkdaşlıqdan yayınıb: “Bununla əlaqədar, səfirliyin bu iki əməkdaşı Azərbaycan tərəfindən "arzuolunmaz şəxs" elan ediliblər”, – deyən A.Hacızadənin fikirlərindəki ən vacib məqamlardan birincisi onun Parisin Bakı tərəfindən aparılan təhqiqat tədbirlərinə müdaxiləyə çalışmasını vurğulamasıdır. Bu mövqe yolverilməzdir və dayandırılmalıdır. İkinci, ən vacib məqam isə Fransanın Azərbaycanın daxili işlərinə qarışmaq cəhdidir. Əsas məsələ də elə budur.

Bəli, Fransa Azərbaycanın daxili işlərinə müdaxilə yolunu tutub. Məsələ, kifayət qədər, ciddidir. Məlum olduğu kimi, ötən il dekabrın üçüncü ongünlüyündə ölkəmizin Dövlət Təhlükəsizliyi Xidməti Fransanın Azərbaycandakı casus şəbəkəsini ifşa etmişdi. Bundan sonra Fransanın ölkəmizdəki səfirliyinin iki əməkdaşı “persona-non-grata” (arzuolunmaz şəxs) elan olunmuşdu. Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ötən ilin sonlarına yaxın keçirdiyi mətbuat konfransında, belə demək mümkünsə, ifşa əməliyyatı ilə əlaqədar yayılmış xəbərlərin üzərində dayanmasa da, bildirmişdi ki, diplomatlarla bağlı qərar çıxarılmazdan əvvəl Fransa səfirliyinə “onların iki əməkdaşı barədə Azərbaycan dövlət orqanlarında ciddi faktların” olmasına dair nota verilib.

C.Bayramov onu da vurğulamışdı ki, Azərbaycanla Fransanın bir-birinin iki diplomatını “persona-non-grata” elan etməsindən sonra iki ölkə arasında münasibətlərin hazırkı durumu pisdir. Nəzərə alaq ki, rəsmi Paris də dekabrın 27-də Azərbaycanın Fransadakı səfirliyinin iki əməkdaşını arzu olunmaz şəxs elan edib. Fransa XİN, habelə, rəsmi Bakının fransız diplomatlarına qarşı irəli sürdüyü ittihamları rədd edib. Buna qarşılıq Azərbaycan XİN ölkəmizin diplomatlarının “arzuolunmaz şəxs" elan olunması üçün rəsmi Parisin heç bir əsas göstərmədiyini açıqlayıb.

C.Bayramov deyib ki, diplomatik immunitetə sahib olan şəxslərlə bağlı araşdırma aparılması üçün həmin dövlətin razılığı tələb olunur. “Fransa, dedikləri kimi, əməkdaşlarının günahsızlığına əmin idisə, onlar bu araşdırmaya imkan yarada bilərdilər”, – deyən nazirin sözlərinə görə, ölkəmizin atdığı addımda sübut, dəlil və fakt var, qarşı tərəfdə isə yoxdur. Yəni, azərbaycanlı diplomatlara qarşı elan olunmuş “persona-non-grata” düzgün deyil, sadəcə, kortəbii cavab tədbiridir. Yeri gəlmişkən, bu məqam Fransa XİN-in yaydığı açıqlamadan da aşkar görünməkdədir: “Fransa Azərbaycandakı səfirliyinin iki əməkdaşının Azərbaycan tərəfindən “persona-non-grata” elan edilməsinə dair qərarını nəzərə alır. Rəsmi Paris Azərbaycan tərəfinin öz qərarına bəraət qazandırmaq məqsədilə irəli sürdüyü ittihamları qətiyyətlə rədd edir. Fransa cavab tədbiri kimi Azərbaycanın Fransadakı səfirliyinin iki əməkdaşını “persona-non grata” elan edib”.

Göründüyü kimi, C.Bayramov haqlıdır. Fransa hansısa sübut təqdim etmir. Eləcə də hazırda A.Hacızadənin bildirdiyi kimi, ölkə Azərbaycanın daxili işlərinə qarışmasını heç nə ilə əsaslandıra bilmir. Daxili işlərə qarışmaq isə var və məlumdur ki, bu, ölkənin ermənipərəst mövqeyindən qaynaqlanmaqdadır. Azərbaycan son aylarda daha tez-tez Fransanın regionda qərəzli və militarizasiya siyasəti yürütdüyünü vurğulamaqdadır. Mövcud xüsusda C.Bayramovun ötənilki mətbuat konfransında Parisi həm də “Azərbaycanofob və anti-Azərbaycan mövqedə” günahlandırması da diqqət çəkməkdədir. Bu isə 2022-ci ilin oktyabrından başlayaraq özünü daha qabarıq büruzə verən haldır. Belə ki, həmin vaxt Fransa prezidenti Emmanuel Makron “France-2” telekanalına müsahibəsində Azərbaycana yönəlik bəzi iddialar səsləndirmişdi. Demişdi ki, Moskva Bakı və İrəvan arasındakı gərginliyi birincinin xeyrinə qızışdırmaqla məşğuldur. Azərbaycan Prezidenti İlham Əliyev fransalı həmkarının sözlərini “təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli” adlandırmış və vurğulamışdı ki, Paris belə yanaşması ilə özünü Azərbaycan–Ermənistan normallaşma prosesindən kənarda qoymaqdadır.

Bundan başqa, Fransanın Cənubi Qafqazda regional sülh və sabitliyi ciddi şəkildə pozan, Avropa İttifaqının bölgə ilə bağlı ümumi siyasətini riskə atan qərəzli hərəkətlərə yol verdiyini və hərbiləşdirmə siyasəti apardığını əsas götürən Prezident İlham Əliyev ötən ilin oktyabrında İspaniyanın Qranada şəhərində Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya formatında nəzərdə tutulan beştərəfli görüşə qatılmaqdan imtina etmişdi.

Qeyd edək ki, Fransa və Ermənistan arasında hərbi əməkdaşlıq müqaviləsinin imzalanması da Azərbaycanı narazı salan, ciddi narahat edən məqamdır. Ölkəmiz Makron administrasiyasının bu addımını regionda destruktiv fəaliyyət kimi qiymətləndirir. Fransa rəsmilərinin iddialarının əksinə olaraq, ölkənin Ermənistana veridiyi silahın heç də müdafiə xarakterli olmadığı isə gün kimi aydındır.

Ümumən, Fransa ilə Azərbaycan arasındakı münasibətlərin gərginləşməsində təşəbbüskar rəsmi Parisdir. Fransanın son üç il ərzində üzv olduğu beynəlxalq təşkilatlarda bütün diplomatik səylərini Azərbaycana qarşı təxribatların təşkilinə yönəltdiyi, aşkar ermənipərəst mövqe tutduğu birmənalıdır. Tam qətiyyətlə bildirmək mümkündür ki, gərginliyin hansı həddə qədər yüksələcəyi Fransanın gələcək addımlarından asılıdır.

C.Bayramovun da ötən il vurğuladığı kimi, ölkəmiz heç vaxt Parisə qarşı addım atmaq istəməyib. Əksinə, həmişə münasibətlərin qorunmasının tərəfdarı olub. Fransa hazırkı situasiyada məhz bunu düşünməli, Azərbaycan və Cənubi Qafqaz siyasətinə yenidən baxmalı, səmərəli dəyişikliklər aparmalı, ən əsası isə A.Hacızadənin vurğuladığı kimi, ölkəmizin daxili işinə qarışmaqdan uzaq durmalıdır. Bunu nə qədər tez dərk etsə, bir o qədər xeyirdir. Çünki hazırkı siyasət Paris üçün yeni fiasko vəd edir.

*Ə.CAHANGİROĞLU*
*XQ*

KÖŞƏ

# Öz gözlərində tiri görməyənlər...

**Bircə bu oyun qalmışdı ki, başımıza açmamış olsunlar. ABŞ Azərbaycanı dini etiqad azadlıqlarını pozmaqda da ittiham etdi. İndiyədək biz insan haqlarını pozmaq, vətəndaşların toplaşmaq azadlıqlarına əməl etməmək, seçki prosesləri zamanı hansısa qanun pozuntusuna yol vermək kimi absurd ittihamları az eşitməmişik. Təbii ki, bu və ya digər iradlara dövlət orqanlarımız, ayrı-ayrı ictimai-siyasi təşkilatlarımız, eləcə də rəsmi media tərəfindən lazımi cavablar verilib.**



Paşa ƏMİRCANOV
pasha.emircanov@mail.ru

İndi də Azərbaycan xalqının, dövlətimizin öyünə və dünyanın bir çox ölkəsinə nümunə ola biləcək dini azadlıqlarımız, tolerantlığımız “təftiş” müstəvisinə çıxarılıb. Özü də ABŞ tərəfindən və bu ölkənin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması məsələsinə vasitəçilik iddiasından hələ əl çəkmədiyi bir vaxtda.

ABŞ tərəfindən, ona görə deyirik ki, bu ölkə insanların dini və irqi ayrı-seçkiliyə məruz qaldığı ən böyük məkanlardan biridir. Təkcə müstəqillik qazandığımız son illərdə bu cür halların saysız-hesabsız nümunələri ilə rastlaşmışıq. Amma bu illərdə Azərbaycanda dini və irqi zəmində heç bir insident baş verməyib. Hətta ermənilərin dini abidələrinə də toxunulmayıb. Amma ABŞ-da bu gün də heç bir günahı olmayan vətəndaşlar, sadəcə, dərilərinin rənginə görə təqib olunur, döyülür, qəddarcasına öldürülür.

Təxminən, iki ay əvvəl ABŞ-da qaradərili insan cəza çəkdiyi həbsxanada kamera yoldaşı tərəfindən öldürülmüşdü. Corciya ştatının səlahiyyətli orqanları insanın “dərisinin rənginə görə” döyülərək öldürüldüyü “irqi motivli” qətllə bağlı araşdırmalara başladığını bildirmişdi. Bununla bağlı cinayət işində qeyd olunurdu: “Məhkum Xakes Cekson “kamera yoldaşını, sadəcə, dərisinin rənginə görə əlləri və ayaqları ilə qəddarcasına döyüb, başını unitaza çırpıb və öldürüb”.

İrqçilik və rasizm halları ilə bağlı bu cür cinayətlər ABŞ-da adi hal alıb. Bu ölkədə ən çox irqçilik halları qara, qırmızı dərililərə, Latın Amerikası, Meksika, Asiya mənşəlilərə və yəhudilərə qarşı törədilib. Amerika tarixinin “qara səhifələrini” ifşa edən, ağdərililərin Amerikasında quldarlığa və irqçiliyə qarşı mübarizə aparan Martin Lüter Kinq 1968-ci ildə məhz qaradərili olduğu üçün qətlə yetirilmişdi. Bu gün də ABŞ-da rasizm “çiçəklənməkdədir”. Misal üçün, 2015-ci ilin yazında qaradərili gənc Mixael Broun ağdərili Darren Uilson tərəfindən vurularaq öldürülüb. 2020-ci il avqustun 21-də Luiziana ştatında 31 yaşlı afroamerikalı Treyford Pelleri polis tərəfindən saxlanılarkən güllələnərək öldürülmüşdü. Pellerinin bədəninə 10-a qədər atəş açılmışdı. 2020-ci il mayın 25-də ABŞ-ın Minneapolis şəhərində afroamerikalı Corc Floyd polis tərəfindən boynu burularaq öldürülüb. Bu amansız cinayətdən sonra təkcə ABŞ-da deyil, dünyanın əksər ölkələrində rasizmə qarşı genişmiqyaslı nümayişlər keçirilib. Amma görünən budur ki, özünü “demokratiya və azadlıq beşiyi” hesab edən, okeanın ortasında Azadlıq heykəli ucaldan bu ölkədə irqi və dini ayrı-seçkilik, bu xüsusda ikili standartlar hələ də hökm sürməkdədir.

İndi bu ölkənin Beynəlxalq Din Azadlığı Komissiyası dini etiqad azadlığına müdaxilə ilə bağlı heç bir faktın qeydə alınmadığı Azərbaycanı ittiham edir. Necə deyərlər, öz gözlərində tiri görməyənlər başqasının gözündə çöp axtarırlar.

Əslində, məsələnin kökü Qarabağ ermənilərinin yaşadıqları ərazini könüllü tərk etməsindədir. Təkcə ABŞ deyil, Qərbin bəzi ölkələri Azərbaycanın Ermənistan üzərində tam və qəti qələbəsini qəbul edə, sinirə bilmir. Tarixə qovuşmuş Qarabağ münaqişəsi dövründə olduğu kimi, yenə də erməniləri dəstəkləyərək etmədiyimiz əməllərə görə bizi ittiham edirlər. Bu istiqamətdə rəsmi Paris də Vaşinqtondan geri qalmır. Fransa Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən daha çox rəncidə düşüb və əslində, özünün ədalətsizliyinə görə vasitəçilik missiyasından kənarda qalıb.

İndi belə görünür ki, ABŞ da əsassız və tamamilə yersiz ittihamları nəticəsində özünü vasitəçilik şansından məhrum edə bilər. Bunu biz istəmirik. Amma ABŞ-ın səyləri onu bu yönə çəkir.

Bu günlər ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono faktiki olaraq regionda olub, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasını müzakirə edib.

Dünən isə ABŞ-ın Azərbaycandakı səfirliyinin mətbuat katibi Vanessa Zenji bəyan edib ki, Qafqaz danışıqları üzrə baş məsləhətçi cənab Lui Bono Vaşinqtonun sülh prosesinə dəstəyini, davamlı, ədalətli sülhə nail olmağın yollarını müzakirə etmək üçün tez-tez regiona səfərlər edir: “Cənab Bono sülh prosesini dəstəkləmək üçün Ermənistan və Azərbaycanda bir neçə əsas maraqlı tərəflərlə müntəzəm olaraq danışıqlar keçirir. Biz Cənubi Qafqaz xalqlarına sülh və sabitlik gətirən istənilən prosesə kömək etməyə hazırıq”.

Ancaq bu yerdə sual yaranır: axı necə? ABŞ “ədalətli sülhə nail olmağın yollarını” bu cürmü axtarır? Ermənistan rəhbərləri dəfələrlə müsəlman azərbaycanlılarla bir yerdə yaşamaq istəmədiklərini bəyan ediblər. İrəvan bu müsəlman ölkəsinin 20 faiz torpağını 30 il işğal altında saxlayıb, 60-dan artıq məscidimizi dağıdıb, dini abidələrimizi donuz fermasına çevirib. ABŞ bunları görməyib və dini etiqad azadlığına qəsd kimi qiymətləndirməyib. İndi erməni əhali könüllü şəkildə Qarabağdan gedib, Vaşinqton bunda Azərbaycanı günahlandırır. Üstəlik, məlum hesabatı erməni əsilli birisinə yazdırır. Bunu necə “ədalətli sülhə nail olmağın yolu” hesab etmək olar?!

# Müharibə ehtirasları Ağ Evi hansı səmtə sürükləyir?

## "Qara qızıl", "qara qızın dərdi" və Qərb küləyi



**Ekspertlər "həyəcan" təbili çalırlar ki, "böyük müharibə" dünyanın əksər ölkələrinin qapısında, Azərbaycanın isə qonşuluğundadır. Doğrudur, ölkəmizə qarşı birbaşa heç bir təhdid və ya müharibə riski yoxdur. Bu barədə hansısa proqnozu eşidən də olmayıb. Hətta, Ermənistandakı revanşistlər də bir çox arqumentləri götür-qoy edəndən sonra dillərini xeyli yığışdırıblar. Rəsmi İrəvan artıq Türk dünyasının böyük gücə, Azərbaycanın beynəlxalq aləmin əsas aktorlarından birinə çevrildiyini, eləcə də, müxtəlif ölkələrdəki erməni lobbiçilərinin nəzərəçarpacaq dərəcədə "sustaldığını" çox yaxşı başa düşür.**

Ancaq o da faktdır ki, biz əsrlər boyu gözlədiyimiz tarixi ədalətin bərpasına nail olmuşuq, işğaldan azad edilən ərazilərimizdə misli görünməmiş bərpa-quruculuq işləri sürətlə davam etdirilir, siyasətimiz dünyanın, demək olar ki, bütün ölkələrində müsbət qarşılanır, iqtisadiyyatımız yüzdən çox ölkənin iqtisadiyyatı ilə əlaqəli şəkildə inkişaf etdirilir. Üstəlik, rəsmi Bakı bir çox beynəlxalq iqtisadi layihələrin tam mərkəzindədir. Yəni dünyanın harasında yeni münaqişə yaranacaqsa, yaxud mövcud münaqişələr lokallıqdan çıxaraq daha böyük ərazi yayılacaqsa, mütləq Azərbaycan da həmin faktların təsirini hiss edəcək.

Təəssüf ki, "qaşınmayan yerdən qan çıxardan", müharibə və münaqişə ehtiraslarını gizlətməyən ABŞ və bəzi Avropa ölkələrinin əsas hədəflərindən ikisi "Azərbaycanın qulağının dibindədir." Söhbət Rusiya Federasiyası və İran İslam Respublikasından gedir. Ağ Ev müharibənin Rusiyanın "içərilərinə" keçməsinə nail olarsa, onda şimal qonşumuzun ərazisindəki yüz minlərlə azərbaycanlının taleyi necə olacaq? O halda həmin ölkədəki soydaşlarımız ya müharibənin qurbanına çevriləcək, ya da biz yenə qaçqınlar ordusunu qəbul etmək məcburiyyətində qalacağıq. Halbuki, biz otuz il problemlərini həll etdiyimiz məcburi köçkünləri indi-indi yerbəyer etməyə başlamışıq.

Yaxud, Ağ Evin "burnunun ucunu göynədən" məsələ – İranın müharibəyə cəlb edilməsi variantı baş tutarsa, onda necə olacaq? İrandakı milyonlarla soydaşımızın üzləşdiyi fəlakət bizim problemimiz olmayacaqmı? Əlbəttə, olacaq. Cənab Prezident İlham Əliyev 2022-ci ilin payızında Türk Dünyası Təşkilatının Səmərqənddə keçirilən sammitində demişdi ki, bizim türkdilli ölkələrin hüdudlarından kənarda yaşayan milyonlarla soydaşımız da var ki, biz onların taleyinə də biganə qala bilmərik.

Ekspert yazır ki, Azərbaycan Prezidenti İlham Əliyevin dərin siyasi biliyi və uzaqgörənliyi sayəsində Qarabağ məsələsi çox doğru zamanda öz həllini tapdı: "Çünki qızıl ortanı tuta bilməsəydik, problemlər də yarana bilərdi. Ona görə də şanslıyıq ki, ölkəni İlham Əliyev kimi dünya miqyasında qəbul və hörmət olunan lider idarə edir. Digər məsələ isə quru sərhədlərin bağlı qalması yerində atılmış bir addım idi. Bu gün cənubumuzda baş verən hadisələri çox diqqətlə izləyirik. Əgər Azərbaycanın İranla quru sərhədləri bağlı olmasaydı, nələr ola bilərdi?"

Bütün bunlar da faktdır, Ağ Evin müharibələrin miqyasını genişləndirmək ehtirasları da. Hamıya gün kimi aydındır ki, Qəzzadakı müharibənin gündən-günə daha çox insan itkisinə səbəb olması Təl-Əvivin istəyi deyil. Ağ Evdəki qara fikirlilər bu müharibənin uzanmasını ona görə istəyirlər ki, ərazisində neft-qaz ("qara qızıl") olan ölkələr də bu münaqişəyə qarışsınlar, ABŞ əsgəri həmin ölkələrin ərazisinə girsin və İraqda, Liviyada olduğu kimi, növbəti ölkələrin karbohidrogen ehtiyatları da gəlmələrin əlinə keçsin. Yəni Qərb küləyi getdikcə sürətlənir.

Ukraynaya "qorxma-qorxma" deyərək iki qardaş slavyan ölkəsinin bir-birinə düşmən edilməsi zamanı da "qara qızın dərdi" var idi. Ötən əsrlərdəki "Parçala, hökm sür!" tezisindən əl çəkə bilməyənlər güman edirdilər ki, Ukraynaya hərbi və maddi yardım etməklə qısa müddətdə Rusiyanın məğlubiyyətinə nail olacaqlar. Düşünürdülər ki, Rusiyanın bu müharibədə məğlub olacağı təqdirdə Avrasiyanın Çin istisna olmaqla, bütün ölkələri "eyni mərkəzdən" idarə oluna bilər.

Ancaq son zamanlar Azərbaycan sübut etdi ki, Rusiya–Ukrayna müharibəsinin və ya hansısa digər münaqişənin nəticələrindən asılı olmayaraq, biz öz müstəqil siyasətimizdən əl çəkməyəcəyik və heç kəs bizimlə təhdid, hədə-qorxu dili ilə danışa bilməz. Belə olanda Ağ Evdən Azərbaycana qarşı ağ yalanlarla yoğrulmuş əsassız, absurd və gülünc ittihamlar irəli sürülür. Riyakarlıq o həddə çatıb ki, ABŞ rəsmiləri özlərinin dörd-beş il əvvəl Azərbaycan reallıqlarını, daha çox ölkəmizdəki tolerantlığı və multikulturalizmi təqdir edən müsbət rəylərinin üstündən qan rəngində xətt çəkərək, rəsmi Bakını məhz həmin dəyərlərin qorunmamasında ittiham edirlər. İnsan nə qədər ikiüzlü olmalıdır ki, belə iyrənc ittihama imza ata bilsin.

Vaşinqtondan eşidilən bu cəfəng, absurd fikirlər ötən əsrin doxsanıncı illərində məhz bu şəhərdən ölkəmizə qarşı edilən misli görünməmiş ədalətsizlik nümunəsini yada salır. Belə ki, o zaman ərazisinin 20 faizi işğal edilən, bir milyondan çox qaçqın-köçkün problemləri ilə üzləşən Azərbaycana qarşı "907-ci düzəliş" deyilən sənəd qəbul edilmiş, işğalçı, terrorçu, separatçı Ermənistana isə hərbi yardım göstərilmişdi (Tarixdən dərs götürməlidirlər ki, həmin yardımlar Ermənistanı rüsvayçı məğlubiyyətdən və biabırçı kapitulyasiyadan xilas edə bilmədi). Azərbaycanı multikulturalizm prinsiplərinin pozulmasında ittiham edilməsi də məhz həmin "düzəliş" kimi əsasız, haqsız, ədalətsiz və göydəndüşmədir.

Gərək bədxahlarımız anlasınlar ki, ölkəmizə qarşı ünvanlanan hədə-qorxu, təhdid və ya təsirlərin hamısı məhz həmin "907-ci düzəliş" kimi səmərəsiz olacaq. Çünki bizim siyasətimizin və əməllərimizin təməlində haqq, mücadələ, başəri ədalət və sülhsevərlik prinsipləri dayanır. Tarix boyu heç bir qoluzorlu bu prinsiplərə qalib gələ bilməmişdir.

***İttifaq MİRZƏBƏYLİ***

# Cənubi Qafqazın geosiyasi parçalanma riski

## II Məqalə

**Ermənilər öz fikirlərini, hisslərini və niyyətlərini gizlədən dələduzlara və yalançılara çevrilmişlər.**

**Aleksandr Düma (Ata)**

**Birinci yazımızda Cənubi Qafqazda geosiyasi parçalanma riskinin təməlində hazırda regionda rəqabət aparan iki geosiyasi xəttin qarşılıqlı münasibətlərindən yaranan ziddiyyətli vəziyyətin dayandığı tezisini irəli sürmüşdük. Həmin geosiyasi trendlərdən biri son yüzilliklərdə Cənubi Qafqazda dominantlıq edən "konfrontasiya geosiyasəti"dir. Digəri isə dünyanın güclü geosiyasi aktorlarının II Qarabağ savaşından sonra postmüharibə mərhələsinin mahiyyəti və məzmununa uyğun inkişaf edən "yeni geosiyasi konstruktivizm" xəttidir.**




Konfrontasiya geosiyasətinin regionda aktoru Ermənistandır. Konstruktiv geosiyasətin aparıcı gücü isə Azərbaycandır! Müəyyən mənada, bu iki yerli gücün qarşılıqlı münasibətləri və ona dünyanın böyük güclərinin təsiri özəlliyi hazırda regional geosiyasi proseslərin əsas trekini təşkil edir. Məsələnin bu tərəfi üzərində geniş dayanmaq lazım gəlir.

### Siyasi və geosiyasi etibarlılıq

Ümumiyyətlə, keçən əsrin sonları XXI əsrin əvvəllərindən siyasətdə etbarlılıq məsələsinin dərki xeyli aktuallaşmışdır. Tədqiqatçılar məsələni birbaşa "tərəflərin bir-birinə etibarı" anlamı kontekstində qoyurlar. Problem miqyasından asılı olmayaraq, siyasi və geosiyasi münasibətlərin müsbət nəticəli tənzimlənməsi kontekstində araşdırılır. Məsələn, Frensis Fukuyama 1996-cı ildə bir cəmiyyət və ölkə miqyasında etibarlılıq problemini sosial fəzilətlilik və tərəqqiyə aparan yol faktorları ilə sıx bağlılıqda araşdırmışdır. O, müxtəlif ölkələrdə iqtisadi, sosial və siyasi xarakterli etibarlılığın modellərini tədqiq etmişdir.

Müəllif nümunə kimi, ABŞ, Böyük Britaniya, ÇXR, Fransa, Yaponiya, Rusiya və digər dövlətlərin etibarlılıq dərəcəsini araşdırılır. Bütün faktorları vahid sistemdə birləşdirmiş və ümumu nəticələr əldə etmişdir. F.Fukuyama hesab edir ki, kapitalizm sistemində uğurluluq əsas olaraq etibarlılıqla müəyyən olunur. Burada etibarlılıq dövlətin köməyi olmadan ailədən kənarda insanların birləşə bilməsini ifadə edir. Həmin kriteriya əsasında F.Fukuyama ABŞ, Almaniya və Yaponiyanı yüksək etibarlılıq dərəcəsi olan ölkələr kimi müəyyənləşdirir. Politoloji aspektdə etibara iki rolda baxırlar. Birincisi, toplum miqyasında həmrəylik dərəcəsidir. İkincisi, etibar toplum səviyyəsində qəbul edilən "oyun qaydaları"na əməl etməkdir. O cümlədən, üzərinə düşən öhdəlikləri yerinə yetirməkdir. F.Fukuyama bu rolların bir-biri ilə sıx əlaqədə olduğunu yazır.

Deməli, ümumi halda etibar subyektin (bu halda dövlətin, ölkənin) təsəvvürləri və əhval-ruhiyyələrinin cəmidir ki, onun resurslarının artması və ya azalmasına gözləntisini əks etdirir. Eyni zamanda, bu, subyektin bu funksiyaları yerinə yetirməyə hazırlıq səviyyəsinin göstəricisidir. Təbii ki, bunlara əks olan keyfiyyətlərin cəmi etibarsızlığı ifadə edir. Psixoloji olaraq, etibarlılıq kommunkasiyanın ön qaydası kimi dərk edilə bilər.

Bütün bunların fonunda Konfutsinin etibarlılıq anlayışının maraqlı izahı vardır. Humanizm, qanunçuluq, xeyirxahlıq və müdriklik etibara əsaslanır və o, bütün bu prinsiplərin təməlində dayanır.

Onu da qeyd edək ki, etibarlılıq dərəcəsində iki aspektdən biri daha aktiv rol oynaya bilər. Onlardan biri oyun qaydalarının üstünlük təşkil etməsidir. Digəri isə şəxsi münasibətlərin, mənəvi-əxlaqi faktorların üstün olmasıdır. Etibarlılığın birinci halında cəmiyyət qanunun aliliyi ilə idarə olunur. İkinci növdə şəxsi münasibətlər önə çıxır ki, bu da bərpa korrupsiyanı gücləndirir. Birinci cəmiyyətlərə "soyuq toplumlar", ikincilərə isə "isti toplumlar" deyirlər. Rusiyanı ikincilərə aid edirlər.

Etibarlılıq məsələsini ayrıca bir cəmiyyətə o dərəcədə aid edirlər ki, bir sıra tədqiqatçılar həmin fenomeni "qorxusuz iş" adlandırırlar.

Etibarlılıqla bağlı bu tezisləri siyasi və geosiyasi sferalara tətbiqini necə konseptuallaşdırmaq olar? Öz-özünə aydındır ki, siyasi və geosiyasi münasibətlərdə etibarlılıq ciddi yer tutur. Bunu həm sözün adi mənasında, həm də nəzəri anlamında dərk etmək çətin deyil. Və burada söhbət dövlətlərin etibarlılığından, qəbul edilən qaydalara, müəyyən olunan oyun qaydalarına əməl etmələrindən danışmaq mümkündür. Əgər dövlət razılaşdırılmış şərtlərə hər hansı bəhanə ilə əməl etməkdən boyun qaçırırsa, bu, onun yüksək etibarsızlıq göstəricisidir. Belə olan halda, həmin dövlət oynadığı roldan səmərə gözləmir və ya səmərə olacağına inanmır. Nəticədə, o, etibarsız tərəfdaş olur.

Etibarsızlıq və etibarlılıq əlamətlərinin siyasi və geosiyasi faktorları kimi bir sıra terminlərdən istifadə etmək olar. O sırada "siyasi normalar", "siyasi suverenlik" və "siyasi təzyiq" anlayışlarına nəzər salmaq lazım gəlir.

### Siyasi normalar

"Siyasi normalar" siyasi dəyərlər və siyasi qaydaları, nümunələri tənzimləyən vacib requlyatividir. Bütövlükdə siyasi normalar siyasi davranışı, gözləntiləri və standartları, qadağaları konkret siyasi sistemin dəyərlərinə uyğun tənzimləməsidir. O halda regional miqyasda geosiyasi normalar regionun dəyərlərinə uyğun dövlətlərarası münasibətlərin tənzimlənməsini ifadə edir. Burada regionun təhlükəsizliyi və sabitliyi ön plana çıxır.

### Siyasi və geosiyasi suverenlik

Vurğulanan tezislərdən "siyasi suverenlik" və "regional geosiyasi suverenlik" kimi anlayışlara baş vurmaq olar. Siyasi suverenlik dedikdə dövlətin başqa mərkəzlərdən asılı olmadığı ifadə edilir. Regional miqyasda geosiyasi suverenlik isə region ölkələrinin birgə kənar təsirləri neytrallaşdırmaq əsasında ortaq maraqlarını təmin edən geosiyasi şərtlərə əməl olunmasıdır. Aydındır ki, burada həm regionun ayrı-ayrı dövlətləri suveren olmalı, həm də onlar həmin suverenlik "sahəsi"ndə, bütövlükdə, regionun asılı olmaması nəzərdə tutan ortaq şərtləri müəyyən etməlidirlər. Lakin bu da son hədd deyil. Çünki, eyni zamanda, həmin şərtlərə praktiki əməl edilməsinə nail olmaq gərəkdir.

Buradan aydın olur ki, siyasi suverenlik olmadan hər hansı müstəqil dövlətin siyasi (həm də geosiyasi) normalara real əməl etməsi mümkün deyildir. Ona görə də siyasi suverenlik siyasi normaları təmin edən ümumi "fondur". Eyni məntiqlə geosiyasi suverenlikdən danışmaq olar. Hər hansı bir region o zaman geosiyasi suveren olur ki, qəbul edilən qaydalara bütün region ölkələri əməl etsinlər. Üstəlik, bunun geosiyasi proyeksiyasına birlikdə (yəni qarşılıqlı əlaqədə) nail olsunlar.

### Siyasi və geosiyasi təzyiq

Siyasi suverenlik və siyasi normaların etibarlılıq kontekstində münasibətlərinin müəyyən edilməsində "siyasi təzyiq" anlayışının roluna da baxmaq gərəkdir. Əslində, geosiyasi sabitlik və bütövlük aspektində siyasi (iqtisadi, sosial, ideoloji, energetik və s.) təzyiqlər siyasi normaların hansı dərəcədə siyasi suverenliyin təmin edilməsində rol oynaya biləcəyinin ölçüsüdür. Siyasi təzyiqin sıfır olduğu yerdə normalar maksimal tətbiq edilə bilir, əks halda vuğrulanan nisbət dəyişir. Buna görə də "siyasi təzyiq"in konseptual anlamı vacibdir. Siyasi təzyiq geosiyasi kontekstdə və regional təhlükəsizlikdə kənar qüvvənin regional miqyasda öz marağının təminatı üçün tətbiq etdiyi texnoloji-ideoloji, diplomatik və iqtisadi təsirlər sistemidir. Bunun üçün xüsusi təzyiq qrupu yaradıla bilər. Lakin, bu, mütləq şərt deyildir. Əsas odur ki, təzyiq subyekti (ayrıca bir güclü dövlət və ya dövlətlər qrupu) yerli ölkələrə müxtəlif üsullarla onun şərtləri əsasında fəaliyyət göstərmələrini tələb edir. Bu da istər-istəməz həm yerli dövlətlərin əks-reaksiyasına səbəb olur, həm də regionda geosiyasi sınma xətləri (və ya çatları) yaradır. Regional intriqalar, qarşıdurmalar və münaqişələr həmin geosiyasi sınma xətləri üzrə yarana bilər. Aydındır ki, bu vəziyyət regional parçalanmalara ciddi təsir edə bilər.

Beləliklə, siyasi və ya geosiyasi təzyiq müxtəlif dərəcədə regional geosiyasi bütövlüyə mənfi təsir edir və parçalanmalara yol açır. Bu proses dövlətin etibarlılıq dərəcəsi ilə birbaşa bağlıdır.

### Qarşıdurma və geosiyasi konstruktizm

İndi vurğulanan nəzəri məqamların konkret Cənubi Qafqazda təzahür nümunələrinə baxaq. Biz, geosiyasi parçalanma riskinə geosiyasi konfrontasiya və yeni geosiyasi konstruktivizm xətlərinin qarşılıqlı təsirlərinin ortaq "məkanı"nda nəzər salacağıq. Konkret faktlardan başlayaq. Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov (atası ermənidir) Ermənistan rəhbərliyinə çağırış edərək bildirmişdir ki, ABŞ-a etibar (diqqət edin, "etibarlıq" anlayışı konkret geosiyasi kontekstdə işlədilir) edən hər bir postsovet məkanı ölkəsinin "qibtə edilməyəcək taleyi olur". Burada siyasi məntiq üç geosiyasi məqam üzərində qurulmuşdur: Birincisi, "Ermənistan Rusiyanı itirərsə...", ikincisi, "İrəvanda bir sıra aparıcı siyasətçilər bunu deyirlər", üçüncüsü, "Rusiyanı itirməyi, bir qayda olaraq, Qərbi qazanmaq fonunda qəbul edirlər".

Burada üç məntiqi özəl bir ümumi mənzərə yaradır: Rusiyaya görə, Ermənistan geosiyasi etibarsız dövlətdir! Erməni siyasətçilərin ritorikasına görə, bu etibarsızlığın o biri tərəfi Qərbə etibar etməkdir. Bunların hansının real olduğunu zaman göstərəcək. Lakin geosiyasi etibarsızlıq aspektində əhəmiyyətli olanı ondan ibarətdir ki, Rusiyanın bu qiymətləndirməsi birbaşa regional geosiyasi təhlükəsizliyin və sabitliyin təminatı kontekstində real məzmun kəsb edir. Çünki Moskva məsələni məhz həmin müstəvidə təqdim edir: "Qərbə üz tutanların taleyi qibtəedici deyil".

Şübhə yoxdur ki, bu cür yanaşma birbaşa Cənubi Qafqazda geosiyasi olaraq hər şeyin dəyişə biləcəyinə işarədir. Bu mənada, söhbət Ermənistana göstərilən siyasi təzyiqdən gedir. Elə bir təzyiq ki, erməni dövlətinin suverenliyi şübhə altına alınır. Və eyni zamanda, siyasi normaları, əvvəllər əldə olunmuş razılaşmaları qeyri-legitim və təxribatçı formada pozmaqda Ermənistanı ittiham etməkdir!

(ardı var)

***F.MƏHƏMMƏDOĞLU***
***XQ***

Siyasi deqradasiya

# Fransa heykəldən intiqam alır...

**Azərbaycanın bir qrup ədəbiyyat, mədəniyyət, incəsənət və elm xadimi, vətəndaş cəmiyyəti təmsilçiləri Fransanın Evian-Le Ba şəhərində Xurşidbanu Natəvanın heykəlinə qarşı nümayiş etdirilən rəftarı qəbuledilməz sayır, abidənin üzərinin bağlanmasını Azərbaycan mədəniyyətinin təhqir edilməsi kimi dəyərləndirir.**

Bu barədə Azərbaycan ictimaiyyəti adından yayılan bəyanatda deyilir.

"Xurşidbanu Natəvan bütün Şərqdə və İslam dünyasında görkəmli şairə, rəssam, maarifçi və xeyriyyəçi, qadın azadlığı, qadın hüquqları uğrunda mübariz kimi tanınır, onun əsərləri Azərbaycanda dövlət varidatı elan olunub.

Görkəmli fransız yazıçısı Aleksandr Dümanın da əsərlərində bəhs etdiyi Natəvan, eyni zamanda, Azərbaycan və Fransa xalqları arasında dostluğun tərənnümçüsü kimi tanınır. Evian-Le Ba şəhərində baş vermiş rəzalət Fransa hakimiyyətində azərbaycanofobiya, türkofobiya, islamafobiyanın hansı həd-



də çatdığını əyani şəkildə göstərir" – deyə bəyanatda vurğulanır.

Bu gün Natəvan obrazı həm də yeni çalarlar qazanaraq, özündə Şuşa Zəfərini, Xankəndi Qələbəsini təcəssüm etdirir. Ona görə də Fransada məhz Natəvanın abidəsinə qarşı olan bu iyrənc hərəkətlər təsadüfi görünmür. Fransa hakimiyyəti siyasi hikkəsini Natəvanın Evian-Le Ba şəhərindəki heykəlindən çıxmaqla, hansı səviyyəyə endiyinin fərqinə varmalıdır. Bu, Fransanın siyasi tarixinə qara ləkə kimi düşəcək.

"Fransa hakimiyyəti Natəvanın heykəli ilə əlaqədar rüsvayçılığı aradan qaldırmağa, həmin parkda yerləşdirilmiş lövhədə silinmiş "Azərbaycan Bağı" sözlərini yerinə qaytarmağa çağırırıq. Yelisey sarayı Azərbaycan bədii fikrinin və mədəniyyətinin görkəmli xadiminə qarşı bu hərəkətlər, azərbaycanlı diplomatların, jurnalistlərin Fransadan çıxarılması əvəzinə, Parisdəki Azərbaycan səfirliyinə edilmiş hücumu araşdırmalı, günahkarları cəzalandırmalıdır", – deyə bəyanatda bildirilir.

**XQ**

# Azərbaycan etibarlı beynəlxalq tranzit keçiddir

## Yollar daha qısa, yükaşırımı xeyli sürətlidir

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan respublikamızın tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla yanaşı, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində reallaşdırılan birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində ölkəmizin nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faizə yüksəlib, yeni infrastruktur qurulub, respublikamız regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib.

Nəqliyyat-logistika sahəsində həyata keçirilən layihələrin uğurlu nəticələri də bunu aydın göstərir. Məsələn, keçən ilin yanvar–noyabr aylarında dəniz nəqliyyatı ilə 1 milyard 777 milyon dollar dəyərində 2 milyon 425 min ton yük daşınıb və bu, 2022-ci ilin müvafiq dövrünə nisbətən müvafiq olaraq 38,5 faiz və 2,5 dəfə çoxdur. Həmçinin hesabat ilinin 11 ayında dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin həcmi 74 min 139 ton (33,9 faiz artım), dəyəri 168 milyon 456 min dollar (2,8 dəfə çox), idxal olunan yüklərin həcmi 2 milyon 351 min ton (2,6 dəfə çox), dəyəri isə 1 milyard 608 milyon dollar (35,7 faiz artım) təşkil edib.

Şübhəsiz ki, bu göstəricilərin əldə edilməsində Bakı Dəniz Ticarət Limanı əhəmiyyətli rol oynayıb. Limanda 2023-cü ilin yanvar–noyabr ayları ərzində 6 milyon 735 min tondan çox yük aşırılıb. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 15 faizdən çox artım deməkdir.

Dünyada baş verən proseslər səbəbindən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rolu artıb. Avrasiya məkanında mühüm geostrateji mövqedə yerləşən, zəngin iqtisadi və ticari əlaqələri olan Azərbaycan Bakı limanı açılandan sonra dəniz nəqliyyatının inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub.

“Bir kəmər, bir yol” meqalayihənin əsas qollarından olan bu liman dünya ticarətinin və ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafında mühüm rol oynayır. Bakı limanı üzərindən artan yük həcmlərinin qəbulu və ötürülməsi prosesini daha rahat həyata keçirmək üçün ikinci fazanın tikintisi ilə bağlı işlər görülür. Nəticədə limandan ildə 25 milyon tona qədər yük aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi gözlənilir.



Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi adıçəkilən liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan və ölkədən çıxan, habelə tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edir. Bu kompleks, həmçinin Bakı–Tbilisi–Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirir. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının Bakı Dəniz Ticarət Limanında cəmlənərək, buradan Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəqlini təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranır.

Onu da xatırladaq ki, yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə buna görə də Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyənləşdirən “Ələt Azad İqtisadi Zonası haqqında” 18 may 2018-ci il tarixli Qanun imzalayıb.

Ekspertlərin sözlərinə görə, adıçəkilən bu qurum daha çox nəqliyyat, logistika zonasının formalaşmasına xidmət edir. İnvestisiyaların cəlb olunması burada əsas hədəf olaraq nəzərdə tutulur. Belə bir iqtisadi zonanın yaradılması isə Azərbaycana tranzit ölkə olaraq öz imkanlarını genişləndirmək imkanı yaradır və ölkə ərazisinə daha çox yükdaşımaların artırılmasını şərtləndirir.

Ələt Azad İqtisadi Zonası dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, investisiyaların artımına, ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına, idxaldan asılılığın aradan qaldırılmasına, bir sözlə, Azərbaycan iqtisadiyyatının inkişafına da müsbət təsir göstərib.

Hesabat ilində respublikadan avtomobil nəqliyyatı ilə daşımalarda da müsbət dinamika müşahidə edilib. Bu dövrdə ölkə ərazisi ilə 4 milyon 927 min ton yük (2022-ci ilin müvafiq dövrünə nisbətən 10 faiz şox) daşınıb. Həmin yüklərin dəyəri 18 faizlik artımla 11 milyard 669 min dollara yüksəlib. Həmçinin keçən ilin 11 ayında avtomobil nəqliyyatı ilə ixracın dəyəri 1 milyard 643 milyon dollar (2,7 faiz artım), həcmi 1 milyon 837 min ton (7 faiz artım), idxalın dəyəri 9 milyard 357 milyon 411 min dollar (21 faiz artım), həcmi isə 3 milyon 90 min 543 (11,5 faiz artım) ton təşkil edib.

Görülən işlərin nəticəsi olaraq 2023-cü ilin yanvar–noyabr aylarında Azərbaycandan xarici ölkələrə dəmir yolu nəqliyyatı ilə dəyəri 3 milyard 246 milyon dollar (11 faiz çox) olan 7 milyon 250 min ton həcmində (5 faiz çox) yük daşınıb.

Hesabat dövründə dəmir yolu nəqliyyatı ilə ixrac yüklərinin həcmi 2 milyon 984 min ton (15 faiz çox), idxal yüklərinin həcmi 4 milyon 266 min ton (7 faiz çox), dəyəri isə 2 milyard 268 milyon dollar (7,5 faiz çox) təşkil edib.

Bütün bu rəqəmlər, eyni zamanda, onu göstərir ki, ötən illər ərzində respublikada nəzərdə tutulan bütün infrastruktur layihələri, sosial proqramlar yüksək səviyyədə reallaşdırılıb, o cümlədən sosial infrastrukturun mühüm sahələrindən sayılan yol təsərrüfatının yenidən qurulması, yeni yolların salınması, mövcud yolların isə əsaslı şəkildə təmiri ilə bağlı layihələr uğurla davam etdirilib. Yüklərin sürətli daşınması üçün yolların yenidən qurulması ilə yanaşı, “icazə” blanklarının verilməsi asanlaşdırılıb, elektron tərəzilərin sayı artırılıb, gömrük-keçid məntəqələrində əlverişli şərait yaradılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## İllik ixrac 34 milyard dollara yüksəlib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı “İxrac icmalı”nın yanvar sayına əsasən, 2023-cü ilin yanvar–dekabr ayları ərzində ölkəmizin ümumi ixracı 33,9 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib.**



“İxrac icmalı”na görə, 2023-cü ildə yeyinti məhsulları üzrə ixrac 928 milyon dollara bərabər olub. Həmin dövr ərzində elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3 faiz, qara metallardan məmulatların ixracı 13,3 faiz, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb.

Ötən il aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,2 faiz artaraq 969 milyon dollara çatıb. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan bu məhsulların yaratdığı dəyər ötən illə müqayisədə 3,2 faiz artaraq 201 milyon dollar təşkil edib.

2023-cü ilin dekabr ayının qeyri-neft ixracı 3,8 faiz artaraq 314 milyon dollar olub. Yeyinti məhsulları üzrə ixrac isə 0,9 faiz artımla 107 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 5,4 faiz artımla 208 milyon dollar təşkil edib.

## TAP xarici ölkələrə 31 milyard kubmetr qaz nəql edib

**Energetika naziri Pərviz Şahbazov “X“ hesabında paylaşım edərək bildirib ki, Azərbaycanın TAP vasitəsilə Avropaya qaz ixracına başlamasından üç il keçir. Ötən müddətdə TAP-la Avropaya 31 milyard kubmetrdən çox qaz nəql olunub. 2023-cü il Avropaya qısa və uzunmüddətli müqavilələr üzrə 11,8 milyard kubmetr qaz ixrac edilib.**




Xatırladaq ki, Cənub Qaz Dəhlizinin (CQD) Avropa hissəsi olan TAP vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə 1 milyard kubmetr həcmində qaz nəql olunur.

2020-ci il dekabr ayının 31-də Azərbaycan qazının CQD vasitəsilə Avropaya nəqli başladılıb. Ölkəmiz tarixində ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarıb. Dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan öz ixrac imkanlarını şaxələndirib.

## Mərkəzi Bankın valyuta ehtiyatları 30 faiz artıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, ötən il bu maliyyə qurumunun valyuta ehtiyatları 30 faizə yaxın artıb. Hesabat ilində AMB-nin valyuta ehtiyatları 11 milyard 613 milyon dollar təşkil edib.**



Məlumata görə, bu, ötən il dekabrın 1-i ilə müqayisədə 9,4 çoxdur. Ümumiyyətlə, adıçəkilən maliyyə qurumunun valyuta ehtiyatları son 1 ildə isə 29,1faiz artıb.

## Keçən il Azərbaycanın sığorta gəliri 1 milyard manatı ötüb

**2023-cü ildə Azərbaycanda sığorta yığımları 2022-ci ilin sonuna olan göstərici ilə müqayisədə 28 faiz artaraq ilk dəfə 1 milyard manatı ötüb.**




Bu barədə Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev “Nailiyyətlər və çağırışlar” mövzusunda keçirilən forumda çıxışı zamanı məlumat verib.

“Azərbaycanın ümumi daxili məhsulunda sığorta sektorunun payı 1 faiz təşkil edib. Sığorta bazarının peşəkar iştirakçıları olaraq bizim əsas məqsəd və vəzifəmiz mövcud, sabit və artan bazarın dayanıqlılığını təmin etməkdən ibarətdir. Mərkəzi Bank tərəfindən sığorta sektorunun inkişafı üçün keçirilən mühüm islahat bizə yaxın illərdə bu məqsədə nail olacağımızla bağlı əminlik verir”, – deyə o, qeyd edib.

***XQ***

**Ötən ilin uğurları**

# Ölkəmiz rəqəmsal və kosmik inkişafda da sürətlə ön mövqelər qazanır

## Bu sahədə 152 şirkət uğurla fəaliyyət göstərir

**Yola saldığımız 2023-cü il Azərbaycan iqtisadiyyatının bütün sahələri kimi, informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru üçün də yaddaqalan olub. İl ərzində “Onlayn Azərbaycan” layihəsi çərçivəsində regionlarda genişzolaqlı internetə çıxış imkanları xeyli artırılıb, ölkə üzrə genişzolaqlı internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi 60 faizə çatdırılıb. Cari ilin sonunadək isə bu rəqəmin 100 faizə çatdırılacağı proqnozlaşdırılır.**

Bu və digər məsələlər İKT sektoru üzrə hazırlanmış geniş icmalda öz əksini tapıb. Məlumatda qeyd olunur ki, 2023-cü ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) yanında İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi internet operatorlarını və provayderlərini, o cümlədən hostprovayderlərini uçota almağa başlayıb. Ötən müddətdə 152 şirkət uçota götürülüb. Hazırda bu proses davam edir.

Azərbaycanda getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq il ərzində RİNN İsrailin texnologiya üzrə ən nüfuzlu ali təhsil müəssisəsi “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib. Artıq 60-dan çox vətəndaş mərkəzin məzunu olub.

Ötən il Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliklə (“Azərkosmos”) “SpaceX” şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, ABŞ şirkətinin “Starlink” adlı genişzolaqlı peyk internet xidməti bu ildən Azərbaycan bazarına çıxarılacaq.

2023-cü ildə Azərbaycan 50 illik fasilədən sonra yenidən Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edib. Sayca 74-cü olan konqres zamanı müxtəlif ölkələrin rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, sənədlər imzalanib. Bu baxımdan “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peykinin (“Azersky-2”) hazırlanması üzrə əməkdaşlıq müqaviləsi xüsusi əhəmiyyət daşıyır. Müqaviləyə əsasən, peyk IAI-ın dəstəyi ilə Azərbaycanda yığılacaq. “Azersky-2” peykinin isə qısa müddətdə orbitə göndəriləcəyinə ümidlər böyükdür.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Dövlət Təhlükəsizlik Xidməti və RİNN birgə təşkilatçılığı ilə keçirilən “Critical Infrastructure Defence Challenge 2023” (CIDC-2023) tədbiri də ilin yaddaqalan hadisələrindən biri kimi diqqət çəkir.

Ötən ilin mühüm hadisələrindən biri də işğaldan azad olunmuş Laçın şəhərində “Azconnexus” platforması üzərindən internet xidməti təmin etmək məqsədilə ilk KA diapazonlu antena quraşdırılması ilə bağlı olub. Xatırladaq ki, bu antena adıçəkilən rayonda və bir sıra ətraf ərazilərdə yüksək sürətli internetə əlçatanlığı təmin edib. İl ərzində RİNN yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) “Digital.Azerbaijan” brendini təqdim etməklə ölkəmizin bu sahədə yön aldığı istiqaməti bir daha rəsmiləşdirib.

Yeri gəlmişkən, əvvəlki ildə görülmüş işlərin 2024-cü il üçün yaxşı zəmin yaratdığını bildirən “Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası” İctimai Birliyinin İdarə Heyətinin sədri Elvin Abbasov mətbuata açıqlamasında deyib ki, ötən ilin ən əhəmiyyətli hadisələrindən biri 3 il ərzində icrası nəzərdə tutulan, hamı üçün əlçatan internet layihəsinin ikinci ilinin uğurla yekunlaşmasıdır. Onun sözlərinə görə, layihə çərçivəsində ölkə əhalisinin 60 faizinin internetə əlçatanlığı təmin edilib. Bu il isə həmin rəqəmin 100 faizə çatdırılması planlaşdırılıb.



Azərbaycanda “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyalarının uğurla icrası da beynəlxalq reytinqlərdə ölkəmizin reputasiyasının və imicinin artmasına səbəb olub. Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyətə başlaması da ötən ilin ən mühüm hadisələrindən biridir. Belə ki, həm ölkəmizin kadr potensialının artırılması, həm də kibeməkanda müdafiənin möhkəmlənməsi baxımından mərkəzin yaradılması xüsusi əhəmiyyət kəsb edir. “Ümumilikdə götürsək, 2023-cü ilin İKT sektoru üçün əhəmiyyətli dövr olduğunu qeyd edə bilərəm. Hər gün dövlət xidmətlərinin daha da rəqəmsallaşdığının şahidi oluruq. Hesab edirəm ki, aparılan bu siyasət növbəti illərdə də davam edəcək və Azərbaycanın həm Cənubi Qafqazda, həm də Xəzər regionunda texnologiya habına çevrilməsi prosesi daha da sürətlənəcək. Bu gün bizim qarşımızda duran ən əsas məsələlərdən biri də məhz texnoloji məhsul ixracını artırmaq və bu sahədə dünyada öncül mövqeyə çıxmaqdan ibarətdir”, - deyə ekspert əlavə edib.

“Azərbaycan İnternet Forumu”nun Prezidenti, RİNN yanında İctimai Şuranın üzvü Osman Gündüz ötən il ölkəmizin İKT sektorunda baş vermiş əlamətdar və yaddaqalan hadisələrə diqqət çəkərək bildirib ki, işğaldan azad edilmiş ərazilərdə il ərzində Ermənistandan daxil olan informasiya, rabitə və internet trafikinin qarşısının alınması, bölgədə milli telekommunikasiya, televiziya və radio yayımı infrastrukturunun, dövlət şəbəkəsinin qurulması istiqamətində mühüm işlər həyata keçirilib. Onun dediyinə görə, Qarabağda qanunsuz fəaliyyət göstərən, beynəlxalq kodlar əldə edən “Karabakh Telecom” operatorunun 20 illik fəaliyyətinə son qoyulub ki, bu da ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır.

Ölkə üzrə genişzolaqlı internet şəbəkəsinin qurulmasını nəzərdə tutan “Onlayn Azərbaycan”la bağlı əldə olunan uğurlardan bəhs edən ekspert sözügedən layihə çərçivəsində son bir-iki ildə əvvəlki on illər ərzində olduğundan dəfələrlə çox işlər görüldüyünü bildirib. O.Gündüz onu da qeyd edib ki, ötən il Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi büdcədən heç bir vəsait almadan beynəlxalq qurumlardan əldə etdiyi kredit hesabına infrastrukturla bağlı nəhəng işlər görə bilib. Belə ki, il ərzində 1 milyonadək ev təsərrüfatına fiber optik internet bağlantısı qurulub. Fiber optik bağlantı qurulan məktəblərin sayı da əvvəlki illərdən dəfələrlə çox olub.

Ekspert ölkənin İKT sektorunda tənzimləyici funksiyanı yerinə yetirən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İnformasiya və Kommunikasiya Texnologiyaları Agentliyinin fəaliyyətə başlamasını, 5G ilə bağlı Dövlət Radiotezliklər İdarəsi ilə birgə müəyyən addımlar atmasını – televiziyaların istifadə etdiyi tezliyin 5G üçün ayrılmasını, 150 provayderi uçota cəlb etməsini, eləcə də internetin keyfiyyətinə nəzarət məqsədilə bütün provayderləri əhatə edən mərkəzləşmiş sistemin qurulmasını da ilin yaddaqalan hadisələri kimi dəyərləndirib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Mədəniyyət

# "Dəli Kür"ün poetik harayı...

**Azərbaycan Yazıçılar Birliyinin Qazax regional bölməsi 35 il əvvəl – 1989-cu ildə yaradılıb. Bölmənin ilk sədri tanınmış yazıçı Saday Budaqlı olub. 1993-cü ildən yerli yaradıcılıq qurumuna şair-publisist Barat Vüsal rəhbərlik edir.**



...Həmin il, Qarabağ münaqişəsinin ən qızğın vaxtında Azərbaycan Televiziyasına veriliş hazırlamaq üçün Qazaxa səfər etməyimizi xatırlayıram. Görkəmli yazıçı Vidadi Babanlı ilə yola çıxmışdıq. Erməni nankorluğundan qəzəblənmiş Vidadi müəllim Koroğlu ruhunda şeirlər yazmışdı və belə qərara gəlmişdik ki, Qazaxda hərbçilərimizlə görüş təşkil edilsin, o da həmin şeirlərini Vətən müdafiəçilərinin qarşısında oxusun. Görüşlər maraqlı alındı, əsgər və zabitlərimizin mübarizə ruhunun bir qədər də yüksəlməsinə vəsilə oldu. Vidadi Babanlıya qoşulub yağıları poetik dillə "qamçılayan" Barat Vüsalla da elə o zaman tanış olduq.

Ertəsi gün AYB Qazax bölməsi haqqında da veriliş çəkdik. Layiqincə davam etdirilən ədəbi ənənələrdən və yaradıcılıq perspektivlərindən söhbət açıldı, şeirlər oxundu. Bir sözlə, Qazaxa ezamiyyətdən iki maraqlı verilişlə qayıtdıq.

İndi – düz 35 il sonra Barat Vüsalla yenidən ünsiyyət qurduq. Dedi ki, həqiqətən də Qazaxda bədii sözün tarixi çox möhtəşəmdir. Məşhur el şairləri, həmçinin Vaqif və Vidadi, Abdulla bəy Divanbəyoğlu, Kazım ağa Salik, Hacıkərim Sanılı, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Mirvarid Dilbazi, Hüseyn Arif, Nəriman Həsənzadə, Tələt Əyyubov, Nüsrət Kəsəmənli, Yusif və Vaqif Səmədoğlular, Vaqif Nəsib və digərlərindən üzübelə Qazax ədəbi mühiti hər zaman bulaq kimi qaynayıb və Azərbaycan ədəbiyyatını zənginləşdirib.

AYB Qazax bölməsinin əhatə etdiyi Ağstafa, Tovuz və Gədəbəydə də ədəbi mühit qaynar olub, daim şaxələnib. Burada söz aləminin daha çox saz üstündə kökləndiyi şəksizdir. Elə buna görə də şairlərin bədii nümunələri kökə dərindən bağlılıqları, irfani yanaşmaları, şirin dili ilə könüllərə nüfuz edir, dillər əzbəri olur. Hazırda bölgədə yaşayıb-yaradan qələm sahibləri – bəlli imzalar ədəbi camedə yetərincə tanınırlar. Sələflərinin yolunu inamla davam etdirən yazarlar vaxtaşırı ədəbi orqanlarda, dövrü nəşrlərdə çap olunur, bir-birindən maraqlı kitablarını oxuculara ərməğan edirlər.

*Bir müqəddəs yazı itib,*
*Tapan gərək, izi itib,*
*Allahın bir sözü itib,*
*Şair o sözü axtarır.*

Bu misralar ötən ilin sonlarında nəşr olunmuş "Ayrılmaz yollar" kitabının müəllifi, Əməkdar incəsənət xadimi Barat Vüsala məxsusdur. Daha öncə onun "Göz aydınlığı", "Ürəyimdən bir çay axır", "Yolumuz eşqə bağlıdı", "Ömür bitər, yol bitməz", "Qazaxda yaşadım mən öz ömrümü", "Ruh gəmisi", "Kufə əhli", "Xətadı qeyri-eşq", "Piyada atlı" adlı kitabları da ədəbi tənqidin tədqirini qazanmışdı.

**Şairin yaradıcılığını akademik Nizami Cəfərov, Xalq şairi Nəriman Həsənzadə, tanınmış ədəbiyyatşünas Vaqif Yusifli yüksək dəyərləndiriblər. Barat Vüsal özü isə belə dedi:**

– Oljas Süleymenovun "Min bir söz" əsərində maraqlı bir fikir var, deyir ki, şair min bir söz deyir, fəqət, təzə söz min birinci sözdür. Bu mənada amalımız o sözü tapmaqdır. Ədəbiyyat üçün bircə mərkəz var ki, o da insan qəlbi, oxucu məhəbbətidir. Bizim bölməmiz də öz işini bu istiqamətdə qurub. Ənənəvi "Səməd Vurğun Poeziya Günləri"nin keçirilməsi bərpa olunub. İbrahim Göyçəlinin, Mehman Nəbilinin, Əvəz Sofuoğlunun, Məzahir Alıyevin və başqalarının yeni kitabları maraqla qarşılanıb. Son vaxtlarda Ələsgər Ələsgərov, Nuranə Təbriz (Qazax), Bəyaz Əliyeva, Arif Musayev (Ağstafa), Nazim Əhmədli (Tovuz), Eldar Abdulov (Gədəbəy) AYB üzvlüyünə qəbul ediliblər. İsa Muğannanın 95, Qabil Qasımlı və Tamella Poladlının 70, Saqif Qaratorpağın və Səhlədar Hidayətoğlunun 60 illik yubileyləri qeyd edilib. Daha 2 şairimiz Prezident mükafatına layiq görülüb.

Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ədəbiyyat Muzeyində "Bizdə şeir də var, sənət də vardır, şairə, sənətə hörmət də vardır" devizi altında möhtəşəm poeziya bayramı olub.

Ötən ilin iyulunda Vaqif Poeziya Günlərinin yenidən Qazaxdan başlanması ənənəsi bərpa olunub. Şəhid Murad Hacıyevə həsr olunmuş şeirlər və xatirələr kitabının təqdimatı keçirilib. 44 günlük Vətən müharibəsinə həsr edilmiş şeirlərdən ibarət "Zəfər nəğmələri" kitabı çapa hazırlanır. Toplu bizi qalib millət edən Baş Sərkərdəmizə minnətdarlıq duyğuları yazılmış bu kimi nümunələrlə zəngin olacaq:

*Kişi kişiliyi yaşadar canda,*
*Tarixdə kişilər qəhrəman olur.*
*Ocağın başında kişi duranda,*
*Torpağı qorumaq çox asan olur!*

Hazırda bölgənin ədəbi aləmində yazarlardan İsa Cavadoğlu, Saqif Qaratorpaq, Mustafa Rasimoğlu, Səhlədar Hidayətoğlu, Mübariz Qaragözlü, Məzahir Yaqub, Məzahir Alıyev, Bilal Qoca, Əli Cəfəroğlu, Aydın İbrahimoğlu, gənc şairlər Rüfət Axundlu və Nuranə Təbrizin yaradıcılığı uğurları tədqirələyiqdir.

Sözə məbəd kimi baxan bölgə yazarlarının əsərlərindən Aveydən, Göyəzəndən əsən küləklərin, "Damcılı bulağ"ın səsi, "Dəli Kür"ün harayı apaydın eşidilir...

***Əli NƏCƏFXANLI***
**XQ**

Baş Prokurorluğun açıqlaması

# "Respublika Perinatal Mərkəzi"ndə yanğının təqsirkarları kimlərdir?

**Yanvarın 9-da "Respublika Perinatal Mərkəzi" Publik Hüquqi Şəxsin inzibati binasında baş vermiş yanğınla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. İbtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.**




Baş Prokurorluğun mətbuat xidmətindən XQ-yə verilən məlumatda bildirilir ki, ilkin istintaq tədbirləri nəticəsində tibb müəssisəsinin 3 vəzifəli şəxsinin qanunsuz əməlləri ifşa edilib. Toplanmış sübutlarla mərkəzin direktoru Mehriban Abasquliyevanın müəssisədə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi işinin düzgün təşkil etməməsinə əsaslı şübhələr müəyyənləşdirilib. İstintaqla anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin müdiri Hamlet Mustafayev və dəstək xidmətləri şöbəsinin müdiri Elnur Əhmədlinin də yanğın təhlükəsizliyinin təmin edilməsinə dair qaydaları pozmalarına əsaslı şübhələr müəyyən edilib. Qeyd olunanlar nəticəsində elektrik xətlərində baş vermiş normadan artıq yüklənmədən törəyən yanğın otağa yayılıb, bununla da, 4 körpə ölüb və müəssisəyə ciddi əmlak ziyanı dəyib.

Açıqlamada qeyd edilir ki, iş üzrə Hamlet Mustafayev və Elnur Əhmədli Cinayət Məcəlləsinin 225.3-cü, Mehriban Abasquliyevaya isə həmin Məcəllənin 314.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilib, məhkəmənin qərarı əsasında hər 3 təqsirləndirilən şəxs barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırma növündə qətimkan tədbirləri seçilib. Yanğının baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**XQ**

# Uşaqların 8-i tam sağlam şəkildə evə yazılıb

**Hazırda müalicəsi davam etdirilən 50 uşaqdan 38-nin vəziyyəti stabil, 6-nın vəziyyəti orta ağır, digər 6-nın vəziyyəti isə qənaətbəxşdir.**

Bu barədə TƏBİB-dən verilən məlumatda bildirilir.

Bildirilib ki, Respublika Perinatal Mərkəzində baş vermiş yanğın nəticəsində TƏBİB-in tabeliyindəki digər tibb müəssisələrinə hospitalizasiya olunan yenidoğulmuşların, hamilə qadın və zahı anaların zəruri müayinə və müalicələri intensiv şəkildə klinik protokollara uyğun olaraq davam etdirilir.

Hər birinin vəziyyəti, müalicə və müayinəsi TƏBİB rəhbərliyinin, eləcə də tabeli tibb müəssisələrinin aparıcı mütəxəssislərinin nəzarətindədir.

Respublika Perinatal Mərkəzindən digər tibb müəssisələrinə hospitalizasiya olunmuş yenidoğulmuşlardan ümumilikdə 8-i bu gün tam sağlam şəkildə evə yazılıb.

Uşaqların müalicəsi Yeni Klinika, Mərkəzi Neftçilər Xəstəxanası, Kliniki Tibbi Mərkəz, Kliniki Tibbi Mərkəzin nəzdindəki Ə.Qarayev adına 2 saylı Uşaq Xəstəxanası, Sumqayıt Tibb Mərkəzinin nəzdindəki Perinatal Mərkəz, Respublika Klinik Xəstəxanası, Sabunçu Tibb Mərkəzi və Xətai Tibb Mərkəzində davam etdirilir.

Uşaqlardan 2-si (əkizlər) valideynlərinin istəyilə K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutuna köçürülüb.

**XQ**

# Azərbaycanlı alimin nüfuzlu Avropa mükafatı

**Türkiyədə yaşayan görkəmli azərbaycanlı alim və siyasi xadim, qardaş dövlətin Prezident Administrasiyasının təhlükəsizlik və xarici siyasət komissiyasının üzvü professor Aygün Attara 2024-cü ilin ilk günlərində ölkə daxilindən və Avropadan ikiqat mükafat xəbəri gəlib.**




Sayın Prof. Dr. Aygün Attar
Cumhurbaşkanlığı Güvenlik ve Dış Politikalar Kurulu Üyesi

Önemli sivil toplum örgütü önderleri tarafından desteklenen Yeni Arayışlar Girişimi Platformu Derneği'nin (YAPDER) organize ettiği, 6.Kadın Girişimcileri Destekleme Zirvesi ve Ödül Töreni için düğmeye basıldı.

Bu defa "Güçlü Kadınlar Güçlü Yarınlar" teması ile 9 Ocak 2024 Salı günü saat 14.30'da gerçekleşecek etkinlikte alanlarında başarı hikayesi yazan kadınlar çok önemli isimlerin yer aldığı jüri tarafından verilen ödüllerini alacak. Bu kapsamda Elite Wold Taksim Otel'de gerçekleşecek etkinlikte tarafınıza "Türk Dünyası Ödülü" kategorisinde ödül takdim edilmesi kararlaştırıldı. Jürinin gerekçeli kararı aşağıdadır.

Katılım bilginizi bekler, iyi çalışmalar dileriz.
Saygılarımızla,

Celal Toprak
YAPDER Başkanı

JÜRİNİN GEREKÇELİ KARARI:
Tek millet iki devlet politikası çerçevesinde son dönemde öne çıkan görüşün en önemli destekçilerinden biri oldunuz. Bu konuda somut adımların atılmasına önderlik yaptınız. Konuyla ilgili bütün sivil toplum örgütlerine destek verdiğiniz, görüş bildirdiniz. Özellikle Azerbaycan kalkınma projelerinin tanıtımına katkınız oldu. ve bütün bu çalışmalardan dolayı jüri "Türk Dünyası Ödülü"nü tarafınıza verilmesine uygun buldu.

İstanbulda 6-cı Qadın Sahibkarlara Dəstək Zirvəsinin "Güclü qadınlar, güclü sabahlar" mövzusunda keçiriləcək mərasimində mükafatlar Türk dünyasının ictimai-siyasi həyatında uğur qazanan qadınlara təqdim olunacaq. "Türk dünyası ödülü" kateqoriyasında təltifdə görkəmli azərbaycanlı professor Aygün Attarın da adı yer alır. Münsiflər heyətinin qərarında bildirilir ki, "Bir millət, iki dövlət" siyasəti çərçivəsində uğurlu addımlar atmış Aygün Attar Azərbaycanın inkişaf layihələrinin təbliğinə dəyərli töhfələr verib.

Avropa Beynəlxalq Diplomatlar Birliyi tərəfindən verilmiş digər nüfuzlu mükafat da Türkiyədə namizəd göstərilən professor Aygün Attara verilib. Avropanın mötəbər qurumlarından olan və 24 il əvvəl Avropa Şurasının məsul vitse-prezidenti Günter Verheugenin dəstəyi ilə avropalı diplomatlar tərəfindən yaradılan DWM Diplomatlar Assosiasiyası Avropa Şurası və Birləşmiş Millətlər ECOSOC tərəfindən akkreditə edilib, qərargahı Almaniyada yerləşir.

Avropa Beynəlxalq Diplomatlar Birliyinin qərarında bu fikirlər yer alıb: "30 ilə yaxın erməni işğalı altında qalan Qarabağda və Şərqi Zəngəzurda doğulmuş, məcburi köçə məruz qalmış bir ailənin övladı olan professor Aygün Attar "Beynəlxalq Sülh və Akademiya" mükafatına layiq görülüb. Çoxsaylı akademik araşdırmaları, iştirakçısı olduğu populyar televiziya proqramlarında çıxışları, ölkə daxilində və xaricdə təqdim etdiyi konfranslar vasitəsilə Türkiyə və Azərbaycanın Avropa coğrafiyasında tarixi, siyasi və mədəni baxımdan layiqincə tanıdılması istiqamətindəki səyləri, rəhbərlik etdiyi təşkilat vasitəsi ilə vətəndaş cəmiyyətinə göstərdiyi müstəsna xidmətlərinə görə, ictimai təşkilatlar vasitəsilə dünyada sülhün dəstəklənməsi və tolerantlığın təşviqi istiqamətində ciddi işlərə öncüllük etmiş, Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişafında körpü rolunu oynamış professor Aygün Attar beynəlxalq miqyasda – xaricdə, xüsusən də Avropada yaşayan soydaşları və nüfuzlu qeyri-hökumət təşkilatları ilə uğurlu mədəniyyət şəbəkəsi yaratdığına görə mükafat komissiyasının birgə qərarı ilə təltif edilir.

EBCA Avropa Biznes Klubu Assosiasiyası, DC Diplomatik Şurası, Ərəb-Türk İş Şurası, Enviro Kare, Lucas Nülle kimi beynəlxalq mötəbər qurum və təşkilatlarla əməkdaşlıq edən Avropa Beynəlxalq Diplomatlar Birliyinin mükafatlandırma mərasimi bu ilin mart ayında Almaniyanın Frankfurt şəhərində keçirilən beynəlxalq mərasimdə baş tutacaq.

**Sözardı:** Xatırladaq ki, professor Aygün Attar Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı ildə "Vətənə xidmət" ordeni, 2022-ci ildə "Dostluq" ordeni ilə təltif edilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərləri zamanı rəsmi nümayəndə heyətinin tərkibində olub. Təbrizli iş adamı ilə ailə həyatı quran və hər fürsətdə Təbriz gəlini olduğunu qürurla vurğulayan Aygün Attar üç övlad anasıdır, bir nəvəsi də var.

Əslən Şərqi Zəngəzurdan olan Aygün Attar Bakı Dövlət Universitetini bitirib, Rusiya Elmlər Akademiyasında doktorluq dissertasiyasını uğurla müdafiə edib. Ömrünün 30 ilindən çoxunu Türkiyədə yaşayan soydaşımız 2012–2016-cı illərdə Girəsun Universitetinin rektoru olub. Ermənilərin Azərbaycan və Anadolu türklərinə qarşı törətdiyi soyqırımlara həsr olunmuş çoxsaylı kitabların, silsilə məqalələrin müəllifidir. İki kitabı dərs vəsaiti kimi tədris edilir.

Nüfuzlu ictimai-siyasi xadim olan professor Aygün Attar Türkiyəyə, Azərbaycana qarşı qərəzli fəaliyyət göstərən erməni lobbisi və onun uzantılarıyla illərdir yorulmadan mübarizə aparır. O, Türkiyə Böyük Millət Məclisində türk düşmənliyi fəaliyyəti ilə tanınan erməni əsilli Karo Paylanın deputat mandatının huquq çərçivəsində ləğvinə, Qarabağ məsələsində Ermənistanın ədalətsiz mövqeyini müdafiə edərək Azərbaycanı ittiham edən HDP sədri Səlahaddin Dəmirtaşın Vətənə xəyanətdə suclanmasına və haqqında cinayət işinin başladılmasına nail olub.

ATƏT-in beynəlxalq müşahidəçisi statusunu daşıyan Aygün Attarın son parlament seçkilərində ATƏT-in Azərbaycana qarşı yönəlmiş qərəzli və haqsız mövqeyini tənqid etməkdən çəkinməyib, haqlı etirazı ilə bu nüfuzlu beynəlxalq təşkilata ciddi tarixi "dərs verib".

Professor Aygün Attar elmi yaradıcılıqla bərabər, diaspor fəaliyyəti ilə də davamlı məşğul olur. 2021-ci ildən Türkiyə Prezident Administrasiyasının təhlükəsizlik və xarici siyasət komissiyasının üzvü, 2019-cu ildən Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun sədridir. Bilkənd Universitetinin qurucusu, professor İhsan Doğramacının 1997-ci ildə təsis etdiyi Fondun ölkələrimiz arasında əlaqələrinin inkişafında xüsusi yeri var. Ümummilli lider Heydər Əliyevin professor İhsan Doğramacı ilə səmimi dostluq münasibətləri fondun qısa müddətdə tanınmasına, inkişafına və nüfuz qazanmasına böyük təsir göstərib.

Bu ənənə bu gün də uğurla davam etdirilməkdədir və hazırda professor Aygün Attarın rəhbərlik etdiyi fond ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamından qaynaqlanan tarixi missiyanın həyata keçirilməsində çox əhəmiyyətli işlər görməkdədir.

**XQ**

# Naxçıvanda beynəlxalq şahmat turniri

**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş beynəlxalq reytinqli şahmat turnirinə start verilib. Beynəlxalq Şahmat Federasiyasının təqviminə daxil olan yarış Azərbaycan Şahmat Federasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilir.**



Turnirin açılışında Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov və təhsil nazirinin müavini Ovni Muradov beynəlxalq yarışın qədim diyarda təşkilinin önəmini qeyd edərək iştirakçılara uğurlar arzulayıblar. Sonra yarışın baş hakimi, beynəlxalq dərəcəli hakim, qadınlardan ibarət milli komandamızın baş məşqçisi Fikrət Sideifzadə yarışın ölkənin nüfuzlu şahmat regionu olan Naxçıvanda keçirilməsindən məmnunluğunu ifadə edib, turnirlə bağlı məlumatları diqqətə çatdırıb.

İsveçrə sistemi üzrə 9 turdan ibarət turnirə 63 şahmatçı qatılıb. Yarışda qrossmeyster Zeynəb Məmmədyarova, Fariz Əhmədov, Türkiyədən Efe Kul Özdəmir, respublikanın müxtəlif regionlarından şahmatçılar iştirak edirlər. Yarış yanvarın 15-də yekunlaşacaq, nəticələr beynəlxalq reytinq hesablamaları üçün FIDE-yə göndəriləcək.

**Səbuhi HƏSƏNOV**

# Yunanıstan ermənipərəst çağırışlara son qoymalıdır

**Qərbi Azərbaycan İcması Yunanıstanın xarici işlər nazirinin İrəvanda ölkəmiz əleyhinə səsləndirdiyi əsassız və böhrançı ittihamları cavablandırıb. İcmadan XQ-yə daxil olan sənəddə deyilir:**

"Yunanıstanın xarici işlər naziri İrəvanda ölkəsinin "Qarabağda xristian ocaqlarının qorunması və onlara dəymiş ziyanın müəyyənləşdirilməsi məqsədilə Avropa İttifaqı və UNESCO çərçivəsində kampaniyaya start verəcəyi"ni bildirmişdir. Yunan nazirin bu açıqlamalarını rəsmi Afinanın Azərbaycanın suverenliyinə qarşı açıq-aşkar hörmətsizliyi və onun daxili işlərinə kobud müdaxiləsi kimi qiymətləndiririk".

Açıqlamada qeyd edilir ki, Yunanıstan məsələlərə etnik və dini təəssübkeşlik prizmasından baxmamalı, Azərbaycana qarşı təxribatçı addımlar atmamalıdır. Bu ölkə Ermənistandan Azərbaycan xalqının mədəni irsini məhv və təhrif etməməyi, UNESCO-nun faktaraşdırıcı missiyasının səfərinə imkan verməyi tələb etməlidir.

**XQ**

BEYNƏLXALQ HƏYAT

# Ekvador mafiyası yeni prezidentə savaş açıb?




**Ekvador mafiyası Prezident Daniel Noboanın elan etdiyi fövqəladə vəziyyətə etiraz olaraq bütün ölkədə iğtişaşlar və toqquşmalar törədir. Narkokartelin qanqsterləri canlı verilişlərin getdiyi televiziya kanalını ələ keçirərək, jurnalistləri və bir neçə polis əməkdaşını girov götürüblər. Ekvador həbsxanalarının bir çoxunda da iğtişaşlar baş qaldırıb.**

Ötən ilin oktyabrında Ekvadorda keçirilən prezident seçkilərində qalib gələn Daniel Noboa ölkəni bürüyən cinayətlər dalğasını cilovlamağa söz vermişdi. Vədini yerinə yetirmək üçün Noboa 2024-cü ilin ikinci həftəsi çərşənbə axşamı günü Ekvadorun 22 mafiya qrupunu "terror təşkilatları" adlandıraraq, ölkəsinin daxili silahlı qarşıdurma içərisində olduğunu açıqlayıb.

Cinayətkarlarla mübarizəni gücləndirmək məqsədilə Noboa ölkə ərazisində 60 günlük fövqəladə vəziyyət elan edib. Fövqəladə vəziyyət rejimi, xüsusilə, polis və hərbçilərə geniş səlahiyyətlər verir, ölkədə ictimai toplantıları qadağan edir və hər gün gecə 23:00-dan səhər 5:00-a qədər komendant saatı müəyyənləşdirir. Cinayətkarların açıq iğtişaşlara və zorakılıqlara əl atmasına səbəb də məhz fövqəladə vəziyyətin elan edilməsi olub.

Yanvarın 7-də mafioz qruplaşmalardan birinin – "Los-Çoneros"un lideri "Fito" ləqəbli Adolfo Masias həbsxanadan yoxa çıxıb. Onun harada gizləndiyini ölkənin xüsusi xidmət orqanları müəyyənləşdirə bilmirlər. Hələ 2023-cü ilin avqustunda cinayətkar qruplaşmalar tərəfindən terrora məruz qalan Ekvador prezidentliyinə namizəd Fernando Vilyavisenso ölümündən əvvəl məhz "Fito"nun ölkə üçün təhlükə olacağını bildirmişdi.

Ekvadordakı sosial media istifadəçiləri çərşənbə axşamı küçələrdə silahlı quldurların zorakılıqlarının, yandırılan avtomobillərin və hətta partlayışların video və fotolarını yayımlayıblar. Baş verənlərdən aydın olur ki, zorakılıqlar açıq-aydın hökuməti qorxutmaq məqsədi daşıyır. Bir çox yerlərdə onlara qoşulanlar şəhərlərdə xaos yaratmaq üçün insanları silahla hədələyir və qarətlər törədirlər. Kito rayonunda qarət halları qeydə alındıqdan dərhal sonra paytaxtın mərkəzinə hərbi texnika yeridilib. Dünən səhər hava limanında təhlükəsizlik tədbirləri gücləndirilib. Ölkənin bütün təhsil müəssisələri distant təhsilə keçib.

Yanvarın 9-da Quayakildeki "TC Televisin" telekanalının studiyasına silahlı şəxslər hücum edərək canlı efirdə aparıcıları və texniki heyəti girov götürüblər. Bir müddət sonra hücum edənləri həbs etmək və girovları azad etmək mümkün olub.

Dünən günün birinci yarısına olan məlumata görə, quldur dəstələri altıya yaxın həbsxanada ən azından 139 mühafizəçini və əməkdaşı girov saxlayıblar. Yanvarın 10-da bəlli olub ki, "Los-Lobos" mafiyasının başçısı Fabrisio Kolon Piko da 39 məhbusla birlikdə Riobamba şəhərindəki həbsxanadan qaçıb. "Los-Lobos" qruplaşması prezidentliyə namizəd Fernando Vilyavisensonun qətlini öz üzərinə götürüb.

Bütün bunlara baxmayaraq, prezident Noboa bəyan edib ki, "terrorçulara heç bir danışıqlara getməyəcək" və "ekvadorluların əmin-amanlığı təmin olunmayana qədər sakitləşməyəcək". Dövlət başçısı fərmanında Ekvadordakı cinayətkar dəstələrin məhv edilməsinə əmr verib.

Bundan sonra Ekvadorun Silahlı Qüvvələri cinayətkar dəstələri qanuni hərbi hədəf elan edib, ölkə parlamenti isə güc strukturlarının əməkdaşlarına səlahiyyətləri aşmalarına görə amnistiya verəcəyini bildirib.

Ekvadorda baş verənlərə ilk reaksiya Latın Amerikası ölkələrindən gəlib. Perunun daxili işlər naziri Viktor Torres Falkon göstəriş verib ki, dərhal Ekvadorla sərhədə əlavə polis qüvvələri göndərilsin ki, qonşu ölkədə mafioz qruplaşmaların törətdikləri cinayətkarlar Peruya adlamasın.

Bununla yanaşı, Peru hökuməti baş verən zorakılıqları qətiyyətlə pisləyib və Prezident Noboanı tam dəstəklədiyini bəyan edib. Paraqvay hökuməti də Ekvador hökuməti ilə həmrəy olduğunu rəsmən açıqlayıb. Argentina Ekvadorun güc strukturlarına kömək göndərməyə hazır olduğunu bildirib. Boliviyanın prezidenti narkoticarətlə mübarizə üçün səyləri birləşdirməyə çağırıb. Braziliya vəziyyətdən narahat olduğunu bildirib.

**Sual oluna bilər ki, 15–20 il əvvəl əmin-amanlığın hökm sürdüyü Ekvadorda zorakılığın və cinayətkarlığın baş qaldırmasına səbəb nədir?**

Ekvador uzun müddət iki böyük kokain istehsalçısı olan və müvafiq problemlər yaşayan Kolumbiya və Peru arasında yerləşən nisbətən sakit bir məkan olub. Amma son illərdə bu ölkədə də həm özlərinin, həm də Kolumbiya, Peru və alban narkomafiya qrupları güclənməyə başlayıb.

Ekvadorda qətllərin sayı 2018–2022-ci illər arasında dörd dəfə artıb. 2022-ci ildə 17 milyonluq ölkədə 7800 adam öldürülüb. Həmin il polis rekord həddə – 220 ton narkotik maddə ələ keçirib. Ölkənin həbsxanalarındakı qanlı döyüşlər ayrıca problemə çevrilib: 2021-ci ilin fevralından bəri 460-dan çox məhbus öldürülüb.

Britaniyanın "Financial Times" qəzetinin qeyd etdiyi kimi, mafiya Ekvadorda 2007–2017-ci illərdə hakimiyyətdə olan solçu prezident Rafael Korreanın dövründə çiçəklənməyə başlayıb. Onun rəhbərliyi altında hakimiyyət Sakit Okeandakı Ekvador limanları vasitəsilə narkotika ticarətinə göz yumaraq, ölkədə, əsasən, daha az ağır cinayətlərin olmasını təmin etməklə məşğul olmuşdur. Lakin narkotik qaçaqmalçılığın ardınca ölkədə quldurluq əl-qol açmağa başladı və Korreanın varisləri artıq bunun öhdəsindən gələ bilmədilər. Nəticə göz qabağındadır.

*Hazırladı:*
***İLQAR***
***XQ***

İDMAN

# MOK-un idman TV festivalında nominasiyalar artır

**Yanvarın 10-da Milli Olimpiya Komitəsinin təsis etdiyi "İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı" ilə bağlı münsiflər heyətinin təqdimatı və mətbuat konfransı keçirilib.**



Tədbirdə əvvəlcə festivalın rəsmi tanıtım çarxı təqdim olunub. Sonra festivalın münsiflər heyətinin üzvləri–Olimpiya çempionu, MOK-un vitse-prezidenti Zemfira Meftahətdinova (sədr), Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, rejissor, ssenarist Oleq Səfərəliyev, "Vətən" Uşaq Yaradıcılıq Mərkəzinin təsisçisi Zəhra Quliyeva, "Bakılı oğlanlar" komandasının üzvü, rejissor və prodüser Ənvər Mansurov, Əməkdar jurnalist Xanlar Məmmədov KİV nümayəndələrinə təqdim olunub.

Festivalın baş prodüsseri, Avrasiya Televiziya və Radio Akademiyasının akademiki Arzu Qulamov layihənin ikinci dəfə həyata keçirildiyini deyib. Bildirib ki, əvvəlki festivala 70 layihə təqdim olunmuşdu və 4 nominasiya üzrə 40 layihə gündəliyə salınmışdı. Bu ildən festivala ictimai qurumlar və özəl şirkətlər də maraq göstərir. İndiyədək artıq 15–20 layihə təqdim edilib. 5 nominasiya üzrə keçiriləcək festivalda qaliblər "Oskar" sistemi ilə müəyyənləşəcək. İki nominasiya qadın idmançılara həsr edilib. Bunlar "Zərif qəhrəman", uşaq və yeniyetmələrə bağlı "Gələcəyin qalibləri" nominasiyasıdır.

Zemfira Meftahətdinova layihənin ölkəmizdə idmanın inkişafına, Olimpiya Hərəkatının təbliğinə böyük töhfələr verəcəyini bildirib. O, qadın idmanına da budəfəki layihədə yer ayrılmasının sevindirici hal olduğunu diqqətə çatdırıb.

Münsiflər heyətinin digər üzvləri Oleq Səfərəliyev, Ənvər Mansurov və Zəhra Quliyeva çıxış edərək festivalın uğurlu olacağına inandıqlarını bildiriblər.

**Mətbuat konfransından sonra jurnalistlərə müsahibə verən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ilk layihənin MOK-un 30 illik yubileyinə həsr olunduğunu deyib. O bildirib ki, layihənin uğurlu alınması növbəti festivalların təşkili üçün şərait yaradıb:**

– Festival iki ildən bir təşkil ediləcək. Çünki qısa müddət ərzində çox material ərsəyə gətirmək çətindir. MOK hər zaman Olimpiya idman növlərinin inkişafı üçün çalışıb. Məqsəd bu sahədə təbliğatı daha da artırmaq, həmçinin telekanallar və federasiyaların bu işdə fəal iştirakı üçün motivasiya yaratmaqdır.

Qeyd edək ki, layihə çərçivəsində müəyyən olunmuş nominasiyalar üzrə ən yaxşı işlər seçilərək qaliblər müəyyən ediləcək.

***L.QURBANOVA***
***XQ***

Təqvim yada salır

# 10 ildir ki, yerin görünür, Vüqar

**Düz 10 il əvvəl, 2014-cü il yanvarın 11-də acı bir xəbər bütün şahmat aləmini dərindən sarsıtdı. Parlaq zəka sahibi, Azərbaycan milli komandasının ilk dəfə Avropa çempionu adı qazanmasında mühüm rol oynamış qrossmeyster Vüqar Qasım oğlu Həşimov istedadının çiçəkləndiyi bir vaxtda, cəmi 27 yaşında müalicə olunduğu Almaniya klinikalarından birində vəfat etmişdi. Təkcə Azərbaycan xalqı üçün deyil, dünya şahmatı üçün ağır itki idi. Qədim və müdrik oyunda onun yüksək ustalığı daha gözəl gələcək vəd edirdi.**



Planetin hər yerində V. Həşimovun adı şahmat pərəstişkarlarına yaxşı tanışdır. Həmvətənimiz təkcə ağır görüşlərdə dəqiq gedişləri ilə yox, həm də səmimiyyəti, yüksək insani keyfiyyətləri ilə hamının rəğbətini qazanmışdı. Dəfələrlə dünya çempionu, ən məşhur qrossmeysterlərin reytinq siyahısının zirvəsində inamla irəliləməkdə davam edən norveçli Maqnus Karlsen başda olmaqla bir-birindən mahir ustalar Vüqar və onun oyunu, istedadı haqqında olduqca xoş fikirlər söyləmişlər. Qüdrətli zəka sahibləri və şahmat pərəstişkarları parlaq ustalığı ilə onlara çoxlu fərəhli anlar yaşatmış sevimlilərini heç vaxt unutmurlar.

Hər dəfə Vüqar Həşimov haqqında danışanda, onun şahmatda keçdiyi yolu, qələbələri xatırlayanda dərhal 2009-cu ilin payızında Serbiyanın Novi Sad şəhərində keçirilmiş Avropa çempionatı yada düşür. Qitənin ən yaxşı komandalarının kəskin rəqabətində ən yüksək nəticəni məhz bizim heyət – Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Vüqar Həşimov, Rauf Məmmədov və Qədir Hüseynovdan ibarət Azərbaycan millisi göstərmişdi.

Çempionatın sonuncu, doqquzuncu turunda yığmamız qızıl medalların taleyini öz xeyrinə həll etmək üçün Hollandiya komandasına qalib gəlməli idi. Məmmədyarov, Rəcəbov və Məmmədov öz görüşlərini heç-heçə başa çatdırdıqdan sonra bütün nəzərlər Həşimova dikilmişdi. Əgər o, ikinci taxtada Daniel Stelvagenə qalib gəlməyi bacarsaydı, millimiz matçda 2,5:1,5 hesabı ilə qələbə qazanıb, fəxri kürsünün zirvəsində çempionluğunu bayram edəcəkdi.

Belə də oldu! Həlledici görüşdə məhz Vüqarın qələbəsi sayəsində Azərbaycan komandası bütün rəqiblərini, o cümlədən Rusiya, Ukrayna, Almaniya, Fransa, Ermənistan, Polşa və Macarıstanı geridə qoyub, respublikamızda bu növün bütün inkişaf tarixi ərzində ilk dəfə Avropa çempionu adını qazandı. Tarixə qızıl hərflərlə yazılan böyük zəfər, böyük xoşbəxtlik idi!

Şahmat mütəxəssisləri belə bir fikir söyləyirlər ki, mötəbər komanda yarışlarında, Avropa və dünya çempionatlarında, Ümumdünya olimpiadalarında çempion olmaq üçün komandanın heyətində yüksək səviyyəli oyun nümayiş etdirən üç lider olmalıdır. O illərin Azərbaycan millisindəki Məmmədyarov–Rəcəbov–Həşimov kimi üçlük. Çox təəssüf ki, həyatın gözlənilməz gedişi hər şeyi alt-üst etdi.

Əvvəllər Vüqar haqqında yazılarımızda Azərbaycan şahmatının üç mahir ustasını ötən əsrin yetmiş–səksəninci illərində futbolumuzun "qrossmeysterləri" olmuş Maşallah Əhmədov–İqor Ponomaryov–İsgəndər Cavadov üçlüyü ilə müqayisə etmişdik. Həqiqətən, hər iki üçlük öz komandasında əsas zərbə qüvvəsi idi.

Beləcə, illər ötür, şahmat dünyasında nəsillər dəyişir, bu oyunun ustaları müxtəlif səbəblərdən onunla vidalaşmalı olurlar. Lakin xeyirxah şahmat aləmi onları unutmur. Bakı ilə yanaşı, Moskva, Pekin, Paris, İstanbul, Novi Sad, Roma, Varşava, Sofiya, Praqa və daha neçə-neçə şəhərdə böyük rəğbət qazanmış V. Həşimov da xatirələrdə əbədi yaşayır. O, təkcə Azərbaycan idmanında deyil, beynəlxalq şahmat dairələrində yüksək nüfuz sahibi idi.

Artıq səkkizinci ildir ki, Bakıda fəaliyyət göstərən Vüqar Həşimov Şahmat Akademiyası da dünya şöhrətli həmvətənimizin Azərbaycanda şahmatın inkişafındakı xidmətlərinə verilən yüksək dəyərin təzahürüdür. Açılış mərasimi 2016-cı ildə olmuş akademiya, eləcə də, onun yerlərdəki filialları müxtəlif layihələr həyata keçirməklə respublikamızda zəngin ənənələri olan qədim oyunun daha da inkişafına öz töhfələrini verir.

Görkəmli qrossmeysterin vəfatından ötən 10 il ərzində ölkəmizdə onun xatirəsinə həsr edilən mötəbər beynəlxalq turnirlər keçirilməsi, getdikcə bu görüşlərə marağın daha da artması, planetin məşhur zəka sahiblərinin Bakı, Şəmkir, Şuşa və ötən ilin sonlarında Qəbələdə təşkil edilmiş turnirlərdə məmnuniyyətlə iştirak etmələri Vüqar Həşimovun unudulmaz xatirəsinə dərin hörmət və ehtiramın ifadəsidir.

Onu da xatırladaq ki, Qəbələdə keçirilmiş və hindistanlı Santoş Viditin qələbəsi ilə başa çatmış turnir xatirə yarışlarının tarixində sayca doqquzuncu olmuşdur. Əvvəlki səkkiz turnirdən isə dördündə Karlsen qalib gəlmiş, ikisində Məmmədyarov finişə birinci çatmış, daha ikisində Fabiano Karuana (ABŞ) və Nodirbek Abdusattarov (Özbəkistan) qələbə qazanmışlar.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə tələb olunan dəftərxana və ofis ləvazimatlarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 22-si saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1162

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələr və gəmilər üçün müxtəlif növ nəzarət və ölçü cihazlarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 17-si saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.

Ünvan: Bakı, AZ1003, M.Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 004 (30408) 11 yanvar 2024-cü il, cümə axşamı

# Bakıda qarışıq döyüş salonu

**Heydər Əliyev adına İdman-Konsert Kompleksində MMA (Qarışıq Döyüş Sənəti) zalı istifadəyə verilib.**



Azərbaycan Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "XQ"yə bildiriblər ki, açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov iştirak edib.

Nazir idman zalına baxış zamanı buradakı şəraitlə tanış olub, mütəxəssislərlə fikir mübadiləsi aparıb və tövsiyələr verib.

# Cüdoçularımızın Olimpiya reytinqi

**Beynəlxalq Cüdo Federasiyası Olimpiya reytinq cədvəlini yeniləyib.**




Komandamızın 12 üzvünün yer aldığı siyahıda ən yüksək nəticə Hidayət Heydərova (73 kiloqram) məxsusdur. Cüdoçumuz öz çəki dərəcəsi üzrə liderdir.

Komandamızın üzvlərindən Zelim Kotsoyev (100 kq) 2-ci, Balabəy Ağayev (60 kq) və Səid Mollayi (81 kq) 5-ci, Yaşar Nəcəfov (66 kq) 7-ci, Zelim Tçkayev (81 kq) 9-cu, Murad Fətiyev (90 kq) 10-cu, Uşangi Kokauri (+100 kq) 11-ci, Turan Bayramov (60 kq) 20-ci pilləni tuturlar.

Qadın cüdoçulardan isə Leyla Əliyeva (48 kq) və Gültac Məmmədəliyeva (52 kq) öz çəkilərində 16-cı, Açelya Toprak isə (57 kq) otuz altıncı sıradadırlar.

12 idmançıdan 11-nin hazırkı mövqeyi Paris Olimpiadasına lisenziya imkanı verir. Acelya Toprak isə kontinental kvota əsasında Olimpiadada iştirak hüququ qazana bilər.

# Həndbol hakimlərimiz Avropa arenasında

**Azərbaycanın beynəlxalq dərəcəli hakimləri Ernest və Emil Ağakişi qardaşları Avropa Həndbol Federasiyasından yeni təyinat alıblar.**



Ədalət təmsilçilərimiz qadınlar arasında Avropa Kubokunun 1/8 final mərhələsində Şimali Makedoniyanın "Jorçe Petrov" və Çexiyanın "Hazena Kinzvart" komandaları arasında keçiriləcək oyunlarda hakimlik edəcəklər. Oyun yanvarın 13-də Skopye şəhərində keçiriləcək.

*Leyla SABİRQIZI*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Kosmos

# Veneranın parlaq izləri

***Venera fəzada hərəkəti zamanı bir çox mərhələlərdən keçir. Ay planeti kimi, o da tam dairəvi disk, nazik aypara kimi görünə bilər. Günəşin doğmasından əvvəl "Zöhrə ulduzu" səmada ən parlaq obyekt sayılır.***



Bununla belə, Venera o qədər kiçik görünür ki, onu aydın görmək üçün teleskop tələb olunur. Təqdim olunan "time-lapse" (kameranın fiksasiyaları-red.) ardıcıllığı 2015-ci ildə 6 ay ərzində Fransa ərazisindən çəkilib və təkcə Veneranın fazasının necə dəyişdiyini deyil, həm də bucaq ölçülərini göstərir.

Qeyd edək ki, Venera və Yer Günəşin eyni tərəfində olduqda, o, daha böyük, lakin dairəvi yox, aypara şəklində görünür. Bu o deməkdir ki, Venera sübhdən əvvəl həmin fazalarda qərar tutub.

*Ayan SƏMƏDQIZI,*
*tələbə-jurnalist*

Mərhəmət

# İt demə...

**Bir neçə ilin söhbətidir. Həyət qapısının girəcəyində hər gün bir it görürdüm. Səhər işə gedəndə də, axşam gələndə də baxırdım ki, sakitcə oturub, elə bil, kimisə gözləyir.**



Bu səhnə mənə Riçard Girin məşhur "Hatiko" filmini xatırladırdı. Hər səhər işə gedəndə qızımla gülümsəyib yanından keçirdik. İt də, elə bil, bizim ona sevgimizi duymuşdu, "utancaq qız" kimi başını aşağı salırdı.

Bir gün gördük ki, "Hatiko"muzun başı yaman qarışıb. Özü kimi balaca, yaraşıqlı bir ağ itlə atılıb-düşür, oynaqlaşırdı. Həmin anlar it, bəlkə də, dünyanın ən xoşbəxt canlısı idi. Qızıma dedim ki, "Hatiko"nun gözlədiyi gəlib çıxıb, deyəsən, daha tək deyil, darıxmayacaq. İt "dostu" ilə oyunundan bir anlıq ayrılıb, bizə ani bir nəzər salıb sonra qayıtdı öz bəxtəvər aləminə.

Qınamayın məni, elə bil, it dedi ki, sizi də görürəm, unutmamışam, amma bu anlar: "mən çox xoşbəxtəm". Gətirdiyimiz çörəyi bu dəfə ikisinin arasına qoyub getdik. Beləcə, bir neçə gün də xoşbəxtliyinə şahidlik etdik.

Səhər-axşam bu cütlüyün yanından keçəndə sevinclərinə şərik olurduq. Bir gün işdən qayıdanda itləri görmədim. Qızım məktəbdən evə məndən əvvəl gəlmişdi, "Hatiko"nu soruşdu: Dedim ki, həyətdə yox idi.

Səhəri gün də bir-birimizdən "Hatiko"nu xəbər aldıq. Üçüncü gün evə qayıdanda qızımın ağlamaqdan gözlərinin şişdiyini gördüm. Məni görüb daha da kövrəldi:

– Ana, insanlar "Hatiko" ilə dostunu öldürüblər. Yazıq it onlara neynəyirdi ki...

Qızımın sualları qarşısında aciz qalmışdım. Dedim:

– Yəqin zibillikdən zəhərləniblər, ya da quduzluqları varmış, biz bilməmişik. İnsanlar öldürməz!

Qəlbimdə özüm cavabımın saxtalığından utandım...

Bu günlərdə rastlaşdığım təsadüfi olay həmin hadisəni yenidən mənə xatırlatdı. "Gənclik" massivində yolumun üstündə qarşıma bir it çıxdı. Yağışlı gün idi. İslanmış itin acından yeriməyə taqəti yox idi.

İşıqforda dayanmışdım, it maşının qabağına sürtünərək əks tərəfə keçirdi, yaşıl işıq yansa da, gözlədim. Sonra it əks tərəfdən gələn maşının qarşısına keçdi. Sürücü qadın idi, maşını saxlayıb itin qarşısında çökdü, sığalladı onu.

Ürəyimdən keçdi ki, kaş, əlimdə ona verməyə bir şey olaydı. Deyəsən, qadının da fikrindən mənim düşündüklərim keçmişdi. Maşını kənara çəkib saxladı, içəridən əlində kağıza bükülmüş nə isə çıxardı və iti yemləməyə başladı.

Maşını sürüb getdim, amma gözdən itənə qədər bu səhnəni güzgüdən seyr etdim. Əli Kərim demiş, daha heç nə demirəm, nöqtə, nöqtə və nöqtə...

*R.QURBANLI*
*XQ*

Maraq dünyamız

# Disneyin 29 "Oskar"ı

***"Disneyland" əyləncə parkının qurucusu Uolt Disney ilk "Oskar" mükafatını 1932-ci ildə "Ağılsız simfoniyalar" cizgi filminə görə alıb. Bu mükafat onun 29 "Oskar"ından birincisi idi. Bu rekord bugünədək yenilənməyib.***



U.Disneyin ən böyük fəaliyyətlərindən biri uşaqlar üçün nəzərdə tutulan "Disneyland" parkı olub. Kaliforniyadakı parkda sənətkarın filmlərində yer alan personajlar var. Bura 1955-ci ildən açılıb.

Disneyin varisləri hazırda zəngin insanlardır. Bu ailəyə dünyanın müxtəlif şəhərlərindəki 535 mağaza, həmçinin xokkey və beysbol komandaları, telekanallar məxsusdur. Bundan başqa, Yaponiya, Çin və Fransada yerləşən əyləncə parklarından da mənfəət qazanırlar.

Disney 1966-cı il dekabrın 15-də dünyasını dəyişib. O vaxtdan bugünə kimi həmin tarixdə "Disneyland" məkanlarında mərhumun şərəfinə bayraqlar endirilir.

*P.ƏFƏNDİ*
*XQ*

Sağlamlıq

# Qaraciyər – qoyma yığılsın zəhər



***Professor Olqa Şişova bu günlərdə qaraciyərdə yaranan problemləri açıqlayıb. Bildirib ki, Yeni il şənliklərində yemək və içki çoxluğundan qaraciyər yüklənir.***

Həkim bildirib ki, qaraciyərin yükləndiyini daimi yorğunluq, iştahın itməsi, sağ tərəfdə qabırğa altında ağrı, dərinin saralması, qəbizlik, ağızda acılıq, ayaq və dizlərdə narahatlıq, ürəkbulanma, dəridə səpkilər kimi əlamətlər bildirir. Həmin siqnallar istənilən an bu orqanda pozulma ola biləcəyini göstərir.

Qaraciyərin sağlamlığını qorumaq üçün düzgün, az və faydalı qidalanmaq, alkoqol və yağlı qidadan imtina etmək, toksinlərdən – pestisid, rəng, sənaye maddələri, kimyəvi maddələr, həllecilərdən uzaq durmaq lazımdır. Zərərli peşədə işləyənlər müdafiə geyimində və maskada olmalıdır.

Bundan başqa, fiziki aktiv olmaq, normal maddələr mübadiləsini və çəkini qaydada saxlamaq, ildə 1 dəfə müayinədən keçmək lazımdır.

Həkim onu da tövsiyə edir ki, qaraciyəri özbaşına müalicə etmək olmaz. Bunun üçün mütəxəssisə müraciət etmək, düzgün təyinat almaqda fayda var.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yeni ilin ilk qarı

***Yanvarın 10-u səhər saatlarından başlayaraq, Quba, Xaçmaz və Şabran rayonlarının ərazisinə yeni ilin ilk qarı yağıb.***

Qubada yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən bildirilib ki, qarın hündürlüyü Qubanın mərkəzində, Qusarın Ləzə kəndində, Xaçmaz və Şabran rayonlarında 1 santimetr olub. Həmişəkindən fərqli olaraq, bu dəfə yüksək dağlıq ərazilərdə qar qeydə alınmayıb.

Qubanın Qırız kəndində temperatur mənfi 8, Xızının Altıağac qəsəbəsində isə mənfi 6 dərəcəyə düşüb.

*XQ*

Hava

# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***



Lakin gecə bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 0-3°, gündüz 4-7° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən gecə və axşam bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-8° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3255
SİFARİŞ 48
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00